üçün bunlardan biridə Zəngəzur əmirliyinin rəhbəri Nəbi bəy idi ki, bu nəsil Zəngəzurda hakimiyyətlərinisaxlamış və hətta nəticəsi Murtuza bəy Nəbibəyli xanlıq dövründə də Zəngəzurun-indi 17 bölgədən ibarət torpaqlarının Sultanı, Qarabağ Xanlığının baş sərkərdəsi olmaqla XX əsrin əvvəllərinə kimi hakimiyyətlərini qoruya bilmişlər. Qarabağ bəylərbəyliyinin tərkibində birbaşa bu bəylərbəyliyə tabe olan beş məliklik – Vənənd, Çiləbird, Yaçın, Talış, Dizaq olmuşdur. Yaçın məlikliyi əsasən albanlar idi, xristianlığı saxlaiışdırlar, lakin digər dörd məliklərdəki az saylı ermənilər gəlmə olmaqla, onların nə vaxt, haradan, necə gəlmələri haqqında tarixi sənədlərdə və bir çox digər mənbələrdə saxlanılmaqdadır. Həmişə olduğu kimi, həmin dövrdə də fars hökuməti Qarabağ-Gəncə bəylərbəyliyini vəzifəsini əlində irsən saxlayan Qacar Ziyad oğlu nəslini zəiflətmək üçün Qarabağ məliklərini bu bəylərbəylikdən azad etmiş, onları birbaşa şah hakimiyyətinə tabe etmişdi. Adı çəkilən məlikliklərin əhalisinin sayı çox az idi. Bunun ən tutarlı və çox yayılmış sübutu Qarabağ xanlığının ləğvi ilə bağlı 1823-cü ildə keçirilmiş kameral sayımdır. Bu sənədə görə qarabağ əyalətində 18 min 563 ailə yaşayırdı. İndi ermənilərin iddia etdikləri beş məlikliklərdə isə alban türk və digər türk-xüsusəndə sakların törəmələridə yaşayırdılar, əsasəndə dağlıq ərazi olduğundan heyvandarlıqla məşğul olurdular. Bütün bunlarla yanaşı həmin beş məliklikdəki əhalinin miqdarı bir min 559 ailə (1559 ailə)-yəni ümumi Qarabağ əyaləti əhalisinin 8,4%-ni təşkil edirdi. Ermənilər əsasən dəmirçi, nalbənd, fəhlə və varlıların təsərrüfatlarında nökərçiliklə məşğul idilər. O, dövrdə ermənilər say etibarı ilə az və gəlmə olduqlarını bildikləri üçün hər dəqiqə qovulacaqlarından ehtiyat edərək çörək uğrunda, qarınlarını doyurmağı təmin etmək uğrunda mübarizə aparırdılar. Heç kimdə şübhə doğurmayan məqamlardan biridə XVIII əsr və XIX əsrin əvvəllərində yuxarı Qarabağın (Dağlıq Qarabağ) Qarabağ xanlığının tərkibində olmasıdır. XIX əsrin 1-ci yarısında Qarabağı ruslar işğal etdi. Bu dövrlər haqqında məlumat verən V.L.Veliçko, B.Yşxanyan, Y.Əliyev və s. göstərirlər ki, ərəblərin Albaniyanı işğal etdikdən sonra, xüsusən də X-XII əsrlərdə alban əhalisində qriqorianlaşdırılma ilə yanaşı, islamın təsiri ilə Albaniyanın

müsəlman hissəsinin türkləşmə istiqamətində gücləndi. Sonralar qriqorianlaşma erməniləşmə ilə əvəzləndi. Milliyyətcə erməni olan B.Yşxanyan bu haqda yazır ki, «Dağlıq Qarabağda yaşayan «ermənilərin» (yəni albanlar nəzərdə tutulur) bir hissəsi yerli əhalidir, yəni qədim albanların nəsillərindəndir».

1810-cu ilin rəsmi məlumatlarına istinaya görə «Qarabağ vilayətində» (Yuxarı Qarabağda) 12 min ailə yaşayırdı. Bunlardan 2500-ü xristian olmaqla –əksəriyyəti erməni ailəsi idi. 1823-cü ildə Zaqfederasiyanın paytaxtı olan Tiflisdə oturan və Qarabağ əyalətinin statistika müşaviri Mogilyovski və palkovnik Yermalov tərəfindən tərtib olunmuş siyahıyaalma yalnız 1866-cı ildə çap olunmuş və bu dövlət sənədinə əsasən Qarabağ xanlığında ümumilikdə 90.000 sakin, bir şəhər və 600-dən çox kənd olmuşdur. Köçürmələrin hesabına 600 kəndin 150-sində ermənilər, bəzilərində isə ermənilərlə yanaşı digər ailələrdə yaşayırdı. Xanlığın paytaxtı olan Şuşa şəhərində ümumilikdə 1048 ailənin yalnız 474-ü erməni və digər xristian ailələri təşkil etmişlər. O da məlumdur ki, Qarabağ xanlığı Rusiya tərkibinə daxil olan kimi Qafqaz qoşunlarının başçısı əslən gürcü-erməni qarışıqlı sisianov Qarabağda rusların mövqelərini möhkəmlətmək üçün onun Azərbaycanda əsas siyasətinə uyğun olaraq Zaqafqaziyanın digər əyalətlərindən erməniləri Qarabağın dağlıq hissələrinə, xüsusən məlikliklərə yerləşdirmə yolunu seçdi. Bu siyasət davam etdirilərək 1825-1826-cı illər Rusiya-Iran müharibəsində həm ruslar və həm də farslar hələ müharibənin gedişində belə Qarabağa 18 min erməni ailəsini zorla köçürtdülər. 1828-ci ilin 10 fevralında Iran ilə Rusiya arasında bağlanan Türkmənçay müqaviləsinə əsaslanaraq Azərbaycanın iştirak və razılığı olmadan 8.249 erməni ailəsi fars yaşayış məntəqələrindən Qarabağ əyalətinə, Irəvan quberniyasına, Şamaxı qəzasına və s. Azərbaycan türk torpaqlarında məskunlaşdırıldı. Türkmənçay müqaviləsində ruslar gələcəyə məkirli fikirlərlə, bu günkü vəziyyəti yaratmaq üçün söylənilən yollarla erməniləri türk-islam dünyasının mərkəzinə bir pərçim kimi yeritməyi, gələcəkdə ondan istifadə etməyi qərarlandırmışdı. Amma, farslar nə XVIII əsrin əvvəlində və nədəki, XXI əsrin əvvəllərində rusların bu siyasətinin Irana qarş da olduğunu dərk

etmək istəmirlər. Halbu ki, ermənilər hazırda Türkiyə, Azərbaycan, Gürcüstanla yanaşı Irana qarşıda torpaq iddasında olmaqla bu torpaqların oborogen əhalisini olmamaqla-xristian təbəəlidir. Ermənilər Azərbaycanı Xristianlaşdırarlarsa, Cənubi Azərbaycanı və fars körfəzini götürmək iddiasındadırlar. Iran ən azı bir islam müdafiəçism qismində ağlını başına yığmalıdır, xüsusəndə Azərbaycan türk tayfalarından ən azı heç bir zərər görmədiyindən. Bu günkü islam dəyərləri əsasında və qədim tarixi birgəyaşayış qaydaları ilə Azərbaycan türk tayfaları ilə farsların qarışığı heç də az deyil, amma ermənilər islam dinli dövlətlərdən zaman-zaman istifadə etsək də, ümumilikdə islamlaşma deyil qriqorionlaşma yolunu çoxdan tutmuşlar.

Tarixi sənədlər və dəlillər göstərir ki, 1828-ci ildən 1930-cu ilə qədər cəmisi iki il müddətində Irandan şimali Azərbaycana 40 min erməni ailəsi köçürülərək ölkəmizin çox əhəmiyyətli torpaqlarından və haradakı ermənilər yoxdur, yaxud azlıq təşkil edirlər-həmin bölgələrdə-Göyçə mahalında, Irəvan quberniyası ətrafında və Selizavetopol quberniyasının bəhərli torpaqlarında yerləşdirməklə bir növ Iranla erməni xislətli xristian sərhəddi yaratmışlar. Elə həmin illərdə (1828-1830) ruslar Türkiyədən də 84 mindən çox erməni ailəsi, rəsmi və qeyri-rəsmi 200 mindən çox erməni ailəsini Azərbaycana, indiki Gürcüstanda azərbaycanlılar, axısqalılar, Qara dəniz sahilləri boyu çox səmərəli və strateci əhəmiyyəti olan torpaqlarda yerləşdirməyə müvəffəq olmuşlar. N.N.Şavrovun yazdığına görə «bu köçürmələr nəticəsində Zaqafqaziyada yaşayan 1,3 milyon erməninin bir milyondan çoxu bu diyarın köklü sakinləri olmayıb bizim (rusların) tərəfimizdən məskunlaşdırılmışdı». 1832-ci il sayımına görə qarabağ bölgəsində azərbaycanlıların sayı 32,4 min ermənilərin sayı isə sıfırdan 17,4 min nəfərə qədər çoxalmışdı.

Ümumilikdə ermənilərin Zaqafqaziyaya və hansı məqsədlərlə köçürülməsi ideyası müəlliflərindən biri, islamın və türkün qanına susayan A.S.Qriboyedov deyilənlərlə bağlı yazırdı: - «Erəmənilərin ilk dəfə buraxıldıqları torpaqlara əbədi sahib duracaqlarından müsəlmanlar içərisində olan qorxunun götürmək üçün (sonuncuların) düşdükləri ağır vəziyyətin uzun sürməyəcəyini

deməklə onları sakitləşdirmək məsələsini biz çox götür-qoy etmişik». Ermənilərin Azərbaycan torpaqlarına köçürmə ideyasının başqa müəllifi olan N.N.Şavrov öz məqsədləri haqqında yazmışdı: «Biz müstəmləkə fəaliyyətinə Zaqafqaziyada rus əhalisinin deyil, bizə yad xalqların yerləşdirilməsindən başladıq».

Qeyd edək ki, Türkmənçay (1828-ci il) müqaviləsindən sonra Qarabağ bir müddət rus hərbi komendantlığı tərəfindən idarə olunurdu. XIX əsrin 20-60-cı illərində isə Qarabağ mərkəzi Şamaxı şəhəri olmaqla Şamaxı quberniyası tərkibinə qatılır. 1868-ci ildən 1920-ci ilə qədər Qarabağ mərkəzi Gəncə şəhəri olan Yelizavetopol quberniyası ilə birlikdə «yaşamışdır». Təbii ki, Azərbaycan Demokratik Respublikası dövründə də Qarabağ bütövlükdə Azərbaycan tərkibində olmuşdur. Lakin 1905-1907 və 1914-1920-ci illər arasında bu diyarda ermənilər 1988-1991-ci illərdə olduğu kimi əlaltdan silahlanaraq əliyalın insanlara-qocalara, uşaqlara, qadınlara qarşı amansız olmuş, azərbaycanlıların yaşadıqları yaşayış məskənlərini xarabazarlığa çevirmiş, əhalini vəhşicəsinə məhv etmiş, var-dövlətlərinə, torpaqlarına sahib çıxmışlar. ADR dövründə ermənilərə qarşı, xüsusəndə tayqulaq Andranikə qarşı ADR-də nazir vəzifəsini tutmuş Xosrov bəy Paşa bəy oğlu Sultanov bu vəzifədən imtina etməklə qarabağa general qubernator vəzifəsinə keçir. Yuxarı Zəngəzurun bir hissəsinə, Hacısamlı dərəsi adlanan yaşayış məntəqələrinə rəhbərlik edən Sultan bəy qardaşı Xosrov bəyin göstərişləri ilə erməni işğalçıları ilə heç də bərabər olmayan qüvvələr nisbətində döyüşmək məcburiyyətində qalır. ADR-nın isə Xosrov bəyə köməklik götərməyə elə bir imkanı yox idi. Daşnak Andranik Qarabağ erməniləri ilə birləşmək və bütövlükdə Qarabağı öz əlinə almaq fikrinə düşür. Naxçıvanda, aşağı Zəngəzurda çox acınacaqlı qızğınlar törədən Andranik Sultan bəylə hiylə yolu ilə «dil» tapmaq fikrinə düşür. Bununda səbəbi onun yolunun indiki Laçın bölgəsinin Zabux çayı, Zabux çayı körpüsündən hərbi sursatın və qoşununun itkisiz buradan keçmə məcburiyyəti idi. Qarabağa ən qısa və hərbi baxımdan əlverişli mövql tutma yolu buradan keçirdi. Sultan bəy bu fikirdə çətinlik çəkdiyindən atası Paşa bəylə məsləhətləşməli olur. Paşa bəy özü təkbaşına məsuliyyətin altına girməkdən çəkinir və tanıdığı,

bəyəndiyi, ağıllı sandığı 8 nəfəri öz yanına dəvət edib, vətənin darda olduğunu bildirir. Çox fikirlər, mülahizələr, təkliflər olur. Ancaq Paşa bəy yaşca hamıdan kiçik, böyük Zəngəzurun axırıncı Sultanı, Qarabağ xanlığının baş sərkərdəsi olmuş Cəbrayıl bəy Nəbibəylinin kiçik oğlu, Sank-Peterburq Texnologiya insititunda təhsil almış Çəlil bəyin fikirləri üzərində dayanmalı olur. Hamı yekdil və həmrəy olduqdan sonra Sultan bəy qardaşı Xosrov bəylədə fikir bölüşür və daşnak Andranikə xəbər göndərmək qərarına gəlinir. Cəlil bəyin təklif və tövsiyyələri əsasında Andranikə qarşı qurulan əməliyyat öz bəhrəsini verir, Andranikin hərbi silah və sursatı əlindən alınır, qoşunu Laçın bölgəsinin Zabux çayında məhv edilir, özü isə mühafizə dəstəsi ilə geri qaçmağa məcbur olur. Bu Azərbaycan tarixində ermənilərin hücumlarına qarşı aparılmış ən böyük və uğurlu əməliyyat olmaqla, XX əsrin əvvələrində Qarabağın ermənilərdən xilasının əsasını təşkil edir. Elə buda na gətirib çıxarmışdı ki, 1919-cu ildə Qarabağın erməni əhalisi yığıncaq keçirərək Azərbaycanlılarla tam birliyə, onunla yaşamağa, həmrəy olmağa səs verməli olmuşlar.

Qırmızı imperiya Azərbaycanı yenidən öz caynağına aldıqdan sonra 1920-1923-cü illərdə keçmiş Qarabağ xanlığı və Yelizavetopol (Gəncə) quberniyasının inzibati ərazi bölgüsündə bir sıra ciddi dəyişikliklər edildi.

Qarabağın Zəngəzur mahalı, o cümlədən Mığrı, Qafan (Mədən), Gorus, Basarkeçər və s. yeni təşkil edilən Ermənistan Respublikasına birləşdirilir. Azərbaycanla hesablaşmayan ruslar Dilican dərəsi deyilən sahəni, Göycə mahalını bütövlükdə və parça-parça etməklə ayrı-ayrı vaxtlarda ermənilərə verməklə Azərbaycan Demokratik Respublikasının ermənilərə səhvən güzəşt etdikləri 9,1min kvadrat klometrlik sahəni təxminən 4 dəfə artırmış oldular. Çox asanlıqla hazır vəziyyətdə olan şəhər və kəndlər əldə edən ermənilər qana susayan canavar kimi bu torpağın halal-hazır sakinləri olan Azərbaycan türklərini qəddarlıqlarla oradan qovmağa, məhv etməyə başladılar. Bu azmış kimi rus himayədarlarının köməyi ilə fürsəti əldən verməyən ermənilər 1923-cü il iyulun 7-də Yuxarı Qarabağın Azərbaycanda qalan hissəsinə muxtariyyat verilməsinə nail oldular. Elə həmin

tarixdəndə bu torpaqlar Yuxarı Qarabağ əvəzinə Dağlıq Qarabağ adlandırıldı. Qısa fasilədən sonra 1929-cu ildə Nüvədi, Exnadzor və Tuqut kəndləridə ermənilərə bəxşiş edildi. Həmin ərəfədə Azərbaycanın prinsipal mövqeyi olmadan, yəni rəhbərlikdən azərbaycanlılar söz sahibi olmadığından əhalisinin milli tərkibi 100%azərbaycan türkü olan 9 kənddə Azərbaycan ictimaiyyətindən gizli ermənilərin səlahiyyətlərinə tabe etdirildi.

Ermənilər «iştah diş altındadır» prinsipindən daha çox bəhrələnmək üçün Mikoyanın köməkliyi ilə 1945-ci ildə «Qarabağ məsələsini gündəmə gətirdilər. 1945-ci ildə Ermənistan KP MK-nın 1-ci katibi işləyən Arutunov DQMV-nin Ermənilərin tabeçiliyinə verilməsi üçün SSRI-i partiya katibi vəzifəsindən işləyən Malenkova təqdim edilir. Məktubu imzalayan Malenkov onu Azərbaycan k(b) P-nın 1-ci katibi M.C.Bağırova ünvanlayır. M.C.Bağırov mərkəzə öz cavabından «etiraz etmirəm, bir şərtlə ki, Ermənistan SSR, Gürcüstan SSR, Dağıstan MSSR-də azərbaycanlılar yaşayan, Azərbaycanla həmsərhəd olan və tarixən Azərbaycanın ayrılmaz hissəsi olan ərazilər onun özünə qaytarılsın» fikri ilə cavablandırır. Çox düz, tarixi reallığa söykənən M.C.Bağırovun şərtləri bütün siyasi büronu və onun birincisi Y.V.Stalini təşvişə salır və məsələ qapanmış olur. Elə M.C.Bağırovun vətən üçün bu yanımlı mövqeyi kifayətdir ki, onun anadan olduğu kənddə, yaxud şəhərdə ona bir abidə ucaldılsın. Təbiətən çox məkrli, həyasız və hiyləgər olan ermənilər M.C.Bağırovun kəskin cavabından sakitləşmirlər və yeni-yeni hiylələrə əl atırlar. Beləliklə, ermənilər «Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlıların köçürülməsi haqqında» 1947-ci il dekab ayının 23-də SSRI Nazirlər Sovetinin qərarını çıxartdırmağa nail olurlar və Ermənistan adlandırılan Qərbi Azərbaycandan əsl yerli əhali olan azərbaycan türkləri öz doğma ata-baba yurdlarından acınacaqlı surətdə köçürülürlər. 1953-cü ilə qədər sürən bu prosesdə 11.914 » təsərrüfat, yaxud qorxudan özləri köç edənlərlə birlikdə 63 mindən artıq əhali bu torpaqları tərk etməli olur. Təbii uyğunlaşmadan min-bir əiyyət çəkən bu türk əhalinin xeyli hissəsi dünyasını dəyişməli olur. 1953-cü ildən 1988-ci illərə qədərdə ermənilərin azərbaycanlıları sıxışdırması

əbəbindən xeyli əhali Azərbaycana gəlmişdir və ermənilər hər cür yardımlar etmiş, yeri gələndə yalançı arayışlarda vermişlər. 1987-ci ildən Ermənistanda azərbaycanlılara qarşı proses və Dağlıq Qarabağın ermənilərə verilməsi məsələi açıqdan-açığa böyük vüsət aldı və Ermənistanda yaşayan axırıncı 200 mindən artıq azərbaycan türkü, 40 minə yaxın isə müsəlman kürdlər, yunanlar, ruslar və s. əhali son nəfərinə qədər öz doğma vətənlərindən zorla, təgirlə, ölümlə çıxmağa məcbur oldular.

Erməni nəyə qadirdir sualı olrasa, bu prosesdə onların törətdikləri cinayətlərdən birini misal gətirmək yerinə düşər. Ermənilər kiçik azərbaycanlı uşaqları zorla böyük dciametri uzun bir dəmir turbanın içərisinə dolduraraq onu hər iki tərəfdən soymayan ermənilər içi ölməmiş uşaqlarla, heç nədən çəkinmədən, Tanrınıda yaddan çıxaaraq örpələrin belə bir işgəncə ilə öldürülməsindən əl çalıb oynamışlar. El araında bir deyim var-daha szüm yoxdur.

Yuxarıda söylədiyimiz kimi erməni-müsəlman, Ermənistan-Azərbaycan və Dağlıq Qarabağ probleminin kökləri xeyli dərinliklərdədir və bu işdə özümüzün özümüzə biganəliymizdə az səbəbkar olmamışdır. bUrada hazırki tarixi durum nöqteyi-nəzərdən Dağlıq Qarabağın biim üçün problem olmasında, Ermənistanın –Azərbaycana qarşı münaqişəsində indiki məzmun olmasında bir sıra amilləri daha qabarıq göstərməliyik.

Bunların ən başlcası ermənilərin dənizdən-dənizə, Qara dənizlə Xəzər dənizi arasındakı torpaqları mənimsəməklə «Böyük Ermənistan» yaratmaq ideyasıdır ki, bununda XIX əsrin sonunda ermənilərin «Daşnak» partiyası irəli sürümüşdür. Erməniləri bu məsələdə qonşu xalq və dövlətlərin məsələyə liberal baxışlarıda sövq edən ştirxlərdəndir.

Ikinciçi, əsasən bizimlə qonşu olan dvlətlərin, xüsusən Rusiya imperiyası ilə Iranın öz imperiya maraqlarını qorumaq, lazım arzularını həyata keçirmək üçün erməniləri qabağa verməklə bu münaqişədən strateci məqsədlərində bəhrələnməkdir.

Əlbəttə burada Iran düz mövqe ttmur və bunun üçün kifayət qədər tarixi gerçəkliklər yetərincədir əslində Iran Azərbaycana bir saylı yardımçı olmalıdır.

Digər məsələ, Səfəvilər dvlətinin süqutundan sonra Azərbaycan rəhbərliyində bu məsələnin yeni tarixə uyğun gündəmə gətirilməməsi, Azərbaycanın kimliyini dünya dövlət və xalqlarına tam aydınlığı ilə təbliğ edilməsitnədir. Azərbaycana imperiya yaratmaq lazım olmasada, özünün əsl torpaqlarının sahibi olması iddiasında mütləq olmalıdır.

Ermənilər yalandan bir bu qədər Azərbaycan, Iran, Gürcüstan, Rsiya, Türkiyə torpaqlarına iddialıdırsa, biz nə üçün öz ata-baba torpaqlarımza iddialı olmayaq, biz ki, yalan söyləmirik, bəs düz lmadığımızı niyə dilə gətirmirik?!..

Bizim üçün ağır və ağrılı vaxtlardan olan XX əsrin 5-3c illərindəki, istərsə də Qırmızı imperiyanın dağıldıqdan sonrakı illərindəki –özümüzün vətən, xalq, tarix qarşısındakı mövqeyimi, kiçik maraqlar, küt başla bir saylı kreslda oturmaq, kürsü, hakimiyyət naminə böyük maraqları qurban vermək, kiminsə məsləhəti (torpaqları müdafiə əvəzinə) ilə hakimiyyət ötür-ötür oyun oynamaqla Azərbaycanın bu günkü ərazi bütövlüyünün qurban vermək, qətiyyətsiz mövqe tutmaq, qətiyyyətsizhərəkətlər etmək Azərbaycan vətəndaşlarına qarşı cinayətdən başqa bir şey deyildir.

Unudulması düzgün olmayan Yuxarı Qarabağa Muxtar vilayət statusunun vaxtı ilə düzgün olmadan veilməsi məsələinə Azərbaycanın bu illər ərzində toxunmamasıdır. Beləki, ermənilər SSRI məkanında öz müqəddaratlarını həll emişlər. Belə olan halda əgər 1923-cü ildə və sonrakı illərdə, Azərbaycanda rəhbərlikdə başqa millətlər idisə, bundan sonrakı illərdə xüsusən Azərbaycanın 2-ci dünya müharibəsindəki verdiyi töhvələr dövründə, istərsə də «Azərbaycan iri addımlarla», «Qırmızı bayraqlarla» addımlayan zamanlarda ən azı Ermənistanda yaşayan «azərbaycanlılar üçün gələcək tarix naminə olsada belə Muxtar Vilayət istəyi il çıxış edəç bilərdi. Amma, bunun müqabilində ermənilər Dağlıq Qarabağərazilərində erməni coxluğu yaratmaq üçün müxtəlif yerlədən erməniləri buraya köçürməsində də Azərbaycan rəhbərliyi biganə yanaşırdı.

Erməni ailələrinin məsələnin əsl məğzini düzgün dərk edənləri həmişə istər Dağlıq Qarabağdan və istərsədə Qərbi Azərbaycandan

(Ermənistan) köçürərək başqa dövlətlərdə yaşamağa üstünlük vermişlər.

Bunları görüb dərk edən Azərbaycan rəhbərliyidə heç olmazsa Dağlıq Qarabağda öz torpaqlarında yaşayan azərbaycanlılara daha yaxşı şərait yaratmaqla oradakı əhali miqdarını Azərbaycanın nəfinə artırmaqla problemi vaxtında çözə bilədi. Çox təəssüflər olsun ki, bu dövvrlərdə də biz özümüz oradakı ermənilərə daha yaxşı şərait yaratmışıq, onların he bir neqativ hərəktəlrinə göz yumub başlarını tumarlamışıq, yax milli maraqlarımızı biz erməni haxciyinə «hədiyyə» etmişik.SSRI-nin süqutu ermənilər üçün məlum məsələ idi elə bu səbəbdəndə 1988-1989-xu illərdə Dağlıq Qarabağda yaradılan «Krunk», «Qarabağ» (həsrət, durna) erməni millətçi-siyasi əşkilatları milli məsədə bir növ katalizator funksiyasını yerinə yetirirdi. O, vaxtki. Azərbaycan rəhbərliyinin əlində kifayə qədər imkan və əsas var idi ki, u erməni millətçilərinə öz yerlərini göstərsin. hƏtta, ermənilərin ona debil deməsidə bu şəxsi ayıltmadı. Buradan belə bir təbii sual doğur. Görərsən bu tip insanlar Azərbaycanda kürsüləri hansı üsullarla ələ keçirirlər?qeyd edəke ki, dövrlərdə və ondan sonrada Ermənistan rəhbərliyi Dağlıq Qarabağın müstəqilliyi, onun Azərbaycandan ayrılıb Rusiyaya verilməsi məsələsini dəfələrlə SSRI rəhbərliyindən xavhiş etmişdir. Təkcə Dağlıq Qarabağda, Ermənistanda kürsü sahibləri olan deyil kənar dövlətlərdə yaşaya və müəyyən mövqe tutmuş erməniloərdə bu işlə ciddi-cəhdlə məşğul olduqları halda Azərbaycan rəhbərliyi özünü beynəlmiləlçi kimi göstərməyə çalışırdı, yaxud səsini çıxarmır heç millətinin qarşısına çıxıb bir sözdə demirdi, Azərbaycanlılar, Z.Babayanlar isə bizim əlimizdə böyyüməlırinə baxmayaraq, Azərbaycanın əleyhinə yeni-yeni kompaniyalar yaradır, «ideyaları» irəli sürür Rusiya, ABŞ Fransa, Iran prezidenləri ilə görüşlər keçirir hədiyələr veir, özlərinin haqlı olduqlarını übuta yetirmək üçün dərindən-qabıqdan çıxırdılar. Bu hadisələrdən az sonra Rusiyanın havadarlığı ilə Ermənistan qoşunları rus qoşunları ilə birgə əli silahsız Azərbaycan içərilərinə soxulmağa başladı, təbii ki, bu məqamda Azərbaycanın hakimiyyət, kürsü hərislərinində torpaq alveri «siyasətləridə» ermənilərə əlavə yardımçı oldu. Hazırda, Ermənistan-Azərbaycan müharibəsi Dağlıq

Qarabağa görə beynəlxalq problemə çevrilmişdir və ayrı-ayrı dövlətlər tərəfindən Dağlıq Qarabağla bağlı, Ermənistan-Azərbaycan müharibəsi ilə bağlı müharibənin başvermə səbəbləri və onların aradan qaldırılma yolları, onların həlli üsulları ilə bağlı verilən qiymətlər, onun ifadə tərzləri Azərbaycan üçün qəbuledilməzdir, qərəzlidir. Bəs Azərbaycan nə etməlidir.

Bizcə Azərbaycan ilk növbədə türk dövlətləri və islam dövlətləri ilə danışıqlar aparıb, onların bu işə birmənalı Azərbaycanın xeyrinə fəaliyyətlərinə, həmdə əməli fəaliyyətlərinə nail olmalıdır, xüsusəndə Türkiyə və Iranla, Rusiyanı və Georgeni isə qonşu dövlətlər kimi. Avropa və Amerikaya gəldikdə isə həm nəqliyyat dəhlizi, həm də enerci verən, enerci ötürən bir məkan müqabilində, demokratik yeni dəyərlər istiqaməti götürən, qəbul edən bir ölkə imici təqdim etmək müqabilində onlardan nə isə almaq, istəmək gərəkdir. Amma, bunların heç birinə arxayın olmaq, bel bağlamaq olmaz. Çünki, bunlar hamısı xristian ölkələridir, insan haqları məsələləridə kütləyə köklənmiş bir siyasətdir, pərdə arxasında isə çox məqamlar var. Bizcə söylənilənlərdən dəfələrlə çox məqamlar daxili siyasət məsələsi olmaqla, öz xalqına, öz millətinə inanmaq gərəkdir, onu inandırmaq gərəkdir, vətəndaşa da qiyməti onun qabil olduğu dəyərlərə görə vermək gərəkdir. Elə etmək lazımdır ki, hamı milli ruhlu olsun, vətən üçün hər şeyindən deyil canından da keçsin, millət özü-özündən razı olsun, millət özündə nöqsan axtarmasın, əksinə milli dəyərlərlə yaşasın, Dədəm Qorqudda olduğu kimi, axı biz onun övladlarıyıq. Bir sözlə milli birlik, milli birlik və bir dihi milli birlik.

Cənubi azərbaycanlıların Qarabağ və erməni məsələsində ayağa qalxmaları yolunda işlər aparılmalıdır, dünya azərbaycanlılarının həmrəyliyinin yeni vüsət almasına nail olmaq gərəkdir. Əgər dünyanın başqa məkanında yaşayan azərbaycanlı insanların Azərbaycan Respublikasındakı yaxınları hakimiyyətdən narazılıq edəcəksə, həqiqi milli birliyə nail olmaq çətindir. Azərbaycanda onun qəbul etdiyi qanunlar hamı üçün eyni olmalıdır, nəyin müqabilindəsə fərq qyularsa milli birlikdən danışmağa dəyməz. Dövrnən ayaqlaşmaq vacibdir, indi qədim – Nuh-Nəbidən qalma qohumbazlıq, yerlibazlıq, dostbazlıq, rüşvətxorluq, korrupsiya,

şərləmə, yalandan üzədurma, özündən müştəbehlik, heç kimi bəyənməmək, kəmhövsəlilik hakimiyyəti təmsil edən insanlara yad olmalıdır. Insanlar hər hansı hakimiyyət sahibinin yanına gedəndə ümidlə getməlidir, onun probleminin həll olunacağına inanmalıdır, onunla görüşdən məmnun qalmalıdır, haqq-ədavətin yerində olduğunun şahidi olmalıdır. Buna nail olarıqsa, özümüzə-gücümüzə inanarıqsa nəinki, Qarabağı – Hətta Irəvanı, Borçalını, Dərbəndi istəyər, bunları əldə etməyə özümüzdə güc və təpər hiss edərik.

Əlbətdə, müharibə və münaqişlərin həllində dünya təcrübəsindən də etiraz etmək olmaz, istənilən halda danışıqları aparmaq gərəkdir, amma Azərbaycanın şərtlərini onlara ağılla-kamalla «yedirtməklə». Bizsiz danışıqlar aparan hər bir digər dövlət rəsminə Qərbi Azərbaycanın (Ermənistanın), Dağlıq Qarabağın həqiqi tarixini, onun müharibələr – münaqişələr tarixini qısa yazaraq, onun öz dilinə çevirməklə təqdim etmək yerinə düşərdi. Işğalçı ilə, gəlmə erməni ilə ev yiyəsi, yəni Azərbaycan doğru tərəf kimi seçilərdi. Əks tədqirdə bu danışıqlar Israil-Fələstin danışıqları kimi 60 il sürər və heç bir nəticə əldə olunmaz.

Bir məqamda toxunmaq istərdik. Dağlıq Qarabağın erməni işğalından qurtarmaq yolu, həm də birdə fəlik həlli yolu Azərbaycan xalqının vətən müharibəsi yoludur. Yuxarıda söylənilənlərə, xüsusəndə daxili birliyə, inama nail ola bilsək Azərbaycan xalqını bu mücadiləyə yönəltməklə Azərbaycanın tarixən işğal olunmuş torpaqlarının qaytarılma iddasınıda əlavə etməyə bir şans yaranmış olardı. Yaddan çıxarmaq lazım deyil ki, neft bizim əbədi gəlir mənbəimiz olmayacaqdır. Odur ki, ilk öncə ölkənin iqtisadi səviyyəsini qaldırmaqla, psixoloci durumu 2-ci dünya müharibəsində olduğu kimi, ölkəni hərbiləşdirmək yolu sermək daha məqsədyönlü olardı. Burada mütləq idarəetmədəki qusurlarda aradan götürülməli, vətənpərvərlik hissləri yüksəldilməli, ölkə müharibə yaşayış qaydalarına uyğunlaşdırılmalıdır. Hazırda heç kimə sir deyil ki, Ermənistanın Azərbaycan torpaqlarının 20%-ni işğal etməsi Azərbaycan daxilində bir çox sosialistiqamətli ziddiyyətlərin yaranmasının rəhni olmuşdur. Onların sırasına böyük şəhərlərdə, xüsusən paytaxt Bakıda məişət, mənzil, mülk, torpaq, sosial hərəkatlar, kənd-şəhər,

bölgə-şəhər uyğunsuzluğu, ixtilafları, işsizlik, bölgəçilik motivli narazılıqlar-haqsızlıqlar və s. və ilaxır daxil etmək mümkündür.

Buradan da aydın olur ki, Ermənistan-Azərbaycan müharibəsinin Azərbaycanın xeyrinə həlli Azərbaycan daxilində özünə kök salmış bir sıra narazılıqların, sosial problemlərin həlli ilə nəticələnə bilər, Azərbaycanın dövlət gəlirləri bir qrup insanların şəxsi gəlir mənbəindən Qarabağdan, Qərbi Azərbaycandan didərgin, qaçqın-köçgün düşmüş insanlarımıza öz doğma yurdlarında şərait yaradılmasına yönələr, haqq-ədalət müəyyən qədərdə olsa öz yerini tutar, hər bir azərbaycanlı öz vətənində yaşamaqla qurur hissi duyar.

## II BÖLMƏ

«Kitabi-Dədəm-Qorqud»
Türkün müqəddəs dini-mənəvi kitabı kimi.

Haray malın öz yiyəsi,
Oğluda yox, Atası ! . . .
(Azərbaycan xalq deyimi)

Azərbaycan və dünya alimlərindən H.Araslı, Ə.Dəmirçizadə, Ş.Cəmşidov, A.Budaqov, K.Abdullayev, Ə.Elməddin, E.Əlibəyzadə, M.Erkin, A.Yakubovskiy, X.Koroğlu, Övliya Çələbi, B.Bartold, Orhan Şaik və bir çoxları «Kitabi-Dədəm Qorqud»un əldə olan nüsxəsinin qələmə alınma, köçürülmə tarixini əsasən IX-XI əsrlərə aid edirlər. Amma, bir qrup qorqudşünaslar etiraf edirlər ki, yazıdakı surətlər daha qədimdə, hətta eradan əvvəl baş vermiş tarixi hadisələrlə bağlı məqamlar daha çox üstünlük təşkil edir. Türkçülük, Turançılıq, Türk dövlətçiliyi sahəsində bütün Turanda ad çıxarmış, iz qoymuş, söz söyləmiş, diriykən özünü şəhid etmiş Rafiq Turabxanoğlu «Kitabi-Dədəm Qorqud» haqqında deyilənlərə hörmətlə yanaşmaqla bərabər, öz araşdırmalarında yeni istiqamətlər, bütün Türk dünyasına, xüsusəndə Oğuz və Qıpçaq qoluna, bu günkü Azərbaycana daimi şöhrət gətirə biləcək cığırlar aça bilmişdir. O, deyir bütün qorqudşünaslar həmişə Dədəm Qorqud kimdir sualını özlərinə vermiş, axtarış aparmış, lakin son söz deməyə acizlik çəkmişlər. Əgər, Dədəm Qorqud kimdir – sualına qəti cavab verilərsə bu tarixi «abidənin» dəyəri, qiyməti daha da artar, yeni baxışlar ortaya qoyular, qədim dünyanın, sivilizasiyaların, dünya mənəviyyatının təməlçiləri öz həqiqi qiymətlərini alarlar. Qeyd edək ki, Dədə Qorqudu Islam dininin yaradıcısı ilə eyni vaxtın adamı olduğunu söyləyənlərdə var, ondan sonrakı dövrlərdə yaşadığını isbat etməyə çalışanlarda. Guya «Kitabi – Dədə Qorqud»da cərəyan edən hadisələr Azərbaycanda, onun keçmiş Aran – Albaniya ərazisində VII əsrdə, hələ Mühəmməd Peyğəmbərin sağlığında azəri türklərinin iki dini etiqadın

qovuşuğunda olduğu dövrdə baş vermiş tarixi reallığı əks etdirir. Bunu azəri-oğuz məmləkətində yaşayan dastan qəhrəmanlarından – «Peyğəmbərin səhabəsi adlandırılan Bəkdüz Əmənin «Peyğəmbərdən dərs almış», sonra – Oğuza gələn, Dağıstan bütpərəstlərinə Şəhid olub Dərbənd şəhərində məzarı ziyarətgaha çevrilmiş ümumoğuz ulusu Dədə Qorqudun timsalında görürük». Əlbəttə, Mühəmməd Peyğəmbər Əleyhissəlamın ən yaxın həmsöhbətləri «Səhabə» adlanırdı. Lakin deyilən bu Bəkdüz Əmən «Səhabə» əslən Zəngəzurlu səyyah, coğrafiyaçı-tarixçi, astronom və Mühəmməd Peyğəmbər Əleyhissalama «Xəndək davası» ideyasını verən görkəmli şəxs olmuşdur. O, indiki Yuxarı Qarabağın Laçın bölgəsindəki Uludüz (Pircan kəndinin yaxınlığında) yaşayış məntəqəsindən olan bəyzadə olmaqla, Nuh Nəbi törəmələrindən olması ehtimal olunur. Ancaq bu mübahisələrin bir ana xətti mövcuddur ki, Dədə Qorqud tarixi şəxsiyyətdir. O, biz türklərin mütəfəkkür övladıdır. Həmdə bu şəxs, mənəvi varlığımızın tarixi gerçəkliyində əhəmiyyətli işlər görə bilmişdir. Bu mənada Dədə Qorqudun kimliyini yəqinləşdirmək üçün mütləq mənəvi varlığımızın əsas amillərindən olan Tanrıçılıq tarixinə müraciət etməliyik. Tanrıçılığın Türklə bağlı olduğu hazırda mübahisəsizdir. Xüsusən bu mübahisələrə Murad Acının «Avropa, Türklər, Böyük çöl» tarixi əsəri (1998-ci il) tutarlı açıqlamalar vermişdir, yəni Tanrıçılığın Türk xalqı ilə bağlılığı artıq dünyanın elm aləmində mübahisəli məsələ deyil. Tanrıçılığın əsaslarının türklə bağlı olması, ona qarşı böyük tarixi represiyalar aparmış və mümkün qədər bu sahədəki arxivlər məhv edilmişdir. Türklər Göy Tanrı, Ulu Tanrı, Əbədi – əzəli Tanrı deyib, öz Tanrı duaları ilə nəfəs almışlar. Bu dualar üç əsas mənəvi mahiyyəti özündə əks etdirən fikirlər birliyindən formalaşmışdır. Bunlar alqış, qarğış və müalicə mədəniyyətinin əsası olan Şamançılıq, ovçuluq, əkinçilik və davranış mədəniyyətinin birliyi olan Atəşpərəstlik, sırf dini mədəniyyətin öz dövrünə görə müəyyən hissəsindən ibarət olan Buddizimdən ibarətdir. Yəni adları çəkilən üç istiqamətli

mədəniyyətin daha dolğun, daha dürüst keyfiyyətləri özündə əxz edə biləm mənəvi mahiyyət Tanrıçılığın əsaslarını təşkil edir.

Əlbəttə, əldə olan məlumatlara görə Tanrıçılıq ilk öncə Altayda yaranmışdır. Böyük din araşdırıcısı, milliyətcə fransız olan Can Pol Ru qeyd edir ki, «bizim eradan çox-çox əvvəl Altaylar Göy Tanrıya səcdə etmişlər. Çinlilər isə yazır ki, «Tanrıçılıq türklərdə yeni eradan öncə V əsrə qədər mövcud olmuşdur». Deməli, Tanrıçılıq, Allaha, onun kəlamlarına inam, etiqad bütün millətlər arasında 1-ci türkə, türk dünyasına mənsub olmuşdur.

Həm də bu inam çox həssas və dəqiq yerinə yetirilərdi. Beləki, türk insanları hər bir gülə, ağaca, bitkiyə, heyvanat və quş aləminə, o, cümlədən insanlara gələn hər hansı qayğısızlıq, sayğısızlıq cəzasız ötüşməzdi.

Diqqətli yanaşılması tələb olunan məsələlərdən biri də türklərin tarixən Yer kürəsinin geniş ərazisini əhatə etdiyini nəzərə alsaq, onların müəyyən ərazidə Şamançılığı, müəyyən ərazidə Atəşpərəstliyi və digər ərazilərdə Büddistliyi daha yüksək səviyyədə inkişaf etdirilməsinin şahidi olarıq (Məs: Azərbayndа Atəşpərəstlik daha güclü və geniş yayılmaqla uzunmüddətli olmuşdur). O da bəllidir ki, türkün qədim və əsas mədəniyyət mərkəzləri tarixən Altay, Üral, Tanrı-Tao və Qafqaz bölgəlində daha çox üstünlük təşkil edirdi. Islamdan, yeni eradan çox-çox əvvəl türk dünyasında mövcud olmuş Tanrıçılığın, onun əsas ideyasının söylənilən ərazilərdə, xüsusən əhatə etdiyi mədəniyyətlərin vahid bir məcraya yönəldilməsinə mənəvi ehtiyac isə əsasən yeni eranın I-V əsrlərində tərəqqi tapmışdır. Tarixi mənbələr, araşdırıcılar bu dövrü ümumilikdə insan şüurunun, onun psixologiyasının yeni bir mərhələsinin başlanğıcı kimi qiymətləndirirlər. Nəzərə alsaq ki, bu dövr Tanrının insanlığa xristianlıq, islamçılıq kimi yeni bir mənəvi mədəniyyət bəxş etmişdir, fikir bir az da inandırıcı görünər. Əlbəttə, belə olan halda Tanrıcılıq çox böyük bir tarixi təkamülün nəticəsidir fikri təsdiqlənmiş olar. Qəbul etsək ki, Tanrıçılıq bütün türk dünyasında yayılsada, başqa mənəvi məbəniyyətlərdə yaranırdı, lokal xarakter daşıyırdı, insanları

qarşı-qarşıya qoyurdu, nə insanlara, nədə ki, mənəvi dəyərlərə xeyir gətirmirdi - o, zaman çox böyük tarixi təkamül dövrü keçirmiş Tanrıçılıq mövcud mənəvi dəyərləri toparlayıb insanlığa daha da təkmilləşmiş bir mənəviyyata istiqamətləndirə bilərdi. Türklərin öz aralarında da Tanrıçılığı müəyyən çalarlarda bilsələrdə, digər mənəvi dəyərlərə xidmət etdiklərindən ayrı-ayrı türk tayfaları arasında da mənəvi baxımdan əmin-amanlıq istənilən səviyyədə olmağa imkan vermirdi. Bu baxımdan bütöv türk dünyasının, Oğuz türklərinin, bəşər mənəvi sivilizasiyasının böyük öndəri Dədə Qorqud şəxsiyyətini I-V əsrlə bağlamaq daha düzgün olardı. Bu baxımdan da söylənilən dövrün mənəvi çalarlarına daha çox üstünlük vermək doğru sayılardı. Vacib bir məqamı da qeyd etmək yerinə düşər. Belə ki, xristianlığın ilk illərində yəhudilər bu mənəvi mədəniyyətlə barışmaq istəmir, iudizmi daha üstün hesab edir, digər mənəvi mədəniyyətlərin yaranmasını istəmirdilər. Iudizm özü türk mənəviyyatından, Tanrıçılıq mədəni mənəviyyatından bəhrələndiyindən türkləri onlar özlərinə daha yaxın sayırdılar. Lakin, Tanrıçılıq bütün mənəvi mədəniyyətlərin başlanğıcı olsada onun özünüdə yeni dünyaya, onun tələbatına daha uyğun təkamülə ehtiyacı var idi. Dədəm Qorqud bu işin öhdəsindən Tanrı köməyi ilə şərəflə gəldi. Yəhudilər də bunu dərk etdiklərindən Iudizm deyilən inancın formalaşdırılması ilə ciddi-cəhdlə məşğul olmağı lazım bildilər. Bu formalaşma təbiətcə ateist xarakterli olduğundan o dövrün xristian icması dözümsüzlük göstərdi və təxminən 60-70-ci illər arası bu iki mənəvi dəyərləri təmsil edən insanlar arasında müharibə baş verdi. Nəticə yəhudilər üçün acınacaqlı oldu, xristianlar yəhudiləri Fələstindən uzaqlaşdırdılar. Yəhudilərin əksəriyyəti qıpçaq torpaqlarında və digər Türk torpaqlarında özlərinə sığınacaq tapdılar. Özünü Iususun davamçısı sayan Petr və onun dostları, qohumları isə böyük bir qrupla Balkan türklərinə pənah gətirdilər və sonralar Yunanıstanda, Romada da yaşıyanları oldu. Əlbəttə  bu tarixi dövr elə özünün digər tarixi hadisələri ilə də çox rəngarəngdir.

Deyilən dövrdə türk dünyasında Tanrıçılığın əsas müdafiəçisi, dayağı Xaqanlar idi. Bu tarixi araşdırdıqda görünür ki, Xaqanlar öz dövründə bəşər səhnəsində günəş kimi parlamaqla yanaşı, öz tarixi keçmişinə, ənənəsinə sadiq qalmışlar. Hətta bu eradan əvvəl 200-cü ildə Metz (Oğuz) Kaqan Asiya qitəsinin demək olarki hamısının, indiki eranın 450-ci illərində isə Türk dünyasının böyük və qəhrəman oğlu Atilla bütün Qərbi, Avropanı öz idarəçiliyində birləşdirməyə nail olmuşdu. Yaxud, Türk dünyasında Xızır, Xıdır, Xızır Ilyas adları ilə məşhur olan Xızır peyğəmbər öz mənəvi ideyaları ilə o dərəcədə məşhurlaşmışdır ki, günümüzdə də o, öz paklığını, nüfuzunu, bəşəri şəxsiyyət olmasını qoruyub saxlaya bilmişdir.

Türk dünyasına, onun Tanrıçılıq mənəvi dəyərlərinə öz baxışı olan Rafiq Turabxanoğluya görə, «tarix səhnəsinə böyük Daralar vermiş cənubda, böyük Isgəndər yetirmiş qərbdə, böyük sülalələr yetirmiş Hindistanda, Çində Türklərə onlar zamanın bu dövründə qibtə ilə baxır, onun qələbələrinin mənəvi sirlərini öyrənirdilər. Heç şübhəsiz gəlinən qənaət belə olmuşdur ki, Turkün gücü onun Göy Tanrısında, onun göyə müqəddəslik inancıyla baxmasındadır.

Bu ideoloci silah Türkün əlindən alınmalı idi. Bu silahın uğrunda böyük mübarizə, separatçılıq başlamışdı. Türk dünyası isə hazırlanan təxribatlara fikir vermir, sahib olduğu, yaratdığı dinin inkişafına qayğı göstərmirdi. Bu qarşıdurma dövründə türk dünyasının ən böyük mənəvi mərkəzlərindən biri və ən əhəmiyyətlisi olan Qafqaz və onun baş kəndi Dərbənd əsas hədəf kimi götürülmüşdü. Dərbənd oğuz və qıpçaq boylarının qovşaq məntəqəsi idi. Əsasən ona görə ki, tanrıçılığın əsasən elmi və sistemli mərkəzi bu şəhərdə cəmləşmişdir. Burada tanrıçılığın inkişafı üçün çox münbit şərait mövcud idi.»

Məsələnin məğzi orasındadır ki, söylənilən dövrdə Tanrıçılıq bir din kimi böyük sürətlə formalaşır, özünü mənəvi cəhətdən qəbul edə bilmədiyi Cavurçuluğa, yəni çoxallahlığa qarşı qoyur, ona qarşı amansız mübarizə aparırdı. Çoxallahlıq Tanrıçılığın yaxına buraxmaq istəmədiyi, qəbul edə bilmədiyi dünyagörüşü idi və bu əslində öz tarixi missiyasını başa yetirmişdi. Bu

mənada Tanrıçılıq nəinki qeyri türklərdə, hətta türk tayfalıraından olan gavurlara da qarşı amansız yol seçmişdi. Məsələ «Dədə-Qorqud» dastanın ayrı-ayrı boylarından və onun başqa-başqa nüsxələrindən də hiss olunmaqdadır.

Çoxallahlığı qəbul etmiş mənəviyyət daşıyıcıları ölmüş insan cəsədlərini ya mövcud quyulara atır, yaxud dağ yerlərindəki çılpaq qayaların üstünə qoymaqla qurd-quşa yem edirdisə, Tanrıçlıq mənəvi dəyərlərinə görə isə insanı öldüklən sonra kurqan, yaxud kurqanabənzər formaya salınmış yerdə ehtiramla, hörmət-izzətlə dəfn etməyi məcbur edirdi. Yəni indiki qəbir mədəniyyəti də türklərdən qalmadır.

Indinin özündə də bir çox xalq deyimlərində, əfsanələrdə gavur quyuları ilə bağlı, gavurçuluqla bağlı məqamlar çox pis xatırlanır və bu quyuya düşənin xilasının mümkünsüzlüyü başa düşülür. Gavur quyusu məsələsi hətta «Kitabi – Dədə Qorqud»ün «Sabir Qazan tutsaq olub...» boyunda öz əksini geniş tapmışdır. Bu boyda deyildiyinə görə Salur Qazan gavurlar tərəfindən birbaşa gavur quyusuna atılır və ağzına da dəyirman daşı qoyulur. Azərbaycan dastan və nağıllarında ağzına dəyirman daşı qoyulmuş quyuların varlığı haqqında məlumatlar yetərincədir. Əslində, bu, tarixən gavur quyularıdır və oraya atılanların xilasının qeyri-mümkünlüyünə bir işarədir, həm də çoxallahlığın pis mahiyyətidir. Digər tərəfdən bu çoxallahlığın mahiyyətcə bəsit bir təfəkkür tərzinin göstəricisidir və artıq yeni eranın başlanğıcında insanlığın inkişaf səviyyəsini yekun məqsəd baxımından təmin edə bilmirdi.

Tarixi reallığa əsaslansaq görərik ki, öz dövründə dünyanın əksər insan cəmiyyətləri bu və ya digər tərzdə az, yaxud çox səviyyədə gavurçuluq inancına tapınmışlar. Türk xalqları da bu mərhələni yaşamış və indinin özündə də sərbəst dövləti olmayan bəzi türk boylarında bu inanca xidmət edən xırda toplumlar vardır. Lakin, onuda xüsusi qeyd etmək gərəkdir ki, Avropa xalqları böyük türk sərkərdəsi Atilla bu torpaqları istila edənə qədər bütünlükdə gavurçuluq inacı təsiri altında idilər. Bu təsirin elementlərinə diqqətlə yanaşdıqda hətta indi də bunu hiss etmək mümkündür. Atillanın bu yerlərə gəlişi ilə Tanrıçılıq

bu inancı sıxışdırıb aradan çıxarmışdır. Tanrıçılığın ardınca xristianlığın və islamın Avropanı «istilası» sayəsində gavurçuluq, çoxallahlıq inancının inkişafı, yayılması dayanmış və yeni mənəvi dəyərlər özlərinə yer tutmuşlar.

Böyük Azərbaycan Oğuz abidəsi olan «Kitabi – Dədə Qorqud» da gavurçuluğu öz Tanrıçılıq mədəni mənəviyyatı ilə sıxışdırmış, gavurçuluğun bu dövrün şüuruna uyğun gəlmədiyi, məntiqsizliyi sübuta yetirilmişdir. Bu səbəbdən də Dədə Qorqud şəxsiyyətinin yeni eranın əvvəlləri ilə bağlı olması ehtimalını ürəklə söyləmək olar. Dədəm Qorqud şəxsiyyətinin yetişməsi məkanıda, həmin dövr üçün Türk dünyasında ən münasib bir vilayət – Dərbənd hesab edilməlidir. Bir çox araşdırıcıların fikrincə, o cümlədən R.Turabxanoğlunun elat Kağanlığı barədəki fikirlərində də Dərbəndi insanın yaşadığı ilk məkanlardan biri kimi, sivilizasiyanın ilk məskənlərindən biri kimi göstərmələridir. Onların həm də Dərbənd şəhərinin adı haqqında öz fikirləri vardır. Dərbəndin adının yaranması, tarixi, nə ilə bağlılığı haqqında müxtəlif fikirlər var. Müəlliflərin əksəriyyəti Dərbəndi dar bənd kimi şərh etmiş, yaxud cəhd göstərmişlər. Müasir dilimizin anlamı baxımından həqiqətən də dar, yəni keçilməsi, qət edilməsi aşılması çətinlik törədən bir anlam kimi, bənd sözü isə qala, divar, nəyinsə qabağını kəsmək mənası anlamı kimi başa düşülür.

Tarixi məqamlardakı və bu günkü strateci əhəmiyyətinə diqqət yetirilərsə Dərbənd haqqında bu ehtimal başa düşüləndir. Amma, buranın qədim sakini olan türklər dar və bənd sözlərinin bu cür mənasını əsas götürüb, ad qoymuş olsaydılar, gərək öncə elə təkcə böyük Qafqazda sayı bilinməyən belə adlar mövcud olaydı.

Digər tərəfdən bu gün bizə üç Dərbənd yaşayış məkanı məlumdur. Ikinci Dərbənd Xəzər dənizinin Şərqində tarixən mövcud olmuş bir məkandır. Qeyd edək ki, burada Dar-bənd adı verilməsi üçün heç bir əsas yoxdur. Dərbənd adı ilə adlanan oğuz-türk yer-yurd adları araşdırılarsa bunların üç deyil daha çox olduğu aşkara çıxar.

Dərbənd adı daşıyan üçüncü yaşayış məntəqəsi bizim araşdırmalarımıza görə Qərbi azərbaycanda (indiki Ermənistanda) olmuşdur. Bu Ağbaba və Şörəyəl bölgələri arasında qədim bir türk yaşayış məntəqəsi olan Dərbənddir. Dərbənd kəndinin adını ermənilər 1946-cı ildə dəyişərək Karmrakar qoymuşlar. Digər maraqlı məqamda elə bu bölgədə olan Ağcaqala qalası və yaşayış yeridir ki, bu qalada bilavasitə Dədə Qorqudla bağlıdır. Yəni Dədə Qorqud mənəvi dəyərlərinə söykənən bir məskən, o, dövrün dövlətçiliyi ilə birbaşa bağlı bir qala, bir Dədə Qorqud mənəvi dünyasını özündə yaşadan yurd yerlərimizdəndir. Qərbi Azərbaycandakı Dərbənd yaşayış yerinin də «Dar», «keçilməz» söz mənaları ilə heç bir bağlılığını sübuta yetirən dəlillərimiz yoxdur. Odur ki, «dar» ifadəsi deyilən mənada şərh edilə bilməz. Deyilən məntiqdən – yanaşmalar nəzərə alınarsa, bu düzgün ola bilməz. Odur ki, Dərbənd sözünün etimologiyası, başqa məna müstəvisində izah və isbat edilməlidir. Yəni Dərbənd şəhərinin adı və Xəzər dənizinin Şərqində olmuş tarixi Dərbənd məkanın, Qərbi Azərbaycandakı Dərbənd adlarının heç də dar olan keçid, keçilməsi çətin olan məkan mənasında deyil, öz həqiqi mənasında şərh olunmalıdır.

Tədqiqatçılar Dərbəndi bir yaşayış yeri kimi eradan əvvəl V-III minilliklərə aid edirlər. Həmin dövrlərdə isə Türk dünyasında, əsasəndə oğuz türklərində başçıya Ata, Qoca yaxud da Dədə deyərmişlər. Dədə sözü əsrlər ötdükcə öz mənasını əvvəlki yerində daha da bərkitmiş Lələ, Dədə ifadəsində mənəvi baxımdan bu gün söylədiyimiz müqəddəs sözünün ilkin məna baxımında deyim forması olmuşdur. R.Turabxanoğlu da Elat Kağanlığı barədəki yazısında bu Kağanlığın hərbi yox, mənəviyyat üzərində qurulduğunu söyləmiş ilk paytaxtı, baş kəndindən biri olduğunu güman etmişdir. Belə çıxır ki, Dərbənd sözünün 1-ci hissəsi Dədə sözünün mənalandırdığı müqəddəs, böyük, uca və s. mənaları kəsb edir. Odur ki, söylənilən mənada doğurdanda Dərbənd şəhərinin ilk adının Dədəbinə kimi deyilməsi danılmazdır. Dədəbinə sözü yaranışı ilə bağlı zamanlarda müqəddəsin,

böyüyün, ucanın yaşadığı yurd, binə deməkdir. Qeyd edək ki, Şamaxıda Dədəgünəş, Laçında Dədəbinə kəndləri günümüzə qədər qalmaqdadır.

Zamanımızda da bütün türk xalqları ilkin yaşayış məskənləri saldıqda – filan evin binəsini qoyduqda, bu ifadəni işlədirlər. Özül qoymaq, binə salmaq, bünövrə tökmək paraleldən çox eyni fikri ifadə edən sözlərdir. Indinin özündə də binə adında türk xalqlarında kifayət qədər coğrafi məkanlar mövcuddur. Demək istəyirik ki, Dərbənd sözü Dədənin, başçının, ucanın, müqəddəsin saldığı binə, yurd, oymaq, kənd, şəhər kimi başa düşülməlidi. Digər tərəfdən bilməliyik ki, Dədə binə sözü getdikcə, vaxt keçdikcə cürbə-cür səslənmiş, lakin əsas mənasını saxlamış bu günkü Dərbənd ifadəsi kimi qalmışdır. Biz bilməliyik ki, bu ad ilkin olaraq mənəvi çalarlarla izah oluna bilən ehtiyacdan qoyulmuş ad kimi qəbul olunmalıdır. Xəzər dənizinin Azərbaycana nəzərən Şərqində yerləşən Dərbənd adlı türk yurdu da bu adın söylədiyimiz yeni izahı mənasında mövcud olmuş və müəyyən tarixi dövrdə öz adını türk tarixinə yaza bilmişdir. «Kitabi – Dədə – Qorqud» dastanının fövqəladə əhəmiyyətini dərk edərək və tarixi həqiqətlərə söykənərək onun tarixi 1300 illik dövrü əks etdirən bir tarixi prizmadan baxılmamalıdır. Bilməliyik ki, o, tarixi köklərimizi dünyaya aşkarlayır, oğuz türk mənşəyimizi hamıya bəyan edə bilir. Bunların hamısı bizim üçün, xalqımızın bu günü, sabahı üçün önəmli və əhəmiyyətlidir.

Lakin, onun ərsəyə gəlməsi üçün uzun illər lazım gəlmişdir. Bu baxımdan Qorqud sözünün də açıqlanmasına böyük ehtiyac duyuruq. Deməliyik ki, araşdırmalar göstərir ki, Qorqud sözündəki qur ifadəsi qurd deyimi əsasında yaranmışdır. Qurd bir xalq kimi türk xalqlarından birinin indiki eradan əvvəl dördüncü minilliyə qədər daşıdıqları addır. Bəzi tədqiqatçılara görə deyilən zamanlara qədər dünya türkləri Qurd xalqı kimi dünya miqyasında məlum idi.

Lev Qumilyova görə «6-cı əsrdə «Qurd» adının türklər üçün böyük əhəmiyyəti var idi. Çin tarixçiləri (Türk xanı) və (qurd) anlayışını sinonim sayır və bu vaxt çox güman ki, türk

xanlarının fikirlərinə istinad edirlər» (L.Qumilyov «Qədim Türklər». Gənclik, Azərb. Dil., səh. 32)

Yəni, Dədə Qorqud bir şəxsiyyət kimi özü yaşadığı dövrdə qurd sözünün xalq anlamında işlədilməsi mövcud idi və bu mənada insan adlarında qurd sözünün işlədilməsi onun kökünə, soyuna bir işarə idi. Necəki XX əsrin ortalarına kimi Azərbaycanda Əhməd Məhəmməd oğlu, yaxud Əhməd Məhəmməd uşağı ifadələrinin olduğu kimi. Indi isə kökə işarə ofadələri çox az bölgələrimizdə işlənməkdədir. Bu qayda digər türk vilayətlərində hazırda da başqa formada işlənməkdədir.

Qor sözünə gəldikdə isə bütün tədqiqatçıların araşdırmalarına görə Tanrıçılığa tapınan Türk xalqları işığa, ən başlıcası isə Aya, Günəşə sitayiş, böyük ehtiramla bir başa əlaqəlidir. Hərfi mənada qor-ocaq yandıqdan sonra oradakı yanacağın külü arasında qalan xırda közlərdir. Bölgələrimizdə tarixən və bu günümüzdə də ocağın közünü özünün külündə basdırmaqla 24 saat, hətta daha çox müddətə saxlayır, ocağı yenidən yandırmaqda istifadə edirlər. Yəni qor sözü qədim türklərdə hazırda işlətdiymiz çaxmaq, kibrit, alışqan ifadələrinin yaratdığı məna çalarlarında işlədilmişdir. Qeyd edək ki, indinin özündə də türk xalqları birinə alqış edəndə «ocağının qoru sönməsin», qarğış edəndə «Səni görüm ocağın qorsuz qalsın» deyirlər. Göründüyü kimi qor sözü hərfi mənasından başqa həm də işıq mənbəyi kimi müqəddəs sayılmışdır. Bu günümüzdə də bölgələrimizdə, xüsusən dağlıq sahələrimizdə oda, ocağa, günəşə bir müqəddəs varlıq kimi and içmə mövcuddur. Söylənilənlərdən bir nəticə olaraq Dədəm Qorqud dedikdə biz müqəddəs işıqlı Qurd anlamını əxz etməliyik. Odur ki, qətiyyətlə deməliyik ki, tarixi yaranışda Dədə – müqəddəs, qor-işıq, Qur-qurd mənasında işlədilmiş və indidə işlənməlidir. Deyilən bu üç sözün izah edildiyi təfəkkürü Dədəm Qorqudun tarixən gördüyü işin, əməlin birbaşa mənası ilə vəhdət təşkil etməsidir. Yəni, müqəddəs binədə, müqəddəs işıqlı Qurd yaşamış və əməli fəaliyyətdə olmuşdur.

Tarixi məxəzlərdən məlum olduğu kimi Dədə Qorquda böyük ehtiram əlaməti olaraq onun yaşadığı şəhəri də həmin

adla adlandırmışlar. Bu həm də müqəddəsliyə türkün yaranışdan məhəbbətidir, ehtiramıdır. Dədə Qorqudun zühuru tarixi bir zəruriyyət idi. Həmin dövrlərdə gedən siyasi-mənəvi dəyişikliyə keçmiş eranın sonları yeni eranın başlanğıcında dünyanın ən böyük etnosu olan türk etnosu bir müşahidəçi simasında qala bilməzdi.

Yeni eranın tələblərindən qarşıya çıxa biləcək problemlərə türk xalqları kimi bir xalq təbii ki, öz mülahizələrini süzgəcdən keçirməyə borclu idi. Tarixə Xızır kimi əfsanəvi bir peyğəmbər vermiş türk xalqı, yeni davranış, yeni dərketmə məsələlərini sahmanlayan qanun və qaydalar yaratmağa həqiqətən borclu idi. Indi böyük ürək və fəxrlə deyə bilərik ki, tarixən xalqın bu mənəvi ehtiyacını Dədə Qorqud şəxsiyyəti simasında zaman yetişdirib mənəviyyat müstəvisinə çıxara bildi.

Dədə Qorqudun ilk və ən böyük töhvəsi türk xalqının tanrıçılıq simvolu olan günəşi, günəşin içində olan xaçı və xaçın ortasında yerləşdirilən qurd başının doğurduğu mənaları mövcud dövrü (zamanı) nəzərə alıb elmi-mənəvi baxımdan əsaslandırıb onu vahid sistem şəklinə salması olmuşdur desək səhv etmərik. O, bu işlərlə məqsədyönlü məşğul olmaqla öz dövründə çox böyük bir çəkili sistem yaratmağa nail olmuşdur. Dədə Qorqud beləliklə insanların mənəvi cəhətdən həmişə formada olması üçün ibadət mərasimlərinin əsaslarını yaradıb Tanrı ehramlarına verir və buda ehramlarda bir əsas kimi tətbiq edilirdi. Əlbəttə, bu dövrə qədər də Tanrı ehramlarında ibadət duaları mövcud idi, ancaq onların təkmilləşməsinə böyük ehtiyac hiss olunmaqda idi. Türk dünyasında Tanrı ehramlarına «Kimsə» deyirdilər. Həmin dövrlərdə türklər ayrı-ayrı şəxslərə «Kim» dedikləri halda, Kimin sahiblik həddini isə Kimsə adlandırırdılar.

Bu cür deyim hazırda da bir çox türk xalqlarının dilində qalmaqdadır. Yəni türklərin «kimsə» deyə adlandırdığı ehram, bina, ev insanlara mənəvi baxımdan sahiblik haqqı olan bir məkan kimi başa düşülürdü.

Tanrı (Allah) evi hesab olunan «kimsələri» günəş, günəş həlqəsində yerləşdirilən xaç və xaçın ortasında isə totem

yerləşdirilərək bir vəhdət təşkil etməklə bəzəyirdi. Totem kimi isə o vaxtlar türk xalqlarının əksəriyyəti qurdun başının şəklini qəbul etmişdilər. Ən böyük və mərkəzi türk «Kimsə»ləri adətən «iç» deyilən məkanlarda – təbii dağ qayaları oyularaq yaradılırdı. Belə ibadət yerləri sayılan «Kimsə»lər indinin özünə qədər Uralda, Himalayda, Altayda, Şimali Qafqazda, Kiçik Asiyada, Böyük Qafqazda, Kiçik Qafqazda, Zəngəzurda və s. yerlərdə hələdə qalmaqdadır və ibadət yerləri funksiyalarını da saxlamaqdadır. «Kimsə»lərin bir çoxu vaxt keçdikcə müəyyən dəyişikliklərə uğranış, formasına faxtın, zamanın tələb etdiyi deyişikliklər edilsə də, əsas məqsəd – Tanrı ibadətgahı kimi günümüzə qədər yaşaya bilmişdir. Zəmanəmizdə bü cur «Kimsə» adında olan Tanrı ibadətgahları Türkiyə ərazisində Avropalıların adına, Zəngəzurda və Kiçik Qafqazda hayların adına çıxsalar da, elmi-tarixi araşdırmalar göstərir ki, bu cür ibadətgahların əsasını Tanrıçı Türklər ibadət məqsədi ilə yaratmış, adını isə «Kimsə» qoymuşlar. Bu cür, bu tip «Kimsə»lər türklərin kəşfi olan bişmiş kərpic istehsalı əldə edənə qədər olan əsas ibadətgahlar hesab olunmalıdır. Çox əzəmətli sal qayaların içi yonularaq düzəldilən «Kimsə»lərin yerləşdiyiy ərazilərə türklər iç-ul, iç-yer, iç-mən, iç-bu, iç-ta, iç-məz, iç-qa və s. demişlər. Günümüzdə də, əgər, Tanrı ibadətgahları yerləşən əraziləri diqqətlə araşdırsaq, bu və ya digər tərzli təhriflərə baxmayaraq və hansı xalqın yaşadığı ərazidən asılı olmayaraq, həmin yerlərin adında «iç» kəlməsinin mövcudluğuna rast gəlinəcəkdir. Bunun bariz nümunəsi Naxçıvanda «əsabi nəf» yerləşən əraziyə «iççay» kimi, Şimali Qafqazda «Içker» kimi, Qərbi Azərbaycanda (Ermənistanda) «Içməzdin» kimi, Türkiyədə bu tip ərazilərə «içul» kimi və s. sadalamaqla bitib tükənməyən belə yerlər kifayət qədərdir.

Zaman ötdükcə türkün «Kimsə» adlandırdığı ibadətgahın adı tədricən «Kilsə» sözü kimi ifadə olunmağa başladı. Əgər, türk «kimsə»lərində ibadətlə məşğul olan insanlara daimi rəhbərlik edən vəzifəni tutmuş və ibadət qaydalarını çox yaxşı səviyyədə bilən şəxsə «Kəsis» deyə müraciət edirdilərsə, bu ifadə sonradan «Keşiş» kimi işlədilmişmişdir. Digər tərəfdən də

«Kəs» sözü də insan şəxsiyyətinə aid deyim mənasını verir. Yəni «Kəs» sözü «Kim» sözünün digər deyim ifadəsidir. Türkün Tanrıçılıq qaydalarına görə «Kimsə»də Tanrı xidmətində duran əsas aparıcı insanlar qadın və yaxud kişi olmasından asılı olmayaraq ailə qura bilməzdi və bu insanlar Yer üzündə Tanrıdan sonra müqəddəslik zirvəsinə yüksəlməli idi, bütün insanların etimadını qazanmalı idi. Elə bu səbəbdən də hamılıqla insanlar ona inanır və məsləhətinə mütləq qulaq asırdılar. Həm də, «Kimsə»lər bir növ hazırki monarxlardan da artıq tərki-dünyalıq formasında həyat tərzi keçirirdilər. Bu mənada da onlara Kəsis deyirdilər. «Kəs» kəlməsi zamanımızda da şəxsiyyət anlamında hər kəs və yaxud digər anlamlarda işlədilir. «Kəsis»dəki «Is» ifadəsinə gəldikdə isə bu söz əsasən kimsəsiz, yersiz-yurdsuz, əlsiz-ayaqsız və digər başqa sözlərdə itirilən, imtina edilən mənasını verən fikir ifadələrinə aiddir. Bir sözlə «Kəsis» dedikdə, müəyyən mənada o, adamların bir çox qəbul edilmiş adət-ənənəlrindən imtina edən inasan kimi dərk edilirdi. Amma, bu əsasən böyüklük, ucalıq, ağıllı olmaq, Tanrıya qovuşmaq mənasında başa düşülürdü və məsələ belədə qəbul olunurdu.

Azərbaycan türklərinin, Azərbaycan vətəndaşının bu gün ümdə vəzifələrindən biri də təkcə «Kitabi – Dədə Qorqud» salnaməsi, onun baş insanı, ağsaqqalı, dahilər dahisi Dədəm Qorqudu deyil, onunla yanaşı türkün Dədəm Qorqud timsalında Türk Tanrıçılığının ən böyük kulminasiya zirvəsinə yüksəlməsini dünyaya anlatmaqdır. Bütün dünya bilməlidir ki, türkün bütün xalqlardan əvvəl çox böyük dini, dini-mənəvi mədəniyyəti olub və dünyanın hazırda aparıcı dini sayılan dini qurumları, onların dini mədəniyyətləri hamılıqla bu dini mədəniyyətdən qədərincə bəhrələniblər və Türk Tanrıçılığı bazası əsasında qurulublar.

Indinin özündə də türk «Kimsə» sözünün yerinə, əvəzinə «kilsə», «kəsis» kəlməsinin yerinə, əvəzinə «keşiş», «urvat» sözünün, kəlməsinin yerinə «ibadət» sözünü, kəlməsini işlədəndə çoxları bu sözlərin, kəlmələrin formalaşmış şəklinə istianad edərək, bunların türk dini mədəniyyətində əsası, kökü

olmadığını vurğulayaraq, türkün dini-mənəvi dünya görüşünün olmadığını sübut etməyə can atırlar. Bunun da başlıca səbəbi, ya türkün dini-mənəvi mədəniyyətini yetərincə bilməməkdən, yaxud bilərək şüurlu surətdə onu qəbul etməməkdən, təhrif etməkdən, özlərini öndə görmək istəyindən qaynaqlanır. Fikrimizi tamamlamaq üçün adi bir misal gətirək. Günümüzdə «Kitabi-Dədəm Qorqud»un «Salur Qazanın evinin yağmalandığı boyu»nu araşdıran tədqiqatçı «Qonur atlı Qazana kəsis deyən Bək, Yegnəq düri ayqırına bindi» cümləsini oxuyanda Türk Tanrıçılığını bilmirsə çaşıb qalır ki, Qazan kimi şəxsiyyətə, Qazan kimi igidə keşiş ləqəbi ilə niyə müraciət edilsin?! Bəli, Kəsis – sonradan keşiş deyimi formasını alan söz, ifadə türkün Tanrı evi saydığı kimsənin (kilsənin) qoruyucusudur. Elə bu səbəbdəndir ki, türklər kim sualını bir çox xalqlardan fərqli olaraq yalnız insana aid edirlər. Türkün Tanrıçılığını, «Kitabi-Dədə Qorqudu», Oğuznamələri və Azərbaycanın, Qafqazın Altayın və s. qədim tarixini araşdırarkən bu məslədə çox diqqətçil olsaq fikrimizin təsdiqi üçün istənilən miqdarda məlumatlar cəmləyə bilərik. Bu isə Alban tarixini, torpağını, mənəvi dəyərlərini, dənizdən-dənizə türk torpaqlarını mənimsəmək istyənləri tarixin müəyyən dönəmlərində «ağıllanmağa» vadar edər.

Qazana kəsis (keşiş) deyən Yegnəq bəy heç şübhəsiz Qazana Tanrı evinin qoruyucusu, onun cəfasına dözən bir şəxs, bir insan demişdir. Qənaət belədir ki, «Kitabi Dədəm Qorqud»da müasir insanlara çatdırılası kifayət qədər dəlillər mövcuddur. Məsələ, həm də «Kitabi – Dədəm Qorqud»un istər əsas mətni olsun, istərsədə əsas mətnə sonradan əlavələr olmuş variantı olsun, söylənilənlərə müqəddəs Qorqud rast gəlinəcəkdir. Digər tərəfdən Dədə Qorqud şəxsiyyəti haqqında məlumatlar çoxaldıqca, məlum olur ki, bu dahi şəxsiyyətin dünyaya, Yer kürəsinə gətirdiyi yaxşı əməllərinin coğrafiyası hədsiz-hüdudsuz bir dünya qədərindədir.

Bəzi tədqiqatçılara görə Dədə Qorqud yaşadığımız XX əsrin 1-ci 300-cü ilində Tanrıçılıqla bağlı dini mərkəzlərdə ciddi dəyişikliklər həyata keçirən fərman imzalamışdır. Fərmana görə

dini mərkəz və məbədlərdə atəşpərəstlikdə bir sıra dini ayinlərin icrasına qadağalar qoyulur, kafirlik, çoxallahlıq ləğv olunur. Türk dünyasında geniş səlahiyyətə, xüsusən geniş nüfuza, hörmətə sahib olan Dədə Qorqudun göstəriciləri ağrısız-acısız icra olunur, türk Kağanları bu fərmana böyük hörmət və ehtiramla yanaşırlar.

Söylənilən dövrdə Qərbdə, əsasəndə Vizantiyada, Romada türk Tanrıçılığı geniş yayıldığından və Dədə Qorqudun fərmanından sonra xristianlıq dininə meyl gücləndi, onun formalaşması meylləri xeyli gücləndi və artıq onlar çoxallahlıqdan, hətta ateist xristianlığından təkallahlığa daha meylli olmağa başladılar. Təbii ki, qeyd edilən işlər əsasən Tanrıçılığın kök elementləri əsasında formalaşırdı. Qərb dünyası müqəddəs Göy anlayışını arzu olunan səviyyədə qavraya bilməsələr də, tarixi təkamüllə barışmalı olurdu, zamanın hökmünə baş əyməyin vacibliyindən də qaça bilmirdi, çünkü bu tarixi zəruriyyətə ehtiyacda var idi. Digər tərəfdən bu, dini ehramların maraqlarından çox, dövlət başçılarının, imperiya aşiqlərinin maraq dairəsinin hədəf nöqtəsinə çevrilirdi və bu işdə vaxtı ilə Fələstindən çıxarılmış, qovulmuş yəhudilərin də maraqları var idi.

Bizə görə – deyilən dövrdə, yəni dəqiq desək 297-ci ildə roma imperatoru Diolektin fars ordusu ilə döyüşürdü və o vaxt Roma ordusu farsları bir neçə dəfə məğlubiyyətə düçar etmişdisə də, qəti qələbəyə nail ola bilməmişdi. Tarixi mənbələrə görə farslar tam məğlubiyyətin astanasında idilər və artıq onlar Tehran ətrafından cənubi – şərqə doğru qovulurdular. Farslar Diokletə döyüşlə qalib gələ bilməyəcəklərini görüb hiyləyə əl atdılar. Farslar həm Dərbənd dini mərkəzindən, Dədəm Qorqudun dində apardığı islahatlardan narazı idi, digər tərəfdən isə romalılıarın hərbi basqınlarının qarşısını almaq qüdrətində deyildilər. Belə olan halda Roma qoşunlarının basqın istiqamətini hiylə ilə dəyişdirməkdən başqa çıxış yolları yox idi. Odur ki, əhalisinin beynindən hələdə atəşpərəstlik dini qaydaları çıxmayan farslar Diokletni Dərbəndin – yəni Dədəm Qorqudun üzərinə yönəltmək istiqamətində əl-altdan iş aparıb

plan cızmağa başladılar. Dərbəndin dində apardığı islahatlar Roma imperatoruna da o qədər də çatmırdı. Bununla bərabər Tanrıçılıq, onun əsası olan müqəddəs Göyə inam qərbdə get-gedə güclənməkdə davam edirdi. Bu dinin dualarını yenidən sistemləşdirən, dəqiqləşdirən, dürüstləşdirən, Qorqudun adı müqəddəs Qorqud kimi məşhurlaşır, bir çox dini mərkəzlər müqəddəs Qorqud dualarını öz işlərinin əsası kimi qəbul etmişdilər. Bu təntənə və bu dualar türk dilində olduğundan duaları türk dilində də icrata gedirdi. Buda Diokletə də xoş deyildi, odur ki, onun narahatçılığı yetərincə idi. Bu narahatçılığı hiss edən farslar sui-qəsd nəticəsində Dərbənddə 303-cü ilin yanvarın 10-da Dədə Qorqudu qətlə yetirdilər. Farslar bütün dünyaya car çəkdilər ki, Dədə Qorquda qarşı sui-qəsdi Dioklet təşkil etmişdir və beləliklə də türk dünyasını romalılara qarşı qaldıra bildilər. Roma imperatoru Dioklet birdə ayıldı ki, Hunlar Romanın şimal sərhədlərindən sərhədləri keçirlər. Hunların Roma imperiyasına girməsi həm də Roma Tanrıçılığı möhkəmləndirirdi. Bu səbəbdən də Dioklet 304-cü ildə fərman imzaladı ki, Romada xristianlıq ləğv edilsin, lakin bilavasitə Göy Tanrını qəbul edən xristianlıq ləğv edilməli idi. Əlbəttə , Dədə Qorquda olan sevgi və məhəbbətin qarşısın belə fərmanlarla almaq mümkünsüz idi. Elə bu səbəbdən də Diokletin tacdan imtina edib hakimiyyətdən uzaqlaşdı, farslar isə Roma imperiyasının hücumundan xilas oldular. R.Turabxanoğluna görə bu hadisədə sui-qəsdin qurbanı olan Dədəm Qorqud 203-cü ilin 10 iyulunda anadan olmuş, yüz yaşının tamamına bir neçə ay qalmış amansız bir qəsddən şəhid olmuşdur.

Biz bir türk olaraq, birdəfəlik bilməliyik ki, Dədəm Qorqudun Göy Tanrı haqqında düzəltdiyi, sistemləşdirdiyi yazılar, qaydalar, ibadətlər əsrlərlə türklərin tanrıçılıq inancından topladıqları təcrübələrin ən müsbət və vacib elementlərini özündə cəmləşdirirdi.

Burada başqa bir məqama da toxunmaq yerinə düşər. Dünya xalqları, xüsusəndə Avropa, Asiya, Yaxın şərq xalqları səma deyəndə, Göy deyəndə bu məsələlərin ilk bağlılığının türklərlə

əlaqəli olduğunu bilir və qəbul edirlər. Istənilən insan cəmiyyətinin mənəvi dünyagörüşünün tarixi ilə yaxından tanışlığı olan hər bir elm sahibi, birmənalı şəkildə etiraf edər ki, müqəddəs Göyə münasibət ən qədim dövrlərdən türk dünyasında sistemli bir forma almış və bütün dünya xalqları bu sistemli formadan bəhrələnmişlər. Bu baxımdan da kamil dini dünyagörüşünün formalaşması mənbəyinə də yalnız türklər müdaxilə edə bilərdilər. Odur ki, Dədə Qorqudun sistemli dini ayinlər tərtib edə bilməsi, bu gün ehtimal kimi deyil, tarixi həqiqət kimi qəbul edilməlidir. Dədə Qorqudun həyatı haqqında, sistemləşdirdiyi Göy Tanrıçılıq mənəvi dəyərləri haqqında ibadət ayinlərini, qayda və qanunlarını Qərb xristianlığı və Şərq islamı mövcud imkanlarını səfərbər etməklə, bu tarixi sənədləri, sübutları dünyanın müqəddəs məkanlarından yox etmək yolunu tutmuşlar. Əsas mənası isə Tanrıçılığın varlığı bu dinlərin coğrafi inkişaf qabiliyyətini azaldan bir amil olaraq, yol üstündəki böyük maneə kimi dərk edilməsi olmuşdur. Buda öz-özlüyündə məsələyə siyasi münasibətin təsiri kimi dəyərləndirilməlidir. Heç şübhəsiz, Incil və Quranın əsas söykəndiyi mənbə olan Dədəm Qorqudun Tanrı duaları türkə bağlılıqla öz dövrü üçün əsl sahibinə aid olardı. Bunu, beynində türk üçün həzm edə bilməyən Qərbdən Vizantiya – Roma, cənubdan ərəb və Ərəbistan, Şərqdən isə Hind – Çinin qarşılıqlı əlaqələri, hərəsinin öz mənafelərinə istiqamətlənmiş siyasətləri türkə qarşı mənəvi təcavüzü sistemli və əlaqəli şəkildə həyata keçirmək yolunu tutdu. Daha da dəqiq desək əsası eradan əvvəl Elat xaqanlığı tərəfindən 3960-cı ildə qoyulmuş Dədəbinə (indi Dərbənd) şəhərində yaşadığımız eranın 200-cü ilində dünyaya göz açmış Dədəm Qorqudun yaratdığı mənəvi təlim türkün əlindən mənimsənilməsə də bəşəriyyətə xidmət etməli oldu.

Maraqlı məqamlardan biridə Dədə Qorqudun 216-cı ildə Tanrıçılığın Şaman istiqamətini daha dərindən dərk etmək üçün Altaya səfər etməsidir. O, Altayda dörd il mütəmadi məsələ ilə dərindən məşğul olur, bir çox məqamlara daha çox dərinlik və dəqiqlik gətirir. Dədə Qorqud geri dönmədən 220-ci ildə

Altaydan indi Orta Asiya adlanan ərazidə yerləşən və günümüzə kimi öz adını saxlayan Amu-Dərya, Sır-Dərya su tutarları boyunca səyahət edərək uzun yol keçməli olur. O, gəzdiyi hər bir kənd və şəhərdə, hər bir bölgədə çox böyük Şərəf-Şöhrət sahibi ola bilir, daha da müqəddəsləşir, Orta Asiyanın hər yerində müqəddəs Dədə kimi hamıdan fərqli ad çıxarır, özünə – sözünə ümumxalq məhəbbəti qazanır. Bunun ardınca Dədəm Qorqud bir müqəddəs El Atası kimi buddizmin əsas məkanı sayılan Tibetə, daha sonra isə Baykal, Balxaşı səyahət edərək Orxan vadisini gəzməli olur. Tibetdə xeyli müddət Buddizmin dərinliklərinə varmaqla onun çox yayılmış bölgələrdən olan Hindistanın bir çox əyalətlərini qarış-qarış gəzməli olur. Bununlada işini bitmiş hesab eləyən Dədəm Qorqud atəşpərəstliyin çox yayılmış torpaqlarından, bölgələrindən olan Fars körfəzini dolanıb, sonradan Tehrana gəlməli olur. Bu artıq 230-cu illər idi. O, burada da istədiyinə nail olduqdan sonra Kiçik Asiyanın onun üçün maraqlı bölgələrinə səyahət edir, burada yaşayan türk xalqlarının adət-ənənələri, mədəniyyəti, mənəvi mədəniyyəti və s-nın eyniliklərini və rənga-rəngliklərini hər bir incəliklərinə qədər araşdırır, söz sahibi olma səviyyəsinə qədər özü-özü üçün təhlil edir. Söylənilən bölgələr haqqında şəxsi fikr sahibi olduqdan sonra, yəni 243-cü ildə Dərbəndə dönür. Bundan sonra Tanrıçılıqla daha ardıcıl, daha mükəmməl, daha mübariz işlər aparır, ömrünü bu işlərə, ona qəsd edilən dəqiqələrə qədər həsr edir.

Bəzi mənbələrin bildirdiyinə görə Dədəm Qorqud 260-263-cü illərdə Kimevə, indiki Kiyevə onun vilayətlərinə də səfər etmişdir. Həmin dövrlərdə bu torpaqlarda yaşayan insanlar türklər, türk tayfaları idi. Elə həmin kök, həmin qan yaxınlığıdır ki, indiki Ukrayna adamları türklərə başqa millətlərə nisbətən mülayim, yumşaq münasibətdə olurlar. Dədəm Qorqud dövrü elə bir dövr idi ki, Dərbənd şəhəri sözün həqiqi mənasında türk boylarının yol qovuşağı, ticarət qovuşağı olduğundan Avro-Asiyanın həm şimalından cənubuna, həmdə əksinə, digər tərəfdən Avropadan Asiyaya və tərsinə gedən yolların mərkəzi – qovuşuq nöqtəsi idi. Güclü karvan axını ilin bütün fəsillərində

bu şəhərdən gəlib keçirdi. Həm Dərbənddə, həm də onun yollarının uzandığı yaşayış məskənlərində karvan üçün hər bir şərait var idi. Dərbənddə isə karvan və karvançılar üçün daha mükəmməl, daha səviyyəli, say etibarı ilə daha çox olan karvansaraylar hamını heyranedici səviyyədə idi. Dərbəndin ən böyük üstünlüyü isə əsasən müqəddəs Dədəm Qorqudu ziyarət edib, onunla təmasda olmaq idi. Bu, hər karvan başçısı üçün böyük bir şərəf sayılırdı və karvanların sayı çox olduğundan hamıyada müyəssər olmurdu. Onun Tanrıçılıqla bağlı fikirləri, öyüd-nəsihətləri onunla təmasda olanların beyinlərinə ömürlük həkk olurdu. Bir növ karvan başçıları Tanrıçılığın ayrı-ayrı ölkə və bölgələrə daşıyıcılarına çevrilmişdilər. Dərbənddə gedən o zamankı maraqlı məqamlardan biri də, bu şəhərdə böyük məclislərin qurulması, ozanların «Kitabi – Dədəm Qorqud» boyları ilə bağlı çal-çağır etmələri, onlardan izahlı söz açmaları, türkün keçmişini yad etməklə onun qan yaddaşını coşdurmaq idi. «Kitabi – Dədəm Qorqud»dakı Salur Qazan, Dərbənd bəyi Qiyan Səlçuq oğlu, Dəli Dondar, Boz ayğırlı Beyrək, Qazlıq qoca oğlu Bəy Yeknək, At ağızlı Aruz qoca, Boyu uzun Burla xatun, Bayandur xan və başqalarının qəhrəmanlıq səlnamələri sanki Buddizmin Prbhurada, Incilin Süleyman Peyğəmbərə, Quranın Mühəmməd Peyğəmbərə göndərilməsinin ilk və ən böyük təkanverici qüvvələrinin toplusudur. Azərbaycan və dünya Qorqudşünaslıq alimləri birmənalı şəkildə «Kitabi – Dədəm Qorqud»un əldə olunan nüsxələrinin yazılma, üzünün köçürülmə tarixlərini IX-XI əsrlərə aid etsələrdə, salnamədəki surətlərin daha qədimlərdə, eradan çox-çox qədimdə yaşanmış, baş vermiş tarixi reallıqlarla, hadisələrlə bağlı olduğunu göstərir.

Qeyd etmək yerinə düşər ki, «Kitabi – Dədə Qorqud»dakı, «Dursa xan oğlu Buğac Boyu»nda təsvir olunan sucetin əsas məqsədlərindən biri eradan əvvəllərdə yaşamış Böyük Türk Kağanı və sərkərdəsi oğuz türkü Mete xanın həyatı, taleyi ilə bağlı deyimlərin, mülahizələrin bədii dillə ifadəsidir.

Yaxud, «Salur Qazanın evinin yağmalandığı Boyu»-na daha diqqətlə yanaşılarsa məlum olar ki, eradan öncə birinci

yüzillikdə Şimali Qafqazda və Böyük Çöldə gedən dirçəliş, oyanış, yeni-yeni formalışma zamanında Oğuz və qıpçaq türk qolları arasında baş verən qorşıdurmaların ümumiləşdirilmiş formasıdır. Adı çəkilən boyda tayfalar arası qarşıdurmanın səbəbi qarət edilən qənimətlərin yiyələrinə qaytarılması təəssüratı yaransa da, məsələnin kökündə duran əsas məqam kafirçilik, çoxallahlılıqla yüksək vüsət götürən Tanrıçılıq arasında gedən mübarizənin mahiyyətindən başqa qeyri bir iş deyildir.

Başqa bir yerdə məsələnin əsas məğzi türkün mənəviyyatı, yaşayış tərzi ilə daha çox bağlılıq təşkil edir. «Qam Burənin oğlu Bamsi Beyrək Boyun»da açılan bu mənzərədə əhd-peyman, yalan söhbətlərin pislənməsi, sirrin qorunması, valideyinə münasibət, çətin vəziyyətlərdən ağılla çıxış yolu tapmaq və digər vəhylərin izahları, açıqlanması başlıca istiqamətdir. Sucetlərdəki adlara diqqət yetirsək Bayandur xan, oğlu Beyrək, Banu Becan, onun qızı Banu Çiçək, kafirlərin yeri isə Bayburd qalası adı almışdır. Tədqiqatçıların fikrincə «ba» kəlməsi ilə başlayan bütün insan adı və yer-yurd adları köklü surətdə araşdırılmalı, məslənin əsl məğzi öz həqiqi həllini tapmalıdır. Bu barədə daha mütərəqqi fikir sahibi olan Rafiq Turabxanoğluya görə, hadisələrin cərəyan etdiyi ərazilər, coğrafi məkan mübahisəsiz Baykal, Balxaş, Bakı, Basra, Balkan, Bosfor, Baltik və s. sututarlarla əlaqəli bir məsələdir. Belə bir qənaət də vardır ki, bu ərazilərdən Dədə Qorqud lap cavan yaşlarında keçmiş, müəyyən fikirlərin daşıyıcısı olmuşdur. Bu boyda qeyd edilir ki, Dədə Qorqud elçiliyə gedəndə özü ilə iki at götürürmüş. Məqsəd isə qarşılıqlı ünsiyyətdə gərginlik yaranarsa, yaxud, atlardan birinin başına hər hansı bir habisə gələrsə, atları dəyişərək minib xətadan uzaqlaşmaq, ikinci məqamda isə piyada qalmamaqdan yaxa qurtarmaq olmuşdur.

Buradan belə bir nəticə çıxır ki, nəql edilən hadisə zamanında Dədə Qorqud gəncdir, o, bir atı sürməklə ikincisini yedəyində çəkib apara bilər, ehtiyac olarsa yedəkdəki atın belinə atlana bilər, cəsarətlə yolunu davam etdirə bilər.

Ümumiyyətlə qədim türk dünyasından son dövrlərə kimi türk insanı özü ilə yedəkdə at gəzdirər, səfərinə çox ehtiyatlı yanaşardı və at türk kişisi üçün həmdə igid kişilik rəmzi hesab olunardu.

«Kitabi – Dədə Qorqud»a Sasi, sasi dinli kafirlər deyimidə mövcuddur. Diqqətlə yanaşıldıqda aydın olur ki, hələ öz dövründə çox cılız görünən Sasi müdafiəçilərida çoxallahlıq tərəfdarı olmaqla Tanrıçılığı qəbul etmək istəmirlər. Tanrıçılıq, Göy Tanrıçılıq tərəfdarları isə sasilərlə mübarizə aparmaqla qərarlıdırlar. Tanrıçılıqla müqayisə edilə bilməyən Sasilər həm fikir etibarı ilə və həm də tərəfdarlarının miqdarı etibarı ilə çox cılızdırlar, çox sısqadırlar. Elə bu səbəbdən də sısqa adlanırlar. Sısqanın mənası bu günümüzdə də elə sısqa kimi – yəni zəif, aciz, cılız mənasında işlənir.

«Kitabi – Dədə Qorqud»un boylarından aydın olur ki, o öz dövründə ondan sonra yaranan Incilin, Quranın insan cəmiyyətinə verdiyi dini mənəviyyatı, heç də zəif əvəz etməyən bir missiyanı yerinə yetirmiş və təbii ki, belə bir missiyanı yerinə yetirmək məqsədilə də yaradılmışdır.

Elə bu səbəbdəndir ki, «Kitabi – Dədəm Qorqud»dan sonra yaranan dini-mənəvi dəyərlər, kitablar – ondan bəhrələnmiş, onların ilham mənbəyi olmuşdur. Doğurdan da «Kitabi – Dədəm Qorqud»a X əsrdə əlavə olunmuş islam elementlərini nəzərə almasaq, bu kitab Dədəm Qorqud, onun yetirmələri tərəfindən qələmə alınması qənaətinə gəlmək olar. Belə bir yanaşma baxımından «Kitabi – Dədəm Qorqud»un dini ayinlər kitabı kimi samballı bir görkəm almasının şahidi olarıq.

«Kitabi – Dədəm Qorqud»un folklorşünasların dediyi VII əsr deyil, əsl yazılma vaxtı – yəni XX əsrin əvvəllərində yazılmasını (Dədəm Qorqudun yaşadığı dövr 200-300-cü illər) qəbul etməliyik. Elə həmin dövrlərdə də Türkün vahid Tanrı inancı artıq min ildən artıq bir yol keçmiş, o zaman-zaman həmin zamanların yaratdığı olaylarla cilalanmış, kamilləşmiş və son sözünü demişdir. Qeyd edildiyi kimi Dədəm Qorqudun söhbətləri, söylədikləri dövrü təəssüratlar dövrüdür və bu mənada Qorquda əl qaldırmaq istəyən «Əlin qurusun» deyimi

və bu deyimin icrata keçməsi, Dədəm Qorqudun müqəddəs bir şəxs olduğuna, onun Tanrıya yaxın, Tanrının nəzərlərinin onun üstündə olan bir ali şəxsiyyət, müqəddəs şəxsiyyət olduğunu sübuta yetirir. «Kitabi – Dədəm Qorqud»a diqqətlə yanaşdıqda hiss olunur ki, kitabda Oğuz bəylərinin alqışı alqış, qarğışı isə qarğış olmuşdur. Bu məntiq onu göstərir ki, Tanrıçılıq inancında oğuz hakimlərinə insanlar müqəddəs kimi, Tanrının həqiqi elçiləri kimi baxmışlar. Hakimlər isə həmişə iş və əməllərində öz məsuliyyətlərini dərk etmiş, Tanrıya layiq bir sərkərdə, bir rəhbər, Tanrıya layiq bir idarəçi olduqlarını yerinə yetirmək əzmində olmuşlar. «Kitabi – Dədə Qorqud» deyilən mətləbi həm də təlqin edir. Bu mənada qədim türklər siyasi – iqtisadi hakimlərə həm də dini – mənəvi kahinlər kimi yanaşmışlar.

Bizim məqsədimiz heç də elmə məlum olan Böyük kitab «Kitabi – Dədəm Qorqud»un hər hansı bir tarixdə çap olunmuşunu götürüb Ilahi kitab kimi türk dünyasına təqdim etmək deyildir. R.Turabxanoğlunun bir fikiri hər şeyə aydınlıq gətirər və təbii ki, biz də söylənilən yönümlə həmşərik. O, yazır: - «Kitabi – Dədəm – Qorqud», heç şübhəsiz, yazıldığı dövr nəzərə alınaraq, Türk alimləri, mənəviyyat adamları əsərin tərtibində geniş izahlarla yenidən işləyib hazırlamalı, hər kəsin başa düşdüyü şəkilə salınmalıdır. Buradakı boylar, orada sətiraltı məna və eyramlar yalnız böyük qrup mütəxəssislər halında cəmləşən müxtəlif sahələr üzrə mütəxəssis olanların birliyi nəticəsində səviyyəli şəkildə hazırlana bilər. Fərdi şəxsiyyətlərimizin əsər barədə açıqladığı diskusiya və mülahizələr həmin birliyin, qurumun, icraçıların işinə yalnız və yalnız yardımçı ola bilər. Bu birliyə tarixçi, coğrafiyaşünas, astronom, filosov, ruhani elm adamı olan türklər cəmləşməli və qarşıya qoyulan məsələni övlada layiq bir qayda ilə həyata keçirməlidirlər». Bu fikrə əlavələrdə edilə bilər. Lakin, əsas məqam türk dünyasının alimlərindən təşkil olunacaq belə bir qurumun yaradılmasıdır ki, onlar da digər aidiyatı insanların biliklərindən bəhrələnməklə (ensiklopediyalarda olduğu kimi) türk dünyasına mənəvi cəhətdən daha təkmil bir əsər, bir kitab

bəxş edə bilsinlər. Sübut edə bilsinlər ki, türkün dini-mənəvi dəyərləri tarix etibarı ilə çox qədim olmaqla, özündən sonrakılara örnək olmuşdur. Məlum olduğu kimi Qafqazda, Altayda, Uralda, Himalayın şimalında və s. aparılan arxeoloci qazıntı zamanı əldə edilən sənəd və sübütlar bir-biri ilə müqayisə edilməklə Tanrıçılıq nöqteyi – nəzərdən araşdırılmaqla öyrənilməli, dəqiqləşdirilməli və orada Türk dünyasının böyükdən – böyük olan Tanrıçılıq mənəvi – dini çalarları üzə çıxarılmalı, ortaya qoyulmalıdır. Nəzərdə tutduğumuz bu elmi birlik dünyada mövcud olmuş ayrı-ayrı mənəvi və mənəvi-dini dəyərlərin məhz Türk Tanrıçılığından bəhrələndiyini elmi dəlillərlə sübuta yetirməli, bizim əlimizdə olan məlumatları daha geniş və hərtərəfli şərh etməlidir. Bunun üçün «Kitabi – Dədə – Qorqud»un bəhrələndiyi qədim dövrləri, qədim tarixləri, Avropa, şərq-qərb kitabxanalarını araşdırmaq vacibdir. «Kitabi – Dədə – Qorqud» səlnaməsinin özündə, onun ayrı – ayrı çap variantlarından çox məqamları aydınlaşdırmaq olar. Bu çalarlara aid bir məqamı xatırlamaq, dövrümüzdə çox böyük maraq doğurmalıdır. Bildiyimiz kimi xristian mənəvi aləminin qollarından biridə Qriqoriçilikdir. Tanrıçılığa, Xristianlığın ayrı-ayrı qollarına, yaxud Qriqori kilsəsinin qədim adət-ənənələrinə diqqətlə, xüsusən də Alban xristianlıq mənəvi dəyərlərinə bu prizmadan baxdıqda – orada mütləq Qorqud izləri görünəcək və aşkarlayacaqsınız və bizim araşdırmalarımız da bu fikri söyləməyə imkan verir. Qriqori ilə bağlı tarixi sənədlər və ümumi məlumatlar sübut edir ki, bu bilavasitə məhz Qorqud və ona qəsd edilməsi, şəhid olmuş şagirdləri ilə bir başa əlaqəli olmuşdur. Indi hər bir azərbaycanlı ziyalısına məlumdur ki, ermənilərin, daha dəqiq hayların kökü qaraçılarla bağlıdır və bu qaraçılar harada yaşamaqlarından asılı olmayaraq hansı xislətə qabil olmuşlar. Digər tərəfdən məlumdur ki, Alban kilsələri albanlara mənsub olmaqla türksoylu insanlar olmuşlar və ermənilər rusların birbaşa köməyi ilə Alban kilsələrini öz əllərinə götürə bilmişlər, bu kilsələrin bünövrəsi üzərində özlərinə mənsub bir xristian dini «icad» etmiş, Alban kilsələrinin arxiv sənədlərini «özününkü»ləşdirdikdən sonra

həmin sənədləri məhv etmişlər. Amma, Alban kilsə mənəvi-dini qayda-qanunları haqqında dünyanın bir çox ölkələrində yetərincə məlumatlar əldə etmək mümkündür ki, o da sübut edir ki, ermənilər burada da oğurluq etmişlər. Başqa bir mənbə isə qeyd etdiyimiz kimi Avrasiyada bu gün də mövcud olan və Alban kilsələri kimi tanınan abidələrin çoxluğudur.

Deyilənlərin fonunda «Kitabi – Dədə Qorqud»un boylarına dübarə nəzər salsaq və onu yaxşı – yaxşı nəzərdən keçirsək burada bir vəhyin olduğunu görərik. «Duxa Qoca oğlu Dəli Domrul boyu» öz sucet xəttinə görə qəhrəman Tanrı və Əzrayıl, yaxud Iblis arasındakı münasibətlərin özünəmənsub əxlaqi keyfiyyətlər üzərində qurulmuş və formalaşmış fəlsəvi görüntüləri ilə üzbə-üz olarıq. Söylənilən boydan məlum olur ki, Türklərin böyük Şumer boyunun əzəmətli tarixi abidəsi olan «Gilqamış» əsərində Gilqamışın, Əngidinin ölümü zamanı keçirdiyi acı iztirabların məntiqi üzərində köklənmiş bir məqamdır. Və ya bu boyda Körklü Tanrı və Dəli Domrul təbiətin fiziki və fizioloci qəbul olunmuş qanunlarının ən yüksək zirvəsi olan problemlərin həllində qarşı-qarşıya dururlar. Burada insan özünün yaranma – dünyaya gəlmə, onun yaşama tərzi və bu yaşamanın mahiyyəti, insanın təkamülləşmə yolları və qanunauyğunluqları, yaşadığı həyatın fəlsəfi şərhi və cəmiyyətin söylənilənlərdən qarşılıqlı – funksional asılılığı çox yüksək səviyyədə, hamının qavraya biləcək bir səviyyədə öz ifadəsini tapmışdır.

Deyilən şərhdən məlum olur ki, yaşlı valideyinlərə, onların övladı olan qəhrəman Domrul, onun övladlarının anası, yəni Domrulun Xatunu arasındakı yüksək səviyyəli qaydalar bir qanunauyğunluq kimi insan cəmiyyətinə şərh edilir, insanı sözün həqiqi mənasında təlimləndirir, tərbiyələndirir. Söylənilən təlim hər bir ailənin təbiət qarşısında, Tanrı qarşısında qaçılması mümkün olmayan funksiyalarını başa düşüləcək şəkildə izah və şərh edir. Bu təlimi danışan - dinləyicini, yaxud özü oxuyan oxucunu inandırır ki, qaçılması mümkün olmayan ölüm labüddür, onu sadəcə anlamaq gərəkdir. Deyimdə Domrulun Xatunu «Ərş Tapıq olsun. Kursi Tapıq olsun. Yer

Tapıq olsun. Mənim canım sənin canına qurban olsun», deməklə sanki ərlə-arvad arasında bağlanan kəbin qanununun Türk millətinin psixologiyaındakı əzəmətini nümayiş etdirməklə yanaşı, türklərin sivilizasiyanın başlanğıcından birinci olaraq yüksək mənəviyyatlı ailə quruluşunun mənəvi əsaslarının yaratdığını da bütün dünya üçün bəyan etmişdir.

Deyimdə, Domrulda həmin ayının özü tərəfindən məsələyə münasibətdə cavabdehliyini yaddan çıxarmır, unutmur və Əlbəttə  Tanrıdan onların birgə canlarının alınmasını xahiş edir. Belə bir psixoloci durum Azərbaycanda, xüsusən onun bölgələrində yaşa dolmuş insanlar arasında tez-tez rast gəlinəndir.

Bu, mövcud psixoloci durumun elə kamil həllidir ki, Dədə Qorquddan başqa heç bir dini kitablarda və dövlət qanunlarında həlli söylənilən baxımdan kamillik zirvəsinə ucaldılaraq öz əksini tapmamışdır. Deyilən və deyilməyən vəhyilərdən belə bir qənaətə gəlmək olur ki, Türkün əzamətli «Dədəm Qorqud»u və onun kitabi dünyanın heç bir dini kitabından geri qalmır və əksinə buradakı fikirlər bu gün dini kitablar hesab olunanlardan çox-çox qabaqlar Türk dünyasına, bütün insanlığa xidmət etmişdir.

Təəssüflə qeyd etməliyik ki, Türklər bu kitaba, bu dünyəvi fikirlərə sahiblik etməmişlər, Türklər yaradır və yaratdığını qoyub səfərini davam etdirmişlər. Həm də, zamanın tələblərinə uyğun olaraq da, bu kitaba türklər tərəfindən izahlar verilməmişdir.

Qeyd edildiyi kimi, Dədə Qorquda qəsd bilavasitə həm Roma imperiyasını zəiflətmək, həm də türklərin Qərbi tutması və Qərb dünyasında geniş vüsət almış, böyük sürətlə inkişaf edən Türk mənəvi təliminin qarşısını almaq, bu mənəvi dəyərlərə sahib çıxmaq marağından irəli gəlirdi. Əlbəttə ki, Dədə Qorquda qəsd birinci növbədə türklər tərəfindən dini-mənəvi inkişaf etdlirilən proseslərə qarşı, türk dilinin geniş vüsət almasına qarşı, bu dini-mənəvi dəyərlərə sahibliyə, Dədə Qorquda qədər və Dədə Qorqudçular tərəfindən hazırlanmış

dini mənəvi dəyərlərin əsaslarını ələ keçirmək istəyi ilə törədilən qəsd idi.

Türk dünyasının Tanrıçılığına aid arxivlərdəki sənədlərdən məlum olur ki, Dədə Qorqudun yeddi ən yaxın silahdaş kimi şagirdi olmuş və bu şagirdlər Dədə Qorqudun dini-elmi mülahizələrini çox gözəl mənimsəməklə öz zəkalarına «həkk» etmişlər. Bunlar sözün həqiqi mənasında öz dövrünün canlı ensiklopediyası olmuşlar. Onlar həm birlikdə və həmdə növbə ilə ayrı-ayrılıqda dini-mənəvi atalarının yanında qalardılar, bu və ya digər tapşırıqları yerinə yetirərdilər. Dədə Qorquda qəsd zamanı da onlardan üç nəfəri onunla birlikdə olmuş və Tanrıçılığın, Qorqudçuluğun, dini-mənəvi dəyərlərin qurbanına çevrilmişlər. Sağ qalmış dörd qorqudçu isə vəziyyətin çıxılmaz olduğunu dərk etdikdən sonra, iki qrupa bölünməklə iki nəfəri Altaya doğru, digər iki nəfəri isə Konstantinopola üz tutmuşlar və əlbəttə ki, məqsəd Qorqudçuluğu – Tanrıçılığı xilas etmək olmuşdur. Şagirdlərdən Altaya gələnlər qədim Tanrıçılığı Dədə Qorqudun təlimləri əsasında hərtərəfli inkişaf etdirmiş – təkmilləşdirmiş, onun xüsusi qaydalarını bir sir kimi ancaq Türk «kəsis»lərinə aid olduğu istiqamətində çox böyük işlər görə bilmişlər. Bu barədə dünyanın tədqiqatçı alim-səyyahları Böyük Göldə və Uzaq Şərqdə müşahidə edərək aşkarladıqları dini ayinlərin xronologiyası barədə kifayət qədər məlumatlar əldə etmişlər. Qədim Türk Ayinləri, Tanrıçılıq Ayinləri, təkmilləşmiş və Tanrıçılığa əlavə edilmiş Dədə Qorqud Ayinləri dünya arxivlərində, xüsusən Asiyada, Yaxın Şərqdə, Çində, Avropada, Ərəb dünyasında qədərincə arxiv sənədləri bu gün də qalmaqdadır.

Dədə Qorqudun Qərbə doğru hərəkət edən şagirdlərinin fəaliyyətlərinin nəticəsi haqqında E.Kerkis – «Xristianlıq yollarında» (Moskva – 1992) əsərində geniş məlumatlar vermişdir. Onun yazdığına görə, Tanrıçılıq – onun Günəşə müqəddəslik rəmzi kimi yanaşılma tərzini 306-cı ilə qədər Vizantiyaya türklər tərəfindən gətirilmişdir. Bunun nəticəsi idi ki, Vizantiya carı Böyük Konstantinin hakimiyyətinin ilk günlərindən türklərlə yaxınlıq müqaviləsi bağlanmış,

Tanrıçılığın burada daha dərindən öyrənilməsi və təbliğ edilməsinin tərəfdarı olmuşdur. Belə ki, o, 313-cü ildə Günşə hörmət və ehtiram əlaməti olaraq Günəş günü kimi bazar gününü rəsmi olaraq müqəddəs gün kimi elan etmişdir. Bu tarixə qədər bazar günü yalnız və yalnız türk dünyasında, Tanrıçılıqla yaşayan torpaqlarda (Türk torpaqlarında) müqəddəs gün kimi qeyd olunurdu. Deyilənlərlə yanaşı 317-ci ildə Böyük Konstantinin adına buraxılan əskinazların üzərində də Günəş şəkli əks olunmağa başlayır.

Konstantin bununla da Tanrının Günəş qiyafəsində olmasına baş əymiş, ona inanmış və bunu sübut etmək məqsədi ilə türklərlə yeni-mənəvi dəyərlər müqaviləsi bağlanmasına imza atmışdır.

Üçüncü əsrin sonu, 4-cü əsrin əvvəllərini öyrənib təhlil edən və öz elmi fəaliyyətinin əsas sahəsi kimi qəbul edən bütün alimlər bu dövrü Qərbdə gedən güclü Şərqə yaxınlaşma olduğunu qeyd edirlər. Bu mənbələrdən məlum olur ki, Qərbdə ümumiyyətlə, xüsusəndə Roma və Vizantiyada mövcud olan, xüsusi diqqət yetirilən dini – mənəvi proseslərin hamısının episentrində Qorqud, qorqudçuluq, Tanrıçılıq dayanır. Cürbə-cür, müxtəlif variantlı əfsanə və rəvayətlər uydurulsada, Qərb Dədə Qorqud şəxsiyyəti qarşısındı baş əyir, ona səcdə edirdi.

Əfsanə, nağıl və tarixi mənbələrdən bəllidir ki, müqəddəs Qriqori Dərbəndlə bağlı bir şəxsiyyətdir. Dədə sözünün müqəddəs mənasına Qərbdə də həmişə müqəddəs yanaşılmış, onu Qriqori kimi tələffüz etsələr də müqəddəsliyinə şübhə etməmişlər. Türk adlarının Qərbdə öz tələfüzlərinə uyğun səsləndirilməsi heç kimə sirr deyildir. Qorqud adının Qriqori, Qriqoris və s. deyimlərdə tələffüzü bu gündə mübahisə mövzusu deyildir.

Elə bu səbəbdən də Şərqdə Qorqud kimi tanınan şəxsiyyət, Qərbdə Qriqori kimi tanınmışdır.

Onu da qeyd etməliyik ki, ilk vaxtlar Qərbdə dini ayinlərin türk dilində keçirilməsi də hazırda mübahisə doğurmur. Çünki, bu məsələ artıq elmi surətdə hərtərəfli araşdırılıb və əsaslandırılıb. Təkcə Qərbin dini-mənəvi kitablarında deyil,

onların ədəbi dilində də – xüsusəndə I-VII əsr yazılarında da kifayət qədər türk söz və ifadələri mövcuddur. Elə buda kifayətdir ki, biz türk dilini dünya xalqlarının ümumi dili səviyyəsinə qaldırılmasına çalışaq. Odur ki, ilk növbədə türk xalq və tayfaları öz aralarında eyni dildə danışıb, eyni əlifbada yazmalıdırlar.

Qərbdə türkə və türk dilinə ən böyük hücumlar IV əsrin əvvəllərindən başlayıb, zamanımıza qədərdə bu və ya digər tərzdə davam edir. Bir sözlə dünya həmişə türkün inkişafından qısqanclıq keçirib və indidə keçirir.

Roma imperatoru Feodesin əsrin 320-ci ilində Domasi-1-i özlərində Xristian aləminin başçısı təyin edir. Fərman verilməsindən xeyli keçmiş Domasi-1 özünə əleyhidar hesab etdiyi 160 nəfəri (366-cı ildə) məhv etdirməklə sərbəstləşmiş və müqəddəs Pavelin tacını öz başına qoymuşdur. Əl-qolu açılan Domasi-1 və onun davamçıları həmin dövrdən də Qərbin ibadət ocaqlarından Türk dilinin sıxışdırılmasına açıqdan-açığa rəvac verirlər. Lakin, bu sıxışdırmalar asan başa gəlmir, dini mərkəzlərdəki qarşıdurmalar 6-cı əsrin əvvəllərinə kimi çox ciddi davam etmişdir. Maraqlı məqamlardan biridə «Xristianlıq»ensiklopediyasının verdiyi məlumatdır. Orada qeyd edilir ki, 500-510-cu illərdə apostol və kilsə qanunlarını Dinoiy iki redaksiyada yazdı və xristianlığın bu qayda – qanunlarının əsas mənbə və mahiyyətinin Yerusəlimdən deyil, Dərbənddən gələn elmi-mənəvi, dini-mənəvi əsaslar üzərində qurduğunu bildirdi. BU məlumatlar digər qədim yazılı mənbələrdə də mövcuddur.

Əlbəttə, müqəddəs türk oğlu Dədə Qorqudun cilalamış olduğu dini-mənəvi təlimi onun yetirmələri Qərbdə və Şərqin bir çox yerlərində yaya bilmişdilər. Atilla isə eranın 440-cı illərində öz qılıncı ilə bu işi möhürlədi və tarixin yaddaşına həkk edə bildi. 448-ci ildə Fransa Atallanın himayəsini qəbul etməli oldu və bu böyük bir xalqın, əfsanəvi Turanın mənəvi, fiziki fəaliyyətinin Qərb fəthi idi. III əsrin sonları IV əsrin əvvəllərində Cənubi-Qərbdə fəaliyyət göstərən Qorqud

ideyasının təmsilçiləri Konstantinopolda artıq məktəb yaratmış və onun fəaliyyətini sistemləşdirmişlər.

Türkün Tanrıçılığı, dədə Qorqud elmi-mənəvi dəyərlərin coğrafi əhatəsi getdikcə genişlənir və bu qolun biri də böyük ticarət yolu kəsiklərindən biri olan Fələstində fəaliyyətdə idi.

Tanrının, talein və zamanın hökmü Qorqudçuların cənubda fəaliyyət göstərən dini-mənəvi məktəbinə karvan zəvvarlarına bələdçilik edən Mühəmmədi gətirib çıxardı. Mühəmməd bu məktəbdə adı və şəxsiyyəti bir sir kimi saxlanılan böyük zəka sahiblərinin, Xızırla qidalanan Dədə Qorqud təliminin şərhnə qərq oldu.

Bu təlimlər Mühəmməd şəxsiyyətinin qəlbinə məlhəm olur, onun qətiyyətli, zəkalı beynində cilalanır, Ərəb dünyasındakı Buddizmdən yaxa qurtarmaq üçün Ilahidən mənəvi bir dayaq hissi doğurur və bu kəlamlara böyük bir inam yaradırdı. Ərəb dünyası üçün yeni, daha mükəmməl olan Qorqud kəlamlarının ərəb şivələrində Müqəddəs Quran kimi öz əksini tapmasına, möhtəşəm bir bünövrəyə söykənməyə imkan yaradırdı. Azərbaycan türkünün böyük oğlu Müqəddəs Qorqud peyğəmbər Mühəmmədə müqəddəs Qurana gedən yolun əsas istiqamətini diqtə edirdi. Bu elə bir tarixi mərhələ idi ki, Türk bir etnos kimi dünyanın mənəvi tarixini insanlığa bəxş edirdi, onu öz tanrısı bağrına basmışdı, o, döyüş meydanında doğulur, döyüş meydanında boya-başa çatır, dünyaya şəffaf və təmiz bir prizmadan baxırdı. Onu dini ehkamların siyasi sifəti sözün həqiqi mənasında maraqlandırmırdı, çünki o güclü ordu sahibi olduğundan mənəvi sərkərdəliyə meyilli deyildi, axı mənəviyyatı o, özü digərlərinə ərmağan edirdi.

Bəlkə də elə bu səbəbdəndir ki, Tanrıçılıq və qorqudçülüq təliminin mahiyyətini qeyri-xalqlar, qeyri-türklər daha tez qavrayır, zamanın keşmə-keşliyindən çıxmaq amili kimi baxır və bu dini-mənəvi təlimi özünüküləşdirirdilər. Indi isə zaman başqa zaman olduğundan bizə öz hökmünü – yəni türkün yaratdığına sahib çıxmasının vacibliyini diqtə edir.

Əgər, məsələyə azda olsa təhlili mənada yanaşsaq görərik ki, hazırda da Qərb türklərin elm adamlarına yaxınlıq edir, onların

qabiliyyət və bacarıqlarından maksimum bəhrələnməyə can atırlar. Beləki, Tanrı dualarını Yunan və Latın dillərinə ilk çevirən, tərcümə edən əslən türk olan kiçik Dionis olmuşdur. Bütün tarixi olmuşlara baxmayaraq hər şeyə sahib çıxan Roma V əsrin sonu, VI əsrin əvvəllərində Qriqorinin yazılarını qadağan etmiş, türk dilində olan dini-mənəvi və digər kitabları yandırmışlar. Bütün məlumatları əldə etmiş, öz dillərinə çevirmiş, özünüküləşdirmiş Qərb, türk dilində olan əsərləri tarix səhnəsindən silməyi qarşısına məqsəd kimi qoymuşdu. Elə bu təcrübədən bəhərlənən ermənilər də Azərbaycan – Alban kilsələrinin dini kitablarını mənimsədikdən, erməni dilinə çevirdikdən sonra 1909-1910-cu ildə onları məhv etmişlər.

Türkə qarşı bu yönümlü işləri Islamda (dini) həyata keçirmiş, türk dilində olan yazılı mənbələr müxtəlif məqamlarda tarix səhnəsindən çıxarılmışdır.

R.Turabxanoğlu deyir: - «Kitabi – Dədəm Qorqud»u oxuduqda hətta ən sadəlövh oxucu da burada aparılan dəyişiklərə heyrətlənər. Ancaq nə etmək olar, gərək bu qarət olunmuş böyük bir mədəniyyəti, əldə olan kiçik dəlillər üzərində bu gün qura biləsən. Bunu da yalnız Türk tədqiqatçısı, Türk alimi, Türk mütəfəkkürü həyata keçirə bilər» («Dədəm Qorqud» kimdir?, Bakı – 2000 - il).

Türk dünyası yaratdığına yiyə durmadığından zaman-zaman sahəsindən asılı olmayaraq yaradılanlar bu və digər millət və xalqların əlinə keçmiş – onlarsa bu dəyərləri öz adlarına çıxmış, təhrif etmiş, olduğu kimi qiymətləndirməmişlər.

Azərbaycan türklərinin tarixi, yaşadıqları torpaqları, keçdiyi dini-mənəvi yolları, ədəbiyyatı, incəsənəti, musiqisi (əsasən saz, muğam), folkloru, dastanları, rəvayətləri, bu torpaqlarda yaşayan tayfaların kimliyi (mübahisə doğuranlar nəzərdə tutulur), hələdə mübahisəli qalmış tarixi şəxsiyyətləri və s. haqqında dəqiq araşdırmalar aparılmasına çox böyük ehtiyac duyulmaqdadır.

Bunlardan biridə «Kitabi – Dədəm Qorqud»un təxmini tərtib edilmiş xəritəsi məsələsidir. Bununla ilk vaxtlar – yəni 1910-cu ildə X.F.B. Linclə F.Osvadın, 1952-ci ildə

M.F.Kirzioğlunun, 1973-cü ildə O.Şaiqin və bu konturlar əsasında Ş.Cəmşidovun tərtib etdiyi «Dədə Qorqud» xəritəsidir. Xəritəyə fikir verilərsə məlum olur ki, hər tədqiqatçı bu xəritəni bir azda genişləndirir və «Kitabi – Dədə – Qorqud»a maraq getdikcə genişlənir. Bunun bir bariz nümunəsi də Azərbaycanın görkəmli alimi, mübariz şəxsiyyəti Ziya Bünyatovun fikirləridir. Düzdü, o, «Kitabi – Dədə – Qorqud» haqqında müfəssəl məlumat verməyi öz qarşısına məqsəd qoymamışdı. Onun məqsədi başqa problemlə əlaqəlidir. Lakin, onun yazısında Qazan Xanın adı çəkilir və məlumat XIII əsrin sonu XIV əsrin əvvəllərinə təsadüf edir. O da məlum olur ki, Qazan Xan Təbriz hakimi olsada, səcərə etibarı ilə adı «Kitabi – Dədə – Qorqud»da çəkilən Qazan xanla eynidir. «Kitabi – Dədə – Qorqud»u araşdıran filoloqlarımız onun əsasən Aran – Albaniya ərazisinə aid ədəbi-tarixi bir abidə kimi hesab edirlər. Əslində isə «Kitabi – Dədə – Qorqud» çox böyük ərazilərə aid edilməlidir və təkcə Oğuz türk qoluna aid edilməməlidir. Ən azı ona görəki Tanrıçılıq, türkün dini-mənəvi dəyərləri çox qədimi vaxtlardan başlayır, bir çox türk tayfalarına da aiddir və «Kitabi – Dədə – Qorqud» onan son mərhələsi olmaqla Oğuz türklərinin zəhməti sayəsində, oğuz türklərinin müdrük ağsaqqalı, böyük peyğəmbəri Dədə Qorqud dühası ilə yazılı surətdə işıq üzü görmüşdür. Bütün deyilənlərlə yanaşı «Kitabi – Dədə – Qorqud»un bir çox fərqli nüsxələri var və bu nüsxələr şifahi dildən yazılı dilə ayrı-ayrı vaxtlarda qeydə alınmışdır. Çox variantlılıq – həm də başqa – başqa fikirlərlə zənginlik yaradır. Bu mənada Qorqudşünaslar bu variantları əldə etməli, orada dini-mənəvi və dövlətçilik məsələlərinə daha dəqiq, məsuliyyətli olmalıdırlar, hərtərəfli araşdırmalara nail olmalıdırlar. Bununla bağlı Azərbaycan elmi mühitində çox da məlum olmayan Ziya Bünyatovun qaldırdığı Təbrizdəki Qazan xan rəsədxanası, Qazan xanın səcərə məsələsi və Təbriz bölgəsinin Oğuz xaqanlığının paytaxtlarından biri olan Beyləqana (Biləqan) tabeçiliyi məsələsidir. Z.Bünyatov yazır ki, 1300-cü il iyun ayının 6-da Qazan xan (1271-1304) marağa astronomik rəsədxanasına baş çəkmiş və bu elm ocağında olan

bir sıra cihazlar haqqında alimlərlə söhbət etmiş və onlardan necə istifadə edilməsinə aid məlumat almışdı. Həmin dövrdə Marağa astronomik rəsədxanasına Azərbaycanın böyük mütəfəkkür alimi Məhəmməd Nəsrəddin Tusinin (1201-1274) oğlu Əsiləddin Həsən Tusi (ölümü 1316-cı il) rəhbərlik edirdi. Qazan xan Təbrizə döndükdən sonra şəhərin (Təbrizin) qərb hissəsində yerləşən və özünün saldırdığı Şam Qazan adlanan kompleksdə Marağa astronomik rəsədxanasının layihəsi əsasında yeni astronomik rəsədxana tikdirir. Bu rəsədxanada istifadə edilən cihazlar eynilə Marağa astronomik rəsədxanasında mövcud olan astronomik cihazların surəti idi. Yeni elm ocağının əsasının qoyulması Nəsrəddin Tusinin və onun övladlarının müasiri olan Fəzullah Rəşidəddinin (1247-1318) «Cəmi –ət – təbarix» adlı məşhur əsərində öz əksini tapmışdır. Hətta, həmin əsərin Ingiltərənin Edinburq Universitetində saxlanılan və 1417-ci ildə üzü köçürülmüş qədim əlyazmasında Şam Qazan kompleksinin miniatür təsviri də bizim dövrə qədər gəlib çatmışdır. Bu miniatür vaxtı ilə Moskvada nəşr olunmuş Azərbaycan memarlıq tarixinə aid əsərdə və Bakıda tarixçilərimizin digər kitablarında işıq üzü görmüşdür.

Təbrizdə Qazan xan astronomik rəsədxanasının tədqiqi barədə tanınmış Türkiyə alimi Aydın Sayılı 1946-cı ildə ayrıca məqalə çap etdirməklə ilk addım atmışdır. Onun 1960-cı ildə ingilis dilində çap olunmuş «Islam rəsədxanaları» adlı əsərində də Qazan xan astronomik rəsədxanasına aid ümumi məlumat verilir.

Tarixi sənədlərdən məlum olur ki, Qazan xan astronomik rəsədxanasının rəhbəri və baş astronomu Qütbəddin Mahmud-ibn Məsud-ibn Muslih aş-Şirazi-ət-Təbrizidir (1236-1311). O, vaxtı ilə Nəsrəddin Tusinin ən fəal tələbələrindən biri olmuşdur. Onun astronomiya, həndəsə, riyaziyyat, fəlsəfə və musiqi ilə bağlı ondan çoxlu elmi əsəri vardır və dünyanın qədim əlyazmaları saxlanılan bütün kitabxanalarında mövcuddur. Bu əsərlərin tədqiqi ilə Amerikanın məşhur elm tarixi alimlərindən E.Kennedi, K.Boyler, rus alimi V.Rozan məşğul olmuşlar.

Qazan xan astronomik rəsədxanasında işləyən alimlərdən biri də Nizaməddin Əl-Həsən ibn Məhəmməd ibn Əl-Ərəc əl-Qumi ən-Naysaburidir (XIII əsrin sonu və XIV əsrin əvvəli). Onun astronomiya, riyaziyyat və həndəsəyə aid on bir elmi əsəri vardır. Bunların içərisində Nəsirəddin Tusinin əsərlərinin siyahısı olan əsər elm tarixrini öyrənmək bazımından çox qiymətlidir. Marağa astronomik rəsədxanasında hazırlanmış «Zic=Elxani»nin şərhinə aid və 1308-ci ildə üzü köçürülmüş əlyazması Sankt-Peterburqda Rusiya Elmlər Akademiyasının Şərqşünaslıq Institutunda saxlanılır.

Qazan xan astronomik rəsədxanasında işləyən astronomlardan Şəmsəddin Məhəmməd ibn Xoca Vabkanvi əl-Buxarini (XIV əsrin 1-ci yarısı) qeyd etməliyik. O, sonralar əsası 1312-ci ildə qoyulmuş Sultaniyyə astronomik rəsədxanasında işləmişdir.

Əsiləddin Həsən Tusi (N.Tusinin oğlu) də bir müddət Qazan xan astronomik rəsədxanasında çalışmışdır. Onun əli ilə üzü köçürülmüş və Parisin milli kitabxanasında saxlanılan «Zic-Elxani» dünyada ən qədim əlyazmasıdır. Qazan xan astronomik rəsədxanasında müşahidələr nəticəsində hazırlanmış «Zic-i Sultani» adlı kataloqun əlyazması Tehranda saxlanılır və günümüzə qədər bu «Zic»in üzərində tədqiqat işi aparılmamışdır. Amma, Tehranda Azərbaycan türkcəsi ilə nəşr olunan mətbuatda «Zici-Qazaniyə» adlı kataloqun adı qeydə alınmışdır.

Azərbaycan SSR-də H.Məmmədbəyli N.Tusi haqqında rus dilində çap etdirdiyi əsərdə Sultaniyə astronomik rəsədxanasında hazırlanmış «ət-Zic əl-Mühəqqək əs-sultani əl-üsul ər-rəsəd-əl-Elxani» adlı kataloqu Qazan xan astronomik rəsədxanasında Mühyəddin əl-Məqrəbinin (ölümü 1282) rəhbərliyi altında hazırlanmasını qeyd etmişdir. Rus alimi Q.Matviyevskaya isə həmin kataloqu Nəcməddin əl-katibi əl-Qəzvinin (ölümü 1277-ci il) adına yazmışdır.

Böyük vətənpərvər Z.Bünyatovun məqsədi Qazan xan astronomik rəsədxanası haqqında məlumat verməklə çəkinmədən Qırmızı Rus imperiyasına, onun özündən müştəbeh

insanlarına, bütün dünyaya türk xalqının nəyə qadir olması ilə yanaşı, Dədə Qorqud ətrafında olan insanların öz söy kökünə bağlı qalmaqla bütün əsrlərdə dünyaya, onun insanlarına və bəşəriyyətə xidmət etmə qabiliyyətlərini bəyan etmək olmuşdur.

**Maraq doğuran** məsələlərdən biridə filologiya elmləri doktoru Ş.Cəmşidovun «Kitabi – Dədə – Qorqud»dakı Azərbaycan dövlətçiliyi tarixi ilə bağlı bəzi məqamları qabartmasıdır. Torpaqları yağı düşmən – qaraçı mənşəli ermənilər (haylar) və onların himayədarları xristian mənəvi dəyərlərin daşıyıcıları tərəfindən işğal olunmuş Azərbaycan dövləti, onun vətəndaşları üçün önəmli olan «Kitabi – Dədə Qorqud»un bəzi məqamlarından sitatlar gətirmək bizcə yerinə düşər.

**«KITABI-DƏDƏM QORQUD»UN TƏXMINI XƏRITƏSI**

(X.F.B.Lincl ə F.Osvaldın(1910) və M.F.Kirzioğlunun (1952), O.Şaiqin (1973)

«Dədə Qorqud» xəritəsinin konturları üzrə tərtib edəni Ş.Cəmşidov



Ş.Cəmşidovun fikrincə kitab Azərbaycanın qədim azəri-türk oğuz dövlətinin hərbi-inzibati hakimiyyət dövrünü də özündə əks etdirən bir abidədir. Əsərdəki qəhrəmanlar özlərinin sabit sərhədlərə malik doğma məmləkətini qonşu xristian təkurlarının qarətçi basqınlarından qorumaqla, ölkə daxilində də islamın lap ilk illərində hələ xristian olaraq qalan daxili alban-türk məliklərinə (bəylərinə) qarşı mübarizə aparırlar. Xarici düşmənlər Pasin xətti arxasında Anadolu ərazisində yerləşən Trobzon, Bayburd, Düzmürd, Mardin, Hamid qalasının xristian türk təkurları və Şimal-Qərb hüdudunda Doquztümən Georgidən ibarətdir.

Daxili xristian məlikləri isə milliyətcə türk olan Qıpçaq məlik, Qara Təkin məlik, Ağ məlik, Şükili (şəkili) məlik, Buğaçıq məlik, Sunu Sandal məlik, Qara Aslan məlik və qeyriləridir. Deyilən dövr xristian və müsəlman mənəvidəyərlərin bu torpaqda üzbə-üz – yəni eranın VII əsrə olan vaxtına təsadüf edir. Burada təsvir olunan coğrafi mühit bütünlüklə Azərbaycan ərazisində baş verir və adı çəkilən yer adları hazırda da ölkəmizdə mövcud olan Gəncə, Bərdə, Göyçə, Biləqan (Oğuz), Qaraçuq, Altuntəxt, Dərəşam və sairdir. O da məlumdur ki, həmin dövrdə Gürcüstan Oğuz məmləkətinin padşahı xanlar xanı Bayandır xana illik xərac verməklə, Oğuzun tərkibində idi, Oğuzlar onları kənar basqınlardan müdafiə edirdilər. Oğuz məmləkətinin padşahı Bayandır xan, vəziri Qazlıq qoca, baş sərkərdəsi Salur Qazan, bunların hamısının ağsaqqalı, müdrik məsləhətçisi Dədə Qorqudçudur, paytaxt isə Oğuzdur – yəni indiki Beyləqan (Biləqan).

Bayandır xan padşah olaraq Oğuzda (Biləqanda) oturur. Qeyd edək ki, «Oğuz» və «Biləqan» eynimənalı sözün türkcə və farsca ifadəsidir. Türkcə Oğuz «Oxlar», farsca Biləqan «Millər» deməkdir, neçəki «arabanın oxu» ifadəsini eyni halda «arabanın mili» şəklində işlətdiyimiz kimi. «Oğuz məmləkəti» dedikdə bütövlükdə «Qalın oğuz» adlanır («qalın» sözü qədim türk dilində «bütöv», «çox sıx», «ümumi» deməkdir). Mərəzdən (Oğuzdan – Biləqandan) idarə olunan iki böyük hissəyə bölünürdü. Birinci Iç Oğuz (Bozoq), 2-ci DIŞ (DAŞ) oğuz –

(Uçoq) adlanır. Iç oğuzun başında bütün ölkənin baş hərbi sərkərdəsi Salur Qazan, 2-ci bölümün başında Aruz qoca durur. Aruz qoca Oğuz məmləkətinin bir yazısının başında dursada baş sərkərdəyə – Salur Qazana tabedir. Dövlətin padşahı Bayandır xan heç bir döyüşdə iştirak etmir. Hərbi əməliyyatların hamısını Salur Qazanın başçılığı ilə icraata verirlər. Məcburi, yaxud təsadüfi toqquşmalar nəticəsində qələbədən sonra alınmış qənimətlərdən ən yaxşı və qiymətli şeylər «pənciyek», yəni beşdə bir hissə hesabı ilə Bayandır xana verilir. Qalan qənimətlər qəhrəmanlar arasında bölüşdürülür. Burada bu gün üçün maraqlı olan məqamlardan biri baş sərkərdə Salur Qazanın qənimətlərdən faydalanması haqqında heç bir məlumatın olmamasıdır. Amma, Salur Qazan ildə – üç ildə bir dəfə öz evini xalqa yağmalatmasıdır ki, buda türk – oğuz qovminin heç bir digər «Oğuznamə» deyilən mənbələrində görünməmiş əlamətdar bir hadisədir. O, müəyyən olunmuş vaxtda Iç oğuz (Bozaq) və Dış oğuz (Üçoq) bəylərini, camaatı dəvət edir, özü təkcə «Halalının əlin alur, dışra çıqardı, ondan yəğma edərlərdi», nəyi varsa götürüb apararlarmış. Ş.Cəmşidov da bu qənaətdədir ki, «Bu abidə daha dəqiq tədqiqat mövzusu olaraq, təkcə folklorşünaslıq deyil, hələlik bu abidənin bugünkü çap nüsxələrini belə, əməlli – başlı oxuyub dərk edə bilməyən, amma mixi əlifbanı oxuyan, Cənubi Qafqazın mənbələrini yaxşı bilən tarixçilərimizi düşündürməlidir».

Alim daha sonra yazır – «Dədə Qorqud bütün oğuz elinin ağsaqqalıdır, padşahdan tutmuş, sadə adamlara kimi hamının məsləhətçisi, yol göstərəni, nəsiyət verənidir. O, yeni zamanda böyük söz ustadı olaraq hətta fitri istedada, ilhama malik, möcüzəli müqəddəs bir şəxsiyyətdir. Abidənin hər boyunun sonunda söyləyicinin dediyinə görə, bu boyları Dədə Qorqud düzüb qoşur, o, bəyan edir.

Ən maraqlısı bu dastanı danışan şəxsdir. Onun özü də Dədə Qorqud obrazında olan bir şəxsdir. Bu hadisələri o, hansısa bir xanın hüzurunda danışır. Ən vacib cəhət orasındadır ki, söyləyiçi bu dastanı xana danışdığı zaman artıq nə Oğuz məmləkəti, nə də ölkənin hakimi olan qəhrəmanlır və deməli

Dədə – Qorqud da hal-həyatda deyillər – «gəlimli – gedimli dünya, son ucu ölümlü dünya!», deyir söyləyici».

Bu faktların özüdə bizim söylədiklərimizi təsdiqləyən bir amildir.

Günümüzdə ən çox «Kitabi – Dədəm – Qorqu»-un XVI əsrdə Azərbaycandan aparılmış Drezden Əlyazmasından və onun əsasında Ş.Cəmşidovun araşdırmalarından istifadə olunur. Tədqiqatçı göstərir ki, Drezden əlyazmasında yüzlərlə təhrif halında olan söz və ifadələrin, bu «kitab»ın 200 ildən artıq tədqiqat tarixində, ən məşhur tədqiqatçıları belə çaşbaş salmışdır.

Böyük peyğəmbər Dədə Qorqud haqqında, onun söylədikləri haqqında dünya, xüsusəndə Avropa arxivlərində müxtəlif variantlı nüsxələr mövcuddur. Bizcə çox vacibdir ki, bu əlyazmaların bütün nüsxələri aidiyyatı təşkilatlar, Azərbaycan dövlətinin yardımı ilə əldə edilsin, sonra elmi fikirlər ortaya qoyulsun. Yuxarıda bu haqda deyilmişdir. Adı çəkilən Drezden variantında isə hadisələr Azərbaycan ərazilərində baş verir və bu «kitab» 1052-ci (h. 444) ildə qələmə alınmış təsviri XVIII əsrin ortalarına kimi elm aləmindən qapalı qalmışdır. «Dədə Qorqud» Oğuznamələri bu «kitab» vasitəsilə deyil, onun şifahi variantları ilə bütün türk dünyasında yaşamışdır. Azərbaycanın özündə, Orta Asiyada, Qazaxstanda, Anadoluda və s. türk ellərində Dədə Qorqud, onun ətrafı haqqında müxtəlif rəvayətlərdə, toponimlərdə, əfsanələrdə yaşadılmışdır. Ozan dili ilə bu insanlar ən çox qəhrəman obraz kimi, ağıllı bir ağsaqqal kimi, tədbirli – bilikli – mənəviyyatlı bir fərd kimi dildən – dilə dolaşmışdır. Drezden əlyazmasında «Kitabi – Dədə – Qorqud» həmdə çox nizam – intizamlı dövlət kimidə canlandırılmışdır. Həmin dövrdə həqiqətən Oğuzlarda, Azərbaycan dövlətçiliyində elə bir yüksək səviyyəli dini-mənəvi, mədəni-mənəvi səviyyə mövcud olmuşdur ki, hazırda o mühitə ancaq, yaxşı mənada həsəd aparmaq olar. Ancaq, təkrarən birdə qeyd etmək istərdik ki, həmin mənəvi mühüt uzun illərin əziyyəti, tərbiyəsi və rəhbər vəzifədə olanların fərdi, şəxsi nümunə göstərmələri sayəsində formalaşa bilmişdir. Hazırda belə bir

mühitin Azərbaycanda formalaşdırılmasına su-hava qədər ehtiyac vardır.

«Kitab»da göstərilir ki, vəzifə sahiblərindən heç kəs padşahın şəxsi icazəsi olmadan, heç yerə yürüş edə bilməz, hərbi və digər səfərlərə çıxa bilməz. Zərurət olarsa xanın divanına gəlir, ondan icazə alır, hərbi qüvvə götürməklə lazımı səfərlərə çıxırdılar. Deyildiyinə görə hər bir Azərbaycan vətəndaşı istənilən məmurun, hətta xanın yanına asanlıqla gələ bilir, öz dərdini bölüşə bilir və əminliklə oradan gedərdilər, ədalət öz layiq olduğu yeri mütləq tutardı. Əlyazmanın 6-cv boyunda, atası Qazlıq qocanı Düzmürd qalasından qurtarmaq üçün gedən Yegnəkin boyunda və qardaşı Əkərki Əlincə qələsi təkurunun əsarətindən xilas etməyə gedən Səgrəgin timsalında görürük. Yegnəg atası Qazlıq qocanın dustaq olduğunu bilib, Bayandır xanın hüzuruna gəlir, icazə və kömək istəyir. Orada deyilir: «Bayandır xan buyurdu – 24 sancaq (bölgə) bəyi gəlsin, - dedi. Əvvəl Dəmir qapı Dərbəndin də bəg olan, qarqu sügüsü ucunda ər böyürdən, qırıma yetdigində kimsən? – deyib, sormayan Qiyan Səlcuq oğlu Dəli Döndar səninlə belə varsun, - dedi. – Ayqırgölü gölündə at yüzdürən, əlli yeddi qələnin kilidin alan Eyilik qoca oğlu Dülək uran belə irsin dedi. Qoşa bürcdən qayın oxu əglənməyən Qıqırcıq oğlu Ilalmış səninlə bilə varsun – dedi. Əcdahalar ağzından adam alan Dəli Uran bilə varsun. Yerin bir ucundan bir ucuna yetəm deyən Suğan Sarı bilə varsun. Saymazla Oğuz ərənləri dükənsə olmaz. Bayandır xan 24 bahadır sancaq bəyini Yegnəklə yoldaşlığa qoşdu».

Oğlan uşaqları 15-16 yaşına çatdıqda bir igidlik göstərirsə atası qolundan tutub Bayandır xanın Divanına aparıb, orduya yazdırır, at, silah və hətta bəylik alırlar. Bir sözlə Oğuz dövlətində ciddi və möhkəm nizam – intizam var, mənəvi dəyər, Vətən məhəbbəti hər şeydən ucadır.

«Dədəm – Qorqud» dünyəvi – mənəvi dəyərləri Oğuzlarda və Oğuz məmləkətində o, dərəcədə özünə inam yaratmışdı ki, əgər, tabelikdə qohumluq əlaqəsi olan kimsə dövlət intizamını, yaxud hərbi recimi və dini – mənəvi dəyərləri pozarsa, onun cəzası elə həmin anda ölümlə icra edilirdi. Bu mənəvi dəyərlərin nəticəsidi

ki, Oğuzlarda Vətən və Dövlət təəssübü qarşısında bütün münasibətlər təsirsizdir, Vətənə, xalqa xəyanət varsa, o, kimliyindən asılı olmayaraq öz amansız cəzasını almalı idi.

Oğuzlarda həm də çox möhkəm, sağlam ailə qaydaları mövcuddur. Ər arvadın, arvad ərin uğrunda özünü qanlı döyüşlərə vurur. Oğuzlarda qadın bir ana olaraq Tanrı dərəcəsində yüksək tutulur. Valideyin övlada, övlad valideyinə öz qorxmazlığı ilə məsləkindən, əqidəsindən dönməzlik nümunəsi göstərir. Gənclər, uşaqlar ailədə vətənə, xalqa sədaqət, düşmənə nifrət ruhunda tərbiyə olunur. Buna misal olaraq Salur Qazanın Tuma qələsində əsarətdə ikən, ölüm ayağında öz məsləkindən, Oğuz nəslinə sədaqətindən dönməyib, düşmənə meydan oxumasını əks etdirən məşhur nitqi, çıxışı bütün dünya insanlığına, birinci növbədə biz Azərbaycan vətəndaşlarına misilsiz nümunədir. Budur «Dədəm Qorqud» hikməti, onun formalaşdırdığı Tanrıçılıq dini-mənəvi dəyərinin son nəticələri. Tuma qələsi təkurunun «Bizi ög, Oğuzu sındır, səni buraxaq get», tələbi qarşısında Salur Qazanın cavabı:

«Ağ qayanın qaplanının erkəkində bir köküm var,
Ormaç qırda Sizin keyikləriniz durqurmaya!
Ağ sazın aslanında bir köküm var,
Qazalaça yondunuz durqurmaya.
Əzvay qurd əniki erkəkində bir köküm var,
Ağca yunlu tümən qoyunun kətdirməyə!
Ağ Sunqur quşu erkəyində bir köküm var,
Ala ördək, qara qazın uçurmaya.
Qalın oğuz elində bir oğlum var Uruz adlu,
Bir qardaşım var Qarakünə adlu,
Yenidən doqanını durqurmayalar!
Əlinə virmişkən mərə kafir, öldür məni,
Bitir məni, qılıncından Saparım yoq!
Kəndi əslim söyməkim yoq!…
Öldürməzsən mərə kafir, qadir qoyarsa,
Öldürəyim kafir səni!»

Igid, qorxmaz qəhrəmanının altı bənddən ibarət bu ölməz bəyanatı bütün türk nəslinə tarixi bir nümunə, cəsarət, şücaət,

qorxmazlıq, vətənə, doğma oğuz-türk millətinə əbədi məhəbbət nümunəsidir. Lakin, belə bir qüdrətli millət heçdən yarana bilməz. Məsələnin mahiyyəti ancaq «Dədə Qorqud» hikmətli «kitab»dadır. «Kitabi – Dədə – Qorqud»un bu gün Azərbaycan ictimayətinə məlum olan variantının 12-ci boyunda müqəddəs kitaba» andiçmə mərasiminin, «müshəf» adlandırılması məsələsidə bu hadisələrin heç də VII əsrə aid olması və yaxud onun mənasının «səhifələr» kimi çevrilməsinin islama heç bir aidiyyatı yoxdur. Bunlar «kitab»a sonrakı əlavələr kimi qəbul olunmalıdır, «müqəddəs kitab elə «müqəddəs kitabdır», Türkün əsrlər boyu yaratmış olduğu, Tanrıçılıqdan bəhrələnən «Dədəm Qorqud» tərəfindən yekunlaşdırılaraq Türkün dini – mənəvi «müqəddəs kitab»ıdır.

Bizcə, Azərbaycan yazarları ilə, insanları ilə, vətənsevərlərilə bölüşməli başqa bir məqam «Kitabi – Dədə – Qorqud»da «Dədəm Qorqudu» sırf ozan, aşıq qismində təbliğ etmək, rəsmlərdə, kinolentlərdə, ozan qiyafəsində canlandırmaq məsələsidir. Əslində çox-çox qədimlərdən türk millətinin, xüsusəndə Oğuz qolunun elin-obanın yaxşı-pis günlərini, qəhrəmanlıq, sevgi-məhəbbət əhvalatlarını ozanlar hərəsi öz təəbi, bacarığı – qabiliyyəti daxilində Türk ellərinə qopuzla, sazla – sözlə çatdırmışlar. Əlimizdəki nüsxədə də bildirilir ki, ozanlar Xaqanlara, xanlara, sərkərdələrə, məclis əhlinə bu söhbətləri çatdıranda – nə «Dədəm Qorqud», nə adları çəkilən Xaqan və xanlar yox idi, sadəcə söhbətlər onların adından söylənilirdi. Bunların da kökündə əsl «Kitabi – Dədəm – Qorqud»un mənəvi dəyərləri dururdu.

Bu baxımdan prfessor N.Həbibovun «Dədə Qorqud»un çox böyük sənətkarlarımız olan Mikayıl Abdullayev, T.Nərimanbəyov, E.Aslanov, I.Məmmədov tərəfindən rəsm əsərlərində, xalçalarda, kitab illustrasiyalarında canlandırılma məsələsidir. Alim, çox düzgün olaraq qeyd edir ki, «Kitabi – Dədə – Qorqud» dərin mənalı, sözün ecazkar qüdrətilə yaranmış misilsiz abidə Azərbaycan xalqının mənəvi dünyasını, adət və ənənələrini, vətənpərvərlik və qəhrəmanlıq ruhunu, milli və bəşəri ideallarn vəhdətini tərənnüm edir.

Istənilən tədqiqatçı, istənilən sahənin ziyalısı «Dədə Qorqud»da nəyi isə araşdırsın – o, mütləq mənəviyyatdan, qəhrəmanlıqdan, vətənpərvərlikdən daha çox söz açacaqdır, çünki «kitab»ın xəmiri mənəviyyatla yoğrulmuşdur, ondan qaçmaq sadəcə mümkün deyildir. Odur ki, gəlin «Dədəm Qorqud»u mənəviyyat daşıyıcısı kimi, dini – mənəviyyat daşıyıcısı kimi elimizə – obamıza və dünyaya olduğu kimi təqdim edək.

Problem eynilə bədii yazılarda və digər xalq üçün yaradılan hər cür istiqamətlərdə öz əksini tapmalıdır. Belə olduqda «Kitabi – Dədə – Qorqud»un dəyəri daha da yüksələr, onu yaradan millətin, xalqın baş ucalığı biraz da monumental görünər, tədqiqatların istiqamətləri yeni – daha güclü istiqamət almış olar.

Mənəvi, dini – mənəvi istiqamətdə aparılan tədqiqatlar Azərbaycanı, onun dövlətçiliyini, dərin və qədim mənəvi dəyərlər sahibi olmasını istəməyən bədxahlarımıza da tütarlı cavablarımıhdan biri olar. Bu məsələ ermənilər, qaraçılar, bizdən olub – bizi bəyənməyənlər, nəyimiz varsa hamısını qapmaq istəyən digər «insan, millət, şəxs, dövlətlər» üçün də az əhəmiyyət kəsb etmir.

«Kitab»ın ərsəyə gələn yurd Azərbaycan məkanı, Oğuz yurdu, doğma Dərbənd, yaxın Dərbənd, yaxınlığı qədərdə uzaq olan Dərbənd, sənə övlad borcumuzu verə bilirikmi . . . Lap elə Beyləqan (Oğuz) şəhəri səni dəyərincə qiymətləndirə bilirikmi . . . Bu baxımdan Faiq Balabəylinin vaxtı ilə (1993-il) «Dərbənd» qəzetinin əməkdaşı Şıx Ibrahim Manafoğlu ilə dərdləşməsini xatırlatmaq istərdim. Ibrahim, həmdə bizsiz təşkil etdikləri Dərbənddəki «Azəri» cəmiyyəti idarə heyyətinin üzvü idi. Hazırda bu cəmiyyət fəaliyyət göstərirmi . . . Bəs «Sadval» necə . . . Ibrahimin müsahibəsinə görə Dərbənddə həmin dövrdə 25 min Azərbaycan türkü öz qədim torpaqlarında yaşayırda. Siyahıyaalma zamanı yerli hökümət saxtakarlığa yol verərək bu sayı rəsmi sənədlərdə minimuma endirir. Biz məsələyə heç varırıqmı, əlbəttə yox! . . .

Ümumiyyətlə, əvvəllər Dağıstanda Azərbaycan türklərinin sayı daha çox olub. Onun dediyinə görə 1989-cu il siyahıyaalınmasına görə ancaq Dərbənddə 17 min ləzgi, 13 min yəhudi, 9 min tabasaran, 8 minə yaxın rus, 3 min erməni yaşayırdı (Sadvalın ilhamvericiləri). Elə deyilən səbəbdən də Dağıstanda dövlət dili Azərbaycan türkcəsi olub. Dağıstanda tarixən Azərbaycan türklərinin çoxluğunu başqa bir faktda təsdiqləyir. Qırmızı imperiyanın ağır günlərində Moskva Azərbaycandan iki nəfər bacarıqlı partiya işçisi tələb edir. Bu məqsədlə Iranda olan Əziz Əliyev oradan çağırılaraq Dağıstana 1-ci katib göndərilir. Məlum olduğu kimi professor Əziz Əliyev o dövrə qədər – yəni 30-40-cı illər ərzində Azərbaycan Dövlət Universitetinə, Dövlət Kliniki Institutuna, Azərbaycan Dövlət Tibb Institutuna, Azərbaycan SSR Xalq Səhiyyə Komisarlığına rəhbərlik etmiş, respbulika KP MK-nin katibi vəzifələrində çalışmışdı. Dağıstana da azərbaycanlı və həmdə müəyyən yol keçmiş, Azərbaycan türkcəsini bilən, xalqın öz millətindən olan bir insan tələb olunurdu. Ağır müharibə illərində Dağıstanda əsas əhali Azərbaycan türkləri olduğundan bu addımı atmışdılar. Əziz Əliyev 1942-ci il 16 sentyabrdan 1948—ci il 3 dekabra qədər Dağıstan Vilayət Partiya Komitəsinin 1-ci katibi vəzifəsini tutmuşdur. Əslində, əksər hallarda Dağıstanda azərbaycanlılar say etibarı ilə üstünlük təşkil etdiklərindən rəhbər işçilərin də əksəriyyəti onlardan olurdu. Digər bir səbəb isə Azərbaycan xalqının işgüzarlığı məsələsidir. I.V.Stalinlə hər adam uzun müddətə işləyə bilməzdi. Ə.Əliyev Dağıstanda öz əməlləri ilə xalqımızın şərəfini qaldırmış və 1, 2 və 3-cü çağırış SSR Ali Sovetinə, 1, 3-cü çağırış Azərbaycan SSR Ali Sovetinə deputat seçilmiş, iki dəfə Lenin, 1-ci dərəcəli «Vətən müharibəsi», «Qırmızı Əmək Bayrağı»ordenləri ilə təltif edilmişdir. Dağıstanda ona «Qurucu Əziz»də demişlər. Lakin bəzi qədirbilməzlər bu xalqın əsl qiymətini verməmişlər.

Vaxt keçdikcə sonra hər şey unudulur və Dağıstanda Ümumtəhsil məktblərində Azərbaycan dilinin, Ali məktəblərdə isə Azərbaycan dilinin və ədəbiyyatının tədrisi tamamilə dayandırılır.

Millətin dilini əlindən aldın hər şey bitir. Dağıstanda rusların rus dilini dövlət dili səviyyəsinə çatdırmaq istəyi də fayda verməmiş, xeyli müddət əhalinin əsas ünsiyyət vasitəsi – Azərbaycan dili (türk dili) olaraq qalmışdı. Lakin, Azərbaycan dili əleyhinə təxribat davam edir, tədricən Azərbaycalılar sıxışdırılır, köçürülürdülər. Bakı isə Ermənistanda olduğu kim burada da öz millətinə biganə idi. 1913-cü ildən, yəni sovetlərdən də əvvəl Dərbənddə Azərbaycan milli teatrı fəaliyyət göstərirdi. Yada salaq ki, böyük sənətkarlar Ismayıl Dağıstanlı, Cum-Cum və başqaları bu teatrın yetirmələridirlər. 1952-ci ildə dairələrin təşkili bəhanəsilə Azərbaycan teatrını bağlayıb, ləzgi teatrını Dərbəndə gətirdilər, yenədə səsimiz çıxmadı. Yeri gəlmişkən o vaxtlar «Sovetskaya kultura» qəzetinin müdaxiləsilə teatr bərpa olundu. Ancaq, «Sovetskaya kultura»nın məqaləsini tərcümə edib «Ədəbiyyat və incəsənət» qəzetində dərc etdirən Əlfi Qasımov təqiblərə məruz qaldı.

Dağıstan üçün hər şey edən, dar günündə karına cələn, öz doğma vətəni sayan azərbaycanlılar indi hakimiyyətdə təmsil olunmurlar, azərbaycandilli ədəbiyyat çap edilmir və s. Başbilənlərimiz yaxşı olardı ki, Qusarda ləzgi yazıçılar birliyi fəaliyyət göstərdiyi kimi, Dərbənddə də belə bir iş görsünlər. Çox vacibdir ki, Dərbənddə Universitetlərimizdən birinin filialı açılsın və mütləq azərbaycan dili və tarixi tədris edilsin, Dağıstanda Azərbaycan dilli məktblərdə müəllimlərə olan tələbat ödənilsin. Məlum olduğu kimi. Dağıstanda bəzi insanlar Dərbəndin qeyriazərbaycan şəhəri olması üçün dəridən-qabıqdan çıxırlar. Bununda qarşısını almaq üçün Dərbəndin, ümumilikdə Dağıstanın keçmiş tarixi və dili bizim tərəfimizdən də araşdırılsın. Bildiyimiz kimi Dərbənddə kifayət qədər tarixi abidələrmiz var. Bu abidələrin günün tələbatı istiqamətində elmi axtarışa böyük ehtiyacı var və oradakı soydaşlarımızın assimilyasıyasının qarşısının alınmasına, əhalinin oradan sıxışdırılmasının qarşısının almağa da bir dayaq olardı. Dağıstanda «Dədəm Qorqud»dan başqada kifayət qədər məlum olan tarixi şəxsiyyətlərimiz də var. Dağıstanın son dövrlər tarixində ilk generalı, Balakişi Ərəblinski, fətəli xanın

xanımı Tutu bikənin məqbərəsi, «Daş qala», «Boyat Qala», «Qırxlar qala» (Dərbəndlilər qırx ərəb sərkərdəsini burada qətlə yetirmişlər – qəsbkarlar kimi) və s. mövcuddur. Bu qalalar həmdə Azərbaycan memarlığının Şah əsərlərindən sayılır. Söylənilənlərə yiyə durmasaq «Sadval»çılar erməni fitnə-fəsadı ilə millətçilik siyasətlərini biraz da artıracaqlar. Dini bir, adət-ənənəsi bir, insanlarının əksəriyyəti Azərbaycan türkü təşkil edən Dağıstanla biz istəsək hər cür əlaqələr yarada bilərik və bunu etmək Azərbacan üçün hava – su kimi lazımlıdır.

Ermənilər (haylar) bu gün Azərbaycan cəmiyyətinə öz əməlləri ilə məlumdurlar və hər gündə onların xalqımızın başına açdıqları müsibətlər pis-yaxşı işıqlandırılır. Amma, Azərbaycan insanları və hökuməti Dağıstanı özünün doğma diyarı, vətəndaşlarını isə öz vətəndaşları saydıqlarından onlardan Azərbaycana qarşı pis əməllər gözləmir. Ermənilər Qafqaza gəlmə adamlardırlar, digər xalq və tayfalar isə Qafqaza gəlmə zamanından asılı olmayaraq bu və ya digər tərzdə qədim türk tayfaları ilə birbaşa bağlıdırlar – yəni bizlərdəndirlər və dini-inanc ayrılığıda yoxdur. Amma, nə etmək olar ki, araqarışdıranlar həmişə tapılır. Lakin bu milli məsələ ilə əlaqəli olduqda hər bir xalqa fəlakətlər gətirə bilir. Fikrimizi təsdiqləmək üçün Qafar Cəbiyevin 10 aprel 1997-ildə çap etdirdiyi yazıya ötəri də olsa nəzər salaq. Söhbət Dağıstanda «Nur» adlanan qəzetdə «dilçi alim» Harun Ibrahimovun (milliyəti guya saxordu) «Ana dili dərsi» başlıqlı yazısından gedir. O, yazır «. . . Kişi olan kəsə üç şeyi bilmək vacibdir. Vətən, dil və din. O üç amil ana dili dərsi ilə bağlıdır». Qafar Cəbiyevsə soruşur – məgər qadınlara Vətən, dil və din lazım deyil?! Harun yazır: «Çox-çox illər əvvəl (dəqiq tarix yoxdur) bizim də Vətənimiz olub, yurdumuz olub (Məgər indi yoxdur?). Saxorların həmişə dini, imanı olub (Oğuzların hansı dini olubsa saxorlarda həmin dinə qulluq ediblər). Ondan min il sonra saxorlar öz ana dilini unudublar (hansı tarixdən min il sonra?!). O, millətə bəlalar gətirib. Dil aradan getdi. Vətən də, yurd da əldən getdi, millətin adı aradan getdi. Saxorlar ilbəil azaldılar».

Harunun yazısını olduğu kimi verdik ki, onun haqqında fikiri oxucu özü müəyyənləşdirsin. Q.Cəbiyevsə yazır ki, 1926-ilin siyahıya alınmasına görə o vaxt bütün Sovetlər Ittifaqında 3319 nəfər saxor olduğu göstrilib. Saxorlar əsasən Dağıstanın Rutul bölgəsində, Azərbaycanın Qax və Zaqatala bölgələrində məskunlaşıblar. 1979-cu ilin məlumatına görə saxorlar artıq 14 min nəfərdirlər.

H.Ibrahimov heç bir tarixi fakta söykənmədən yazır . . . «Köhnə adla tanınan Muxax (Zaqatala) camaatı indi heç bilmirlər ki, onlar hansı millətdəndirlər. Mamrux, Gözbarax, Ələsgər, Sabunçu, Güllük, Zərnə, Yuxarı tala, Qum, Çinarlı, Sarıbaş, Ağçay camaatı milliyətini saxor yazmır və saxorca danışmırlar. Belə yerdə deyiblər ki, «qız evində toydur, oğlan evinin xəbəri yoxdur». Günümüzə bir baxın! Dağıstanda oturub özünə «umac ova bilməyən bir kəs Azərbaycan kəndlərinin camaatı üçün əriştə doğrayır». Cürbə-cür avantürüst sözlərinə görə Haruna Azərbaycanda fəaliyyət göstərən «Saxor» cəmiyyəti idarə heyyətinin sədri Bahəddin Şabanov və «Nur» qəzetinin Azərbaycan üzrə nümayəndəsi, Suvagil kənd orta məktəbinin baş müəllimi Oktay Camalov etirazlarını bildirmiş «Nur»un redaksiyasına açıq məktubla müraciət etmişlər. Onlar yazırlar: «Azərbaycan bizim doğma vətənimizdir, Azərbaycanın ərazi bütövlüyünün qorunması üçün yüzlərcə şəhid vermişik. Lakin, bəzi ağılsız adamlar öz çirkin əməllərindən əl çəkmirlər. Xalqı qarşı-qarşıya qoymaq, ara qızışdırmaq kimi təxribatçı işlərlə məşğuldurlar. Harun əvvəlcə tarixi öyrənsin. Bu xaraeterli yazıların öz millətimizin nümayəndəsi tərəfindən verilməsi bizi hədsiz dərəcədə narahat eir. Odur ki, Harun Ibrahimova üz tutub deyirik: Belə avantürüst hərəkətlərdən sonra biz Sizə nə yoldaş, nə də müəllim kimi müraciət edə bilmərik. Yazdığınız yazılar yalnız separatçı, qarışdırıcı mövqedən olmaqla tarixi dəlilsizdir. Sizin məqalənizdən H.Abdurəhimovun 1995-ci ildə Sank-Peterburqda çap olunmuş «Qafqaz Albaniyası – Ləzgistan» kitabında söylənilən «fikirlər»in qoxusu gəlir». Heç bir tarixi faktlara, həqiqətlərə söykənməyən Harun yazısına onun öz millətinin ziyalıları cavab

verdiyindən, digər şərhə ehtiyac yoxdur. Lakin, qeyd etməliyik ki, göründüyü kimi erməni fikirlərini (Qafqaz Albaniyası haqda) Dağıstanın bəzi başı bəlalı «insanları da» təkrar edir. Bu da özlüyündə erməni – rus barmağının olmasına bir sübutdur.

Harunun bir dilçi alim kimi də «suvagil» sözünün mənasını səhv izahı da təəcub doğurur. Yaxşı olardı ki, Harun milliyətcə saxor olan Əhməd Isayevin hələ 1983-ildə çap olunmuş «Nə yaxşı ki, sən varsan» kitabını oxuyaydı. Ə.Isayev yazır: «XV əsrin sonlarında bu yerlərə (Azərbaycana, Suvagilə və s.) gələn avar və saxorlar əvvəlcə elə belə iş gəzirdilər. Sonra gördülər ki, çox abad yerdir, istəklidir, çörəklidir, ömürlük yurd saldılar . . . Suvagilin mənası isə saxorca dağ keçidi deməkdir. Ilk dəfə gələn 12 ailə Dağıstanın Saxor kəndindən Baldırgan adlı yerdə yaşayır, maldarlıqla məşğul olurdu. Bir neçə ildən sonra onlar geri qayıdırlar. Ikinci cəhd də baş tutmur. Nəhayət, 1621-ci ildə saxorlar həmişəlik bu yerlərə gəldilər və Suvagil kəndinin əsasını qoydular».

Harun Ibrahimov saxorlarla işini bitmiş hesab etmir. Azərbaycan və Azərbaycan dilinin olmadığını Dağıstanda yayır, Qafqaz Albaniyasını az qalır desin ki, saxorlarındır, həmdə bu yalançı – təxribat xarakterli yazıları Azərbaycanın şimal bölgələrində yaymaqla məşğul olur. O da məlumdur ki, özünü «ziyalı» sayan Harun Ibrahimov «Sadvalın» fəal üzvü olmaqla onların və ermənilərin əlində özünü oyuncağa çevirməklə sifariş icratçısıdır. Bizsə, deyirik H.ibrahimov səhv yoldan, zərərli vərdişdən çəkinmək heç vaxt gec deyil!

Birdə, axı Siz Dağıstanda yaşayırsınız, Oğuz məmləkətində yaşayırsınız, nə əcəb «Kitabi – Dədəm – Qorqud»u, Beyləqanı (Oğuzu), Bərdəni və «Dədə-Qorqud»u «özünüküləşdirmirsiniz..., bəlkə bunlar da avar, yaxud saxordurlar...

İstifadə olunmuş mənbələr

1. Drezden əlyazması, vər. 124b.
2. «Kitabi – Dədəm Qorqud ala lisani maifeyi-oğuzan», dürüstləşdirilmiş mətn, Şamil Cəmşidov, Bakı, «Göktürk» nəşriyyatı, 1995-il.
3. BudaqovA.Z. Sravnitelğnıy slovarğ tureüko-tatarskix nareçiy.1871, t.11,s.25.
4. Bartolğd V.V. Soçinenię, tom V. M., 1968, s. 481.
5. Araslı H. Xalq ədəbiyyatının qiymətli abidəsi. «Ədəbiyyat qəzeti», 13 iyul 1957-il.
6. Bartolğd V.V. Tureükiy gpos i Kavkaz. Sb. «Əzık i literatura», t. V, 1930, ss. 1-18.
7. Buniətov Z.M. Azerbaydcan v VII – IX vekax. Baku, 1965.
8. Dəmirçizadə Ə. «Kitabi – Dədə Qorqud»un dili. Bakı , 1959.
9. Erkin M. «Dədə Qorqud kitabı». Ankara, 1952.
10. Əlibəyzadə E. Dünya elmi fikri «Dədə Qorqud»un tarixi haqqında. «Elm və həyat», say 7, səh. 20-21, 1980.
11. Əkubovskiy A.Ö. «Kitabi_Korqud» i eqo znaçenie dlə izuçenię turkmenskoqo obhestva v gpoxu ranneqo srednevekovğə. Curn. «Sovet gdebiətı», Aşxabad, 1944, t.6, ss.58-79.
12. Koroqlı X. Oquzskiy gpos, M., 1975.
13. Gökyay Orhan Şaik. «Dədəm Qorqudun kitabı». Istanbul, 1973.
14. Övliya Çələbi. Səyahətnamə, II c., Istanbul, 1217 h.
15. Təbəri – Tarix. II c. Istanbul, 1328 h. Səh. 376.
16. Gəmşidov Ş. Drezden əlyazmasında bir vəfat tarixi haqqında. Azərbaycan EA «Xəbərlər» toplusu, 1965, səh. 5.
17. Cəmşidov Ş. «Kitabi-Dədəm Qorqud». Bakı, «Elm» nəşriyyatı, 1999.
18. Rafiq Turabxanoğlu. «Dədəm Qorqud kimdir?», Bakı, Mənlik, 2000.
19. N.Həbibov. «Dədə Qorqud» boyları müasir rəssamların boyalarında. Azərbaycan qəzeti, 19 fevral 1998-il.

20. Faiq Balabəyli. Yaxın uzaq Dərbənd. Şimali Azərbaycan qəzeti, 4 fevral 1993-cü il.

21. Qafaz Cəbiyev. «Nur» qəzetində Harun bəyin yazdıqları və yaxud tarixi necə saxtalaşdırırlar. Azərbaycan qəzeti, 10 aprel 1997-il.

# III BÖLMƏ

Tanrıçılıq, Islamçılıq və Azərbaycan mənəviyyatı.

Tanrıçılıq türkün tapıntısıdır. Tarixən Avropalılar, xristianlar, yəhudilər, buddistlər tanrıçılıqla bağlı fikirləri ya mənimsəyərək öz adlarına çıxarmış, yaxud məhv etmiş və ya ələ salmağa cəhd etmək istəmişlər.

Lakin, tədricən məlumatlar daha çox aydınlaşmış, yayılmış və dəyərli faktlar qarşısında türk istəməzlər geri çəkilərək əməllərini altdan-altdan, pərdə arxasında aparmağa çalışmışlar. Əlbəttə tanrıçılığın türkə aid olmasını sübut və təsdiq edən alimlərimiz də az olmamışdır. Bizə məlum olan bu dəyərli araşdırmalar arasında Murad Acının «Avropa, Türklər, Böyük çöl» əsərini söylədiyimiz problemə ən dəyərli töhvələrdəndir. Artıq Tanrıçılığın Türk xalqı dahilərinin beyin, zəka məhsulu və dost-doğma mənəviyyatı olması məsələsi dünyanın elm aləmində mübahisəsinə nöqtə qoyulmuşdur.

Tanrıçılıq ilk vaxtlar əsasən Azərbaycanda, Altayda geniş vüsət almışdır. Türklərin tarixən dünyanın geniş ərazilərini əhatə etdiyini nəzərə alsaq, onlar müəyyən ərazilərdə Şamançılığı, müəyyən ərazilərdə Atəşpərəstliyi və müəyyən ərazilərdə Büddistliyi daha yüksək səviyyədə inkişaf etdirmişlər. Türk dünyasının əsas və ən qədim mədəniyyət mərkəzləri Altay, Ural, Tanrı-Tao və Qafqaz bölgələrində daha çox mərkəzləşmişdi. Bu dövrlərdə türklər Göy Tanrı, Ulu Tanrı, Əbədi-Əzəli Tanrı deyib, öz Tanrı duaları ilə mənəvi qida almışlar. Böyük dini-mənəvi dəyərlərin araışdırıcısı hesab olunan fransız alimi Can Pol Ru yazır ki, «bizim eradan çox-çox öncə Altaylar Göy Tanrıya səcdə etmişlər». Çin alimləri isə yazırlar ki, Tanrıçılıq türklərdə eradan öncə 5-ci əsrə qədər mövcud idi.

Tanrıçılığın əsasları, Tanrıı duaları isə əsasən üç şəkildə formalaşmışdır. Belə ki, <u>1-ciyə alqış</u>, qarğış və müalicə mədəniyyəti əsas olan <u>Şamançılqdır</u>. <u>Ikinci</u>, ovçuluq, əkinçilik və davranış mədəniyyətinin cəmini, birliyini özündə ehtive edən <u>Atəşpərəstlikdir</u>. <u>Üçüncüyə</u> isə sırf dini-mənəvi mədəniyyət əsası

hesab edilən Büddüstlükdür. Tanrıçılıq isə əvvəldə deyilənlərlə yanaşı, həm də bu üç istiqamətli mədəniyyətin birliyindən, sintezindən bəhrələnən, təkmilləşən bir mahiyyətdir.

Tanrıçılığı özündə ehtiva etdiyi mədəniyyətlərin vahid bir məcraya yönəldilməsində mənəvi ehtiyac isə əsasən yeni eranın 1-5-ci əsrlərində daha çox güclənmişdir. Deyilən dövr ümumilikdə insan psixologiyasında yeni bir mərhələnin başlanğıcı ilə səciyyəvidir. Bu dövr, insanlığa xristianlıq və islamçılıq adlı yeni bir mənəvi mədəniyyət, daha doğrusu dini-mənəvi dəyərlərin son mərhələsinə çatmağın sürətlə yekununa çatmağı gətirmişdir. Öz növbəsində bunu çox böyük tarixi təkamül kimi də qəbul etmək olar. Dövrün başlanğıcı Iudizm inancının yəhudilər tərəfindən formalaşması işini də sürətləndirmişdir. Bu formalaşma təbiətcə ateist olan ö dövrün xristianlarını hiddətləndirdi və 66-73 illərdə Iudey müharibəsi başlandı, nəticədə yəhudilər Fələstindən qovuldular və onlar Türk xalqlarına pənah gətirdilər, əksəriyyəti qıpçaq çöllərində özlərinə sığınacaq tapdılar. Iususun davamçıları sayılan Petr və həmfikirləri Balkan türklərinə pənah gətiərərk, sonralar bəziləri Yunanıstana və Romaya getdilər. Həmin vaxtlarda Tanrıçılığın ən başlıca aparıcı qüvvəsi Türk Xaqanları olmaqla, öz tarixi ənənələrinə sadiq qalmaqda idilər.

Eradan əvvəl 200-cü ildə Mete (Oğuz) Kaqan Asiya qitəsinin üçdə ikisinə sahib olmuş, yaşadığımız eranın 450-ci ilində isə Böyük Türk oğlu Atilla bütün Qərbi fəth etmişdir. Yaxud, Türk dünyasının mənəvi aləmində Xızır (Xıdır, Xızır Ilyas) kimi peyğəmbərin nüfuzu dərin bir mahiyyət kəsb etmişdir.

Qeyd etmək vacibdir ki, tarix yaddaşına böyük Daralar yetirmiş cənubda, böyük Isgəndərlər yetirmiş Qərbdə, böyük sülalələr yetirmiş Hind-çində Türklərə onlar zamanın bu kəsiyində qibtə ilə baxır, onun qələbələrinin mənəvi sirlərini öyrənirdilər. Gəlinən qənaət isə bu idi. Türkün gücü onun Göy Tanrısında, onun Göyə müqəddəslik inacıyla baxmasındadır.

Türk dünyası dövlətlərinin bəzi məğlubiyyətlərinin bir səbəbi də Tanrıçılıq dini-mənəvi dəyərlərin, onun əlindən alınması və ya zəifləməsi olmuşdur. Amma, Tanrıçılıq o qədər güclü və

həyatın özünü olduğu kimi əks etdirməsidir ki, onun bir çox əlamətləri qulluq etdiyimiz dində də öz əksini tapmış və ya sərbəst olaraq günümüzə qədər yaşamaqdadır. Bu xüsusən Altayda, Uralda, Sibirdə və Şimallı-Cənublu Azərbaycanda özünü daha qabarıq göstərməkdədir.

Qərbi Azərbaycanda, Naxçıvanda, Qarabağda, Təbriz və Ərdəbldə indinin özündə də bir çox işlərə başlayarkən insanlarımız əlini Göyə uzadır, Gözə görünməz Tanrıdan, Ulu Tanrıdan, Göy Tanrıdan imdad, kömək istəyirlər. Odur ki, bu ideoloci silahdan Türkü məhrum etmək gərək idi. Bu yolda böyük mübarizə, dava-qırğın başlamışdı, fitnə-fəsadlar törədilmişdi. Türk dünyası isə bunlara fikir vermir, əldə etdiyinə, yaratdığına soyuq yanaşır, yaratdığı dini-mənəvi dəyərin – Tanrıçılığın inkişafına lazımı qayğı göstərmirdi. Belə bir dövrdə türk dünyasının ən böyük mənəvi mərkəzlərindən biri və çox əhəmiyyətlisi olan Qafqaz, onun əsas mərkəzlərindən biri Dərbənd bir hədəf olaraq qalırdı. Bu şəhər oğuz və qıpçaq türk boylarının qovuşaq torpaqları idi. Səbəb isə Tanrıçılığın əsasən elmi və sistemli mərkəzi bu məkanda cəmləşmişdi və Tanrıçılığın inkişafı üçün çox böyük real mühit hököm sürürdü. Bu zamanlarda Tanrıçılıq bir din kimi təkmilləşir və özünü mənəvi baxımdan qəbul edə bilmədiyi Gavurçuluğa qarşı qoyur, onunla mübarizə aparırdı. Gavurlar, dünyasını dəyişmiş insanı istənilən yerə atdığı halda, Tanrıçılıq insanı kurqanlarda hörmət və ehtiramla dəfn edirdilər. Gavurlar (çoxallahlıq) arasında türk tayfaları da var idi, yəni Tanrıçılıqla barışmaq istəməyən özümüzünkülər də mövcud idi.

Türk Tanrıçılıq dini-mənəvi dəyərlərimizin sonrakı inkişaf mərhələsinə toxunmadan onu demək vacibdir ki, bu gün Qaqauz türk tayfaları, Bolqarlar, Macarlar, Yakutlular, və s. xristian, Altaylar nə ondandır – nə bundan, Kırım, Şimali Qafqaz, Kazan Tatarları, Başqurdlar, Türkiyə türkləri və s. Islamın sünnü təriqətinə, şimali və Cənubi Azərbaycan və s. Islamın şiyə təriqətinə xidmət edirlər və Türk dünyasını sevməyən, ona düşmən kəsilən Xristian, Iudistpərəst dövlətlər və siyasətçilər bu pərakəndəlikdən istifadə edərək biz qardaşları

bir-birimizə silah qaldırmağa, müharibələr etməyə təhrik siyasəti yürütmüşlər və tam məsuliyyətlə deyə bilərəm ki, bu siyasət hazırda da davam etməkdədir. Azərbaycan – rus, Azərbaycan – erməni, Israil – Fələstin, Hindistan – Pakistan, Əfqanistan, Iraq, Türkiyə – kürdəl (Kürdlər həmdə əslən sibirli olan Qurd türk tayfasıdır) və s. sadalamaq olar. Hələ, Çin və onun yarıya yaxınını təşkil edən Tibet türklərini son vaxtlar unutduğumuzu dilə gətirmirəm. Belə bir acınacaqlı həyatı Orta Asiya türkləri də yaşamış və yaşıyırlar. SSRI-i dağılarkən Özbək türkləri ilə Mesxeti türklərinin qarşıdurumu, yaxud Mesxeti türklərinin öz vətənlərindən didərgin salınması, Bolqarıstandan dini zəmində 300 mindən artıq Türkiyə türkünün qovulması, axır günlər Almaniyada türklərin yatdığı yerdə evləri qarışıq yandırılması və s. yüzlərlə dini zəmində, türk olmasına görə türk insan və dövlətlərinin başına gətirilən müsibətlərin ilk mənbəyi Tanrıçılıq dini-mənəvi dəyərlərimizə sahib çıxmadığımız vaxtlardan başlayır.

May 2008-ci il Rusiya Federasiyası dövləti yanında Dövləti Idarəetmə Akademiyasında Qafqaz Albaniyası dövləti və Ləzgilər mövzusunda keçirdikləri konfransda bu zəncirlərin bir həlqəsidir və əslində dədələri qıpçaq türkləri olan Urusların Azərbaycanın Qafqaz Albaniyası dövləti tarixinə toxunmaqda heç bir mənəvi və ya dövləti hüquqları yoxdur. Məqsəd, Azərbaycanı əlində saxlamaq, onun Islam inacını aradan çıxarmaqdır. Bu siyasətin kökündə dayanan səbəblərdən biri də Rus Imperiyasını yaradanlardan biri olmuş Birinci Pyotrun ölüm qabağı yazdığı, 1725-ci ildə üzə çıxdığı və 1738-ci ildə elan edildiyi «Vəsiyyətnamə»sidir.

<u>«Vəsiyyətnamə»nin 10-cu bəndində deyilir:</u> - «Rus dövləti həmişə müharibə müvazinəti hazırlamalı (Azərbaycan – erməni müharibələri kimi) və çalışmalıdır ki, bu hazırlıq Rusiyanın tərəqqisinə səbəb olsu».

<u>8-ci bənddə deyilir:</u> - «Rusiya dövlətinin hüdudu Avropadan şimala Baltik dənizinə, cənubdan isə Qara dənizə qədər olmalıdır. Bunu mühafizə etmək və rus sərhəddini genişləndirmək övladlarımın vəzifəsidir». Əlbətdə, ruslar bu

vəsiyyətə əməl etmişlər. Sərhədlərini Baltik və Qara dəniz sahillərinə çatdırmışlar və Qara dəniz sahillərində ata-baba torpaqlarında yaşayan bütün türklər oradan sıxışdırılaraq çıxarılmışlar.

9-cu bənddə deyilir: - «Rusiya dövlətini o zaman dünya dövləti adlandırmaq olar ki, onun paytaxtı Asiya və Avropa xəzinələrinin açarı olan Istanbul olsun. Tez və yerli-yerində çalışıb, Istanbula sahib olan şah dünyada ilahi şah olacaqdır. Bu məqsədi həyata keçirmək üçün həmişə Türkiyə ilə Iran arasında fitnə-fəsad törətmək, dava-dalaş yaratmaq lazımdır. Bu işdə sünnü və şiə məzhəbləri arasındakı ixtilaflar böyük, kəskin silah və basılmaz ordudur. (Diqqət yetirin və bilin ki, Osmanlı türk imperiyasının başqanı Soltan Səlimlə Azərbaycan türk imperiyasının başçısı Şah Ismayıl Xətai arasında yaranan narazılıq bu zəmində baş vermiş və Azərbaycan dövləti böyük iztirablar, torpaq itikisinə, iperiyanın sarsılmasına səbəb olmuşdur).

Rusiya nüfuzunu Asiyada qaldırmaq üçün sünnü – şiə ixtilafları yaxşı bir vasitədir. Türkiyə ilə Iran dövlətləri arasındakı müvazinatı fitnə-fəsadla elə pozmaq lazımdır ki, onlar bir-biri ilə dil tapa bilməsinlər. Həm Iran, həm də Türkiyəni Avropa xalqları ilə təmas tapmağa imkan verməmək (həmin siyasətdir ki, Türkiyə uzunillərdir Avropa birliyinə götürülmür). Əgər bu ölkənin müsəlmanları göz açıb hüquqlarını qansalar, o bizə zərbə olar. Həm Türkiyə, həm də Iranın din xadimlərini ələ almaq və onlar vasitəsi ilə sünnü – şiə ixtilaflarını qızışdırmaq lazımdır. Islam əqidəsini Asiyadan uzaqlaşdırmaq, xristian dini əqidəsini və mədəniyyətini orada ciddi təbliğ etmək, yaymaq zəruridir» (Bu vəsiyyətlərdən bütün türklərin dünyası dərs almalı, bütün türkün bir mənəvi-dəyərə xidməti, bir əlifbaya, bir yazı dilinə, ortaq tarixi tədrisə, qədim türk adət-ənənələrinə və s. sahib olmalıdır).

«Vəsiyyətnamə»nin «Məxvi qalsın» bölməsində isə göstərilir ki, «Bundan əlavə cürbəcür tədbirlər etmək ki, Iran (bu Azərbaycana aiddir) ölkəsi günü-gündən pulsuz, ticarətsiz qalsın. Xülasə, Iranı həmişə tənəzzülə sövq edib, tabe halda

saxlamaq lazımdır ki, Rusiya dövləti istədiyi vaxt onu zəhmətsiz öldürməyə qadir olsun (həmin vəsiyyət Azərbaycana qarşı həmişə olduğu kimi indidə icratdadır). Amma, Türkiyə dövləti məhv olmadan Iranın canını almağımız məsləhət deyildir.

Gürcüstan ölkəsi Qafqaz xəttinin, yəni Iranın şah damarıdır. Rusiyanın təsəllüt nəştəri həmin damara yetişərsə, filfövr ürəyindən zəif qanı açılacaq və onu elə bihal edəcəkdir ki, min Əflatun dirilib gəlsə də onu islah eləyib sağalda bilməz. O vaxt, Iran ölkəsi Rusiya şahlarına dəvə kimi müti olacaqdır və Türkiyənin axırıncı şöləsi sönəcəkdir». (Elə bu səbəbdən də Mesxeti türklərini, Azərbaycan türklərini və digərlərini də Gürcüstandan sıxışdırır və çoxalmalarına imkan vermirlər).

Maddi ehtiyaclar zonası olan Türkiyənin işini qurtardıqdan sonra Iranı çətinlik çəkmədən məhv etmək və başını kəsmək mümkündür. (Buda Azərbaycana aiddir, xüsusən parçalanmış Azərbaycana). Ona görə də siz fövt etmədən Gürcüstanı və Qafqazı zəbt və işğal edib, Iranın (Azərbaycanın) daxili hakimlərini özünüzə xadim və müti ediniz. Ondan sonra Hindistana qəsd etməli. O məmləkət çox böyük və geniş bir ticarət yeridir. Oranı ələ keçirmiş olsanız, Ingiltərə vasitəsi ilə hasil olunan pul və gəlir əvvəlkindən çox Hindistandan ixrac olunar.

Hindistanın açarı Türkiyənin paytaxtıdır. Nə qədər bacarırsınız Qırğız, Xivə və Buxara səhrələrı tərəfindən irəliləyin ki, məqsədiniz sizə yaxınlaşsın. Vaxt itirməyin, eyni zamanda tələsmək və əcələ yetməkdən imtina edin.

Türkiyəni Avropadan ayırmalı, (300 il bundan öncə Türkə qarşı yürüdülmüş siyasət hələdə öz bəhrəsini verməkdədi) bu şərtlə ki, Avstriya bu yoldaşlıqdan fayda hasil edə bilməsin. Bu işdə iki yol var – biri Avstriyanı başqa bir tərəfdə məşğul etmək, biri də Avstriyaya Türkiyə torpaqlarından bir parça vermək ki, onun geri alınması asan olsun».

<u>10-cu bənd:</u> «Yunanlarla sülh və dostluqla rəftar etməli. (ruslar bu vəsiyyətə 300 ildir ki, əməl edirlər). Müharibələr zamanı onlar sizə imdad edərlər (Türklərə, müsəlmanlara qarşı bütün vuruşlarda Rusiya ilə Yunanıstan bir yerdə olmuşlar)».

11-ci bənddə deyilir: - «Isveç, Norveç, Türkiyə və Iranı, Polşanı istila etdikdən sonra Italiya və Fransa ilə müttəfiq olub, əlaqəyə girin. Əgər onlardan heç birisi dostluğunuzu qəbul etməzlərsə, onda bir vasitə ilə o yer və əyalətləri məhv ediniz. Bu yerləri ələ keçirdikdən sonra dünya hökmranı olarsınız». I Pyotrun dediyindən belə çıxır ki, ruslar ancaq istila ilə məşğul olmalıdır, bütün dövlət və xalqları məhv etməlidir. «Vəsiyyətnamə»dən belə məlum olur ki, bu insan çox Allahsız, qəddar və bütün dünyanı məhv etməyi düşünürmüş. Hətta öz məmləkətində də din xadimlərinin və sadə adamların qanını axıtmaq bunun əsas məfkurəsi olmuşdur, Allahı tanımamış, allahlıq iddiasında olmuşdur. Allaha qurban olum, onu tanımayana, yolunu saxlamayana min lənət olsun. Allah – Talada onu 54 yaşındaykən elə bir dərdə düçar etmişdir ki, Pyotr uzun müddət yatağında da xəstəliyini keçirdə bilməmiş, gecə-gündüz bağıraraq vargəl edirmiş, heç kim onun xəstəliyinə çarə qıla bilmirmiş, ailə üzvlərində təngə gələrək ondan üz döndərmişlər. O, ömründə fikirləşə bilmirmişki, məhv etdiyi xalq kütlələrinin heç kimin qarşısında günahları yoxdur. Əgər, bu insan müsəlmandırsa, bu da tək Allahı tanıyır, ona sitayiş edir və heç də xristianların məhvini istəmir, müsəlman daha mütərəqqi dinə xidmət edəndir, Islam bütün dinlərin sonudur, Peyğəmbərləri isə insanlar yox, Allah seçir. Allah həm də insan şüurunun dövrünə uyğun müqəddəs kitab-inaclar göndərir, yəni əslində din elə yek dindir, tək dindir, məqsəd – məram eynidir, amma dövrünə uyğundur və digər canlılardan fərqli olaraq insanların şüur səviyyəsinə, əldə etdiyinə, edə biləcəyinə uyğun inaclar hasil edir və bu dinin axırıncı məqsədi – məramı insan kamilliyi mərhələsidir ki, bu da müqəddəs kitab, Qurana inamdır.

Allah, öz sifarişini, Quranda deyilənləri Mühəmməd (Ə.S.) vasitəsi ilə təkcə bu günkü müsəlmanlara deyil, bütün insanlar üçün göndərmişdir və mən tam əminəm ki, heç bir pyotrlardan asılı olmayaraq, axır-əvvəl hamı eyni dinə qulluq etməklə tək allahlığı qəbul edəcək, dini parçalamayacaq, məzhəblər mövcudluğunu itirəcək, qədim türklərdə olduğu kimi səhər

yuxusundan oyananlar əlini göylərə uzadaraq öz Tanrısına tapınacaq, sidq ürəkdən sitayiş edəcəkdir.

12-ci bənddə Pyotr deyir: - «Əgər yuxarıda qeyd olunan ölkələrdən biri müharibəni qəbul etməzsə, elə bir tədbir görmək ki, bu iki hökumətin (Italiya və Fransa) arasında fitnə-fəsad vaqe olsun. Bu vəchlə get-gedə onlardan biri aradan götürülüb bərbad olar. Qalmış hökumətləri tərac edib, zəhmət çəkmədən bütün Avropa üzərində hökmranlıq edərsiniz. Işin axırında sair ölkələrin hamısını öz məmləkətinizə ilhaq edib, bütün dünyaya sahib olarsınız». Sözün həqiqi mənasında burada «Allah ağıl versin» kəlamı xatırlanmalıdır. Ruslar bu iyrənc «ideyalar»dan indidə əl çəkməyib. Işin gedişatı göstərir ki, ruslar həqiqətən Azərbaycanı tam məhv etmək, erməniləşdirmək və bu torpaqları öz idaətində saxlamaq fikrindədirlər.

Qeyd edək ki, Tanrıçılıqla mübarizədə əsas məqsəd onun yaxşı nəyi varsa mənimsəməkdən çox, türklərə qarşı, onların gücünə-qüdrətinə qarşı, dövlətçiliyinə qarşı, əldə etdikləri müvəffəqiyyətlərinə qarşı və yaşadıqları münbit-məhsuldar torpaqlarına qarşı idi. Bunların ən böyük təşkilatçıları ayrı-ayrı xristian məzhəbəli dövlətlərin siyasi və dini rəhbərləri, Iudizmin kölgədə qalmasını istəməyən yəhudi din xadimləri, onların dünyanın hər yerinə səpələnmiş və bu işdə maraqları olan diaspora qruplaşmaları idi və bu istək indidə fəaliyyətdədir. Əgər, yeni eranın 7-ci yüzilliyinə qədər buddist, iudist, xristian dini-mənəvi dəyərlərin bir çox nümayəndələri və güclü qurumları (dövlətləri) türk, turan və onların ayrı-ayrı imperiyalarına qarşı fitnə-fəsad törədir və təşkil edirdilərsə, türklərin əksəriyyətinin Islam dini-mənəviyyatını qəbuldan sonra bu təzyiq dahada çoxalmışdır, bunlara hazırda da tez-tez rast gəlirik. Ədalət naminə deməliyik ki, Islam zühur edəndən günümüzə qədər bu dini qəbul etmiş bütün xalqlar ayrı-ayrı vaxtlarda bu və ya digər tərzdə çox böyük əzab və iztirablar çəkmişlər və belə lüzumsuz iztirablar hazırda da davam etməkdədir. Islam dünyasına qarşı yönəlmiş bütün məsələlər yaşadığımız zamanda daha çox şüurlu və planlı surətdə siyasi-iqtisadi hegemonluq və qısqanclıq zəminində özünü daha kəskin

göstərir. Amma, Islami dəyərlərlə yaxşı biliklənmiş insanlar hansı mənəvi dəyərlərə xidmət etməsindən asılı olmayaraq ən azı islamçı olur, onu olduğu kimi də təlqin edirlər. Islami dəyərlərə diqqətlə yanaşılarsa, məlum olar ki, çox böyük şəbəkədə o düzgün yayılmır. Təbii ki, ya qəsdən, yaxud onu bilməməzlikdən. Çoxu belə başa düşür ki, Islam guya çox cavan və təzə bir dindir. Yaxud, bəziləri hətta yazırlar ki, müsəlmanlar «Qara daşa» səcdə edirlər və Isa, Musa peyğəmbərləri qəbul etmirlər. Əlbətdə, əsl həqiqətdə bu belə deyildir. «Islam» - ərəb sözü olub, dinin adını bildirir (ərəbcə) və dinə çağrışı bütün peyğəmbərlər etmişlər, heç bir mərhumiyyətlərdən çəkinməmişlər. Islam da mələklər (angel) dinidir, insan yaranışından əvvəl mövcudluğu var.

Peyğəmbərlər – xüsusi insanlar olmaqla, Allahın seçimi olub, onların vasitəsi ilə öz kəlamlarını insan cəmiyyətinə çatdırır. Peyğəmbərlər insanları Tək Allaha inanmağa, səcdə etməyə çağırırlar (qədim türkün Tanrıçılığında olduğu kimi), onun «Qanun»ları ilə yaşamağa səsləyirlər. Onun «Qanun»u, Allahın «Qanun»u ərəbcə «Şəriət» adlanır, və insanları Islama çağırır.

Peyğəmbərlər müxtəlif vaxtlarda, müxtəlif xalqlardan və axırıncı Peyğəmbər Mühəmməd milliyətcə ərəbdir. Bu səbəbdən də hazırda islamla bağlı bir çox söz və terminlər ərəb dilində bütün dünyada yayılmışdır. Məsələn: halal – yəni icazə verilən, haram – qadağan edilən, Islam, Şəriət və s.

Islam dininin əsasını – dini inanc təşkil etməklə, o dəyişməzdir, yəni başqa «xəyala» düşmək qeyri məqbuldur. Onun əsasında ilk olaraq Tək Allaha inanmaq, Onun Peyğəmbərinə, Mələyinə, Səma Kitabına, Taleyə inam dayanır.

Şəriətin (Qanunun) əsasında isə Allah tərəfindən göndərilmiş qayda və qanunlara, qadağa və icazə verilənlərə yiyələnməklə, Onun dəyərlərinə əməl etmək dayanır.

Bütün zamanlarda – bütün Peyğəmbərlər eyni inaca qulluq etmiş, vaxtdan asılı o dəyişməmişdir. Fərq, ancaq müxtəlif zamanlarda müxtəlif şəraitdə yaşamaqla bağlı qanunlardakı fərqlərdir. Müsəlmanların inancı ancaq dini biliklərə əsaslanır, hissiyyat və həyacanlara əsaslanmanı qəbul etmir, ancaq

tərəddüdsüz inama əsaslanır. Mühəmməd (Ə.S) Peyğəmbər demişdir: - «Mənim dilimə gətirdiyim ən qiymətli söz – Ilahi Illəllah»dır – yəni Allahdan başqa Allah yoxdur». Allah sözü də ərəb sözü olub, Azərbaycan türkcəsinə Tanrı sözünün müqabilidir. Islama görə Allah yeganə yaradıcıdır (türkün Tanrıçılığıda eləcə dərk edilmişdir), Yerin, Göyün, Kainatın yaradıcısıdır. Allah Yerin, Göyün, zamanın və s.-nin yaradıcısı olsa da özü bunlarla əlaqəli deyildir, bu və digər səbəblərdən O, sonsuz yaşardır, dəyişməzdir. Allahın hes kimə, heç nəyə oxşarlığı yoxdur, onun varlığı təsəvvürü ağıla sığmazdı, təsəvvür edilməzdir, hər şeyi biləndir, hər şeyə qadirdir. Bu inacları qeyd – şərtsiz bütün Peyğəmbərlər demişlər və bilmişlər. Insanlığın yaranma tarixindən günümüzə qədər təxminən 124 min Peyğəmbər olmuşdur. Birinci Peyğəmbər Adam, sonuncu isə Mühəmməd Peyğəmbər olmuşdur (Salam olsun onlara). Digər məlum Peyğəmbərlərdən Musa (Moisey), Isa (Iisus), Ibrahim (Avraam), Nuh (Noy), Daud (Davud), Süleyman (Solomon) və s. bunların hamısı müsəlman olmuşlar, hamısı eyni inaclı olmuşlar, hamısı tək Allaha inanmağa, ona səcdə etməyə, baş əyməyə çağırmışlar. Bunlar arasındakı fərq əvvəldə dediyimiz kimi ancaq şəriətdə (Qanunda) olmuşdur. O, isə bu şəriətlərin müxtəlif zamanlarda, müxtəlif dövrlər üçün nəzərdə tutulması ilə səciyyələnir.

Insanlara yeni (təzə) Şəriət (Qanun) çatdıran Peyğəmbərlər isə hamılıqda 313 nəfər olmuş elçilər, göndərilənlər adlanırlar. (Əlbəttə, Allah tərəfindən).

Zaman-zaman insan yaşayışı tarixində Allah haqqında olan həqiqi biliklər olduğu kimi yayılmamış, qeyri dəqiq məlumatlar verilmiş və Islamdan uzaqlaşmalar da olmuşdur. Bu səbəbdən də bəzi Peyğəmbərlərin üzərinə düşən vəzifə, missiya Islam dininin yenidən qərarlaşması olmuşdur. Inanmayanlara inac gətirən birinci Peyğəmbər Nuh (Noy) Peyğəmbər (Nuh Nəbi) olmuşdur (salam olsun onun Nur Camalına). Belə bir missiyanı, vəzifəni, seçimi Allah Taala Isa (Iisus) və Mühəmməd Peyğəmbərlərə də həvalə etmişdi (onlarında Nur Camalına salamlar olsun).

Isa (Iisus) Peyğəmbər heç vaxt özünü Allah və ya Allahın oğlu adlandırmamışdır. O da özündən əvvəlki Peyğəmbərlər kimi insanları tək Allaha inanmağa, ona səcdə etməyə, inac gətirməyə çağırmışdır. Allah Isanın (Iisusun) anası Məryəmi (Mariyanı) başqa qadınlardan fərqləndirmişdir, kişinin iştirakı olmadan ona uşaq bəxş etmişdir. Məryəm (Mariya) də müqəddəs qadın olmaqla, bütün qadınlara nümunə bir anadır, (Onada salamlar olsun) Allahın seçdiyidir.

Allah birinci insanı – Ədamı (Adamı) və Həvvanı (Evanı) atasız və anasız yaratdı. Ədam heç vaxt körpəlik və gənclik dövru keçirmədi, çünki O. Allah tərəfindən torpaqdan böyümüş insan qiyafəsində yaradılmışdır. Həvvanı (Evanı) isə yenə də böyük vəziyyətində Ədamın (Adamın) qabırğasından hər şeyə qadir olmaqla Allah yaratmışdır. Məryəm (Mariya) də digər insanlar kimi ata və ana sayəsində dünyaya göz açmışdır.

Bir çoxlarının fikirləşdiyi kimi Mühəmməd (Ə.S.) heç bir yeni din yaradıcısı olmamışdır, əksinə O, dini yenidən bərpa etmiş, Ədamdan (Adamdan) Isaya (Iisusa) qədər mövcud olmuş Allah göndərişlərini tamlığı ilə insanlara çatdırmış, Islama səsləmiş, insanları Allah göndərdiyi yola qayıtmağa dəvət etmişdir.

Müsəlmanlar bütün peyğəmbərləri sevməyə, qəbul etməyə borcludurlar və Allahın göndərdiyi axırıncı Şəriət qaydalarına düzgünlüklə riayət etməlidirlər, çünki bu Allahın göndərişi, onun iradəsinin təzahürüdür. Bu səbəbdən də Mühəmməd (Ə.S.) Peyğəmbərin gətirdiyi Şəriətə bütün müsəlmanlar əməl edir və O Işıqlı Dünyanın sonuna qədər dəyişməz qalacaqdır.

Şəriksiz Allahın, hər şeyə qadir Allahın müsəlmanların boynuna qoyduğu tələblərə uyğun əməllərinə görə, onları nə dərəcədə yerinə yetirmələri müqabilində o Dünyada qiymətləndiriləcəklər, hər kəs yaşadığı Işıqlı Dünyadakı əməllərinə görə öz yerini tutacaq, layiq olduqlarını alacaqlar.

Allaha inam, onun elçisi Mühəmmədə inam, bu inacın əsasını təşkil edir. Çox təəssüflər olsun ki, həmişə – hər yerdə, heç də bütün müsəlmanlar bu qaydalara tam əməl etmir (məsələn Namaz). Islam həm bu dünyada və həm də o biri

dünyada, Işıqlı Dünyanın sonunda, Cənnətdə müsəlmanlara xoşbəxtlik gətirən dindir.

Islamı qəbul etmək heç də mürəkkəb, çətin bir iş deyildir, çox vaxt və xüsusi yer tələb etmir. Müsəlman olmaq üçün, Islamı qəbul etmək üçün ona ürəkdən tam inac olmaqla – Allahın təkliyinə, onun elçisi Mühəmmədə inanmaqla «lə Ilahə illəllah, Mühəmmədün Rəsulillah» kəlamını ərəbcə demək kifayət edər. Kəlamı ürək qəbul etməli, dil-dilə gətirməlidir, heç kimin Şahidliyinə ehtiyac yoxdur. Bu işdə, Islamı qəbul etməkdə də insanlar gecikməməli, başa düşməlidirlər ki, heç kim neçə il, neçə ay, neçə gün yaşıyacağını bilmir, nə qədər tez qəbul edərsə o qədər də onun özü üçün bir çox günahlardan uzaq olar.

Islamı qəbul etmək üçün vacib deyildir ki, onu mükəmməl biləsən. Vacibi odur ki, Allahla öz arasını düzgün, pak saxlasın. Müsəlmançılığı qəbul etdikdən sonra isə ən azı onun üçün vacib olan qədər Şəriəti öyrənməlidir, ikinci həyata hazır olmalıdır. Bu söylənilən qısa məlumatı bilməyən və ya bilmək istəməyən bəzi Avropa, Rusiya və digər ölkə vətəndaşları Islam Şəriətinə iftiralar yağdırmaqla məşğuldurlar və əslində qərəzçiliklə məşğuldurlar. 2008-ci ilin may ayında ABŞ əsgəri Allahın bütün insanlara göndərdiyi səma kitabı olan axırıncı müqəddəs kitaba – Qurana atəş açmışdır.

Danimarka mətbuatında Mühəmməd (Ə.S.) Peyğəmbərin mövcud olmayan eybəcər şəklini çəkmişlər ki, buda müsəlmanların haqlı narazılığına səbəb olmuşdur. «Izvestiya» qəzeti isə Qurana qarşı iftiralar yağdıran 15 dəqiqəlik «Fitnə» adlı filmin Hollandiyada yayılmasını çap etmişdir. Filmin yaradıcısı Hollandiya parlamentinin deputatı, «Azadlıq» partiyasının rəhbəri Qeert Vildersdir. Elə bu insan (ona insan demək olarsa) Qurana «faşist kitabı» adını qoymuşdur. Vilders Quranı Hitlerin «Mayn Kampf»ı ilə eyniləşdirmişdir. O, Islamı «cəhalətə yuvarlanmış mədəniyyət» hesab edir, Avropa qitəsini başına alacaq «islamlaşma sunami»si olduğunu söyləmiş, Qurana Avropada «Mayn Kampf» kimi qadağa qoyulmasını istəmişdir. Film televizorda göstərilməsə də «Yu-Tyub» kanalında internetdə göstərilmişdir. «Izvestiya» qəzetinin

müxbiri D.Voskoboynikovsa qeyd edir ki, «Danimarkada dərc olunan karikaturalar bu filmlə müqayisədə miqyasca çox kiçik görünür». ITAR-TASS-ın yaydığı məlumata görə, bu film Islam dünyasında çox ciddi qarşıdurma yarada bilər. NATO-nun baş katibi də məsələ ilə bağlı narahat olduğunu söyləmişdir.

Bu hadisələrin başlanğıcını isə 2002-ci ildə Avropada Pim Fortaynı olmuşdur.

Vilders bəyanatında – «Hollandiyada qalmaq istəyən müsəlmanlar Quranı iki parça edib tullamalıdır» bəyanatında səsləndirmişdir. Islama qarşı beləcə ədalətsiz mövqe tutan və özünü «sivil Avropa» sayan insan və dövlətləri görəndə, istər istəməz Avropanın Xristian yürüşləri, Böyük Fransa inqilabı zamanı qətlə məhkum edilənlərin başını bədəndən ayıran gilyotin, papa IV Sergiyin müqəddəs torpağı və Allahın məzarını kafirləridən qurtarmaq çağırışı ilə Şərq Şəhərlərini bir-birinin ardınca viran qoyan Fransa, Almaniya, Ingiltərə və Italyanın beş xaç yürüşü yada düşür. Yaxud, Brokqauzun 1892-ci ildə dərc etdiyi ensiklopediyada deyilir ki, Avropanı təmsil edən xristian ordu hissələri 15 iyun 1099-cu ildə Yerusəlimi işğal edərkən «şəhərin dinc müsəlman əhalisi arasında ağlagəlməz qırğın törədildi» kəlamı xatırlanır. Rusiyadakı dazbaşların ölkənin bir çox şəhərlərində başqa millətlərin, xüsusən müsəlmanların, Qafqazlıların başlarına gətirilənlər göz önünə gəlir.

Yada salaq və bu əqidəli insanlara xatırladaq ki, hələ indiyə qədər hər hansı müsəlman ölkəsinin mətbuatında, yaxud Televiziyasında, filmlərində digər dinlərin, Şəriətlərin səcdə edilən elçiləri – Isa Peyğəmbər, Musa Peyğəmbər, yaxud Buddanın surətlərinə qarşı pis bir əməl edilməyib.

Azərbaycanın özündə, onun paytaxtı Bakı şəhərində bu yaxınlarda katolik kilsəsinin açılış mərasimi keçirildi. Mərasimdə Vatikanın dövlət katibi Tarçilmo Bertone də iştirak etdi. Vatikan rəsmisi öz çıxışında Azərbaycanı dini tolerantlıq nümunəsi adlanırdı. Bakıda xristian, yəhudi və katolik icmalarınını normal fəaliyyəti üçün hər cür şəraitin

mövcudluğunu dedi. Paytaxtda məscidlərlə yanaşı, kilsə və sinaqoqlar da sərbəst fəaliyyət göstərirlər.

Çox təəssüflər ki, bu tolerantlığı digər ölkələr, xüsusəndə xristian dini-mənəvi dəyərlərlə yaşayan heç bir ölkədə təsadüf etmək mümkün deyildir. Əksinə, ümumi dünya mənəvi dəyərlərə də əməl edilmir, irqçilik özünü bu tip ölkələrdə daha qabarıq göstərir.

Azərbaycan 1991-ci ildə öz müstəqilliyini XX əsrdə 2-ci dəfə elan etdikdən sonra çox məşəqqətlərlə üzləşmiş, ölkədə milli-mənəvi dəyərlərə uyğun, Azərbaycanın 1918-20-ci illərdə qəbul etdiyi üçrəngli bayrağın rəmzlərinə uyğun siyasət yürüdülmədiyindən, erməni təcavüzündən, xarici dövlətlərin tam əksəriyyətinin Azərbaycanda milli-mənəvi dəyərlərin məhvinə yönəldilmiş siyasət və s. nəticəsində Azərbaycanı tərk edən çoxlu miqdarda ali təhsilli, intelektli insanlar, əsasən də kişilər Azərbaycanı tərk etmişlər. Rəsmi statistik məlumatlara əsasən, Azərbaycandan xaricə gedən əməkçi miqrantların sayı 800 min nəfərdən çoxdur (qadın, uşaq, qoca buraya daxil deyil). Azərbaycandan əslində hər il orta hesabla 200 min nəfər əmək qabiliyyətli insan xarici ölkələrə üz tutur. 8 milyonluq Azərbaycan üçün bu rəqəm çox acınacaqlıdır. Bu vətəndaşlarımız əsasən Rusiya, Qazaxıstan, Türkiyə, Birləşmiş Ərəb Əmirlikləri, Almaniya və s. dövlətləri əhatə edir. Azərbaycandan miqrasiya edən insanların 97 faizi cavan, təhsilli, milli-mənəvi dəyərlərin əsas daşıyıcıları, siyasi dünya baxışlı olduqlarından bu hadisə ölkəmiz üçün çox böyük itkidir. Ancaq 2007-ci ildə təkcə Moskva şəhərində 200 min azərbaycanlı türkü qeydə alınıb. Təbii ki qeydsiz yaşayanlarda yetərincədir və bu şəhərdə Azərbaycan vətəndaşı kimi yaşayanlarımızın sayı bir milyona yaxındır. Əlbətdə, rusiya vətəndaşlığını götürmüş azərbaycanlılar bu siyahıda yoxdular. Deyilən qaydada Rusiyada yaşayanlarımızın ümumi sayı 2 milyondan çox, Ukrainada 500 mindən çox, Qazaxstanda isə 500 mini keçmişdir. Təəssüfləndirici hallardan biri də bu gedilənlərin yerini Banqladeş, Çin, Koreya, Filippin, Nigeriya, Hindistan, Əfqanistan, Iran, Iraq, Gürcüstan və s. ölkələrin heç

də savadlı olmayan, müxtəlif dini əqidəyə mənsub, xüsusəndə Azərbaycan milli-mənəvi dəyərlərinə yad insanlar tuturlar. Biz isə həmişə bu vəziyyətdən tarixən əziyyət çəkdiyimiz halda, indinin özündə də heç nədən dərs almırıq, toleranlıqla fəxr edirik. Beləliklə, dünyada ən ali milli-mənəvi dəyərlər sahibi Azərbaycan öz tarixinin uzun əsrlərə formalaşan bu gözəl dəyərlərini də torpaqları kimi itirmək üzrədir.

# IV BÖLMƏ
## Milyon faciələrimizdən biri.

Indi olduğu kimi keçmişdə də qədim hayların elmlərə, ağızdan-ağıza keçən nəğmələrə həvəsləri olmayıb. Ona görə də kəmağıl, nadan və vəhşi adamlar haqqında danışmaq artıqdır.

Moisey Xorenatsi

1955-ci ilin yaz aylarından biri idi. Camal bəyin oğlu Calal çox təntimiş halda bizəgəldi. Mən kiçik uşaq idim, atamla anam Bakıda yaşayırdılar. Ata nənəm Qaratel xanım Paşa bəy qızı kənddəki mülkümüzdə təkcə yaşayırdı. Atam onu Bakıya gətirmək istəsədə, nənə vətəndə öləcəyini söyləyirdi. Bu səbəbdən də məni nənənin yanına göndərmişdilər.

Cəlal atasının fikirini nənəyə çatdırdı. Belə ki, kəndə üç nəfər qonaq gəlmişdi, hökumət adamları idilər, onları yedirib-içirdib yola salmaq lazım idi. Camaat çox kasıb yaşayırdı. Qaratel xanım həmişə ehtiyyatlı olduğundan həmin dövrlərdə kənardan gələn qonaqları onun evinə gətirdilər, həm də o, çox səliqə-səhmanlı insan idi. Odur ki, qonaqlar gəldi, üç nəfərin biri rus idi. 2-si hərdən-hərdən onların danışığını 3-cüyə tərcümə edirdi. Çay süfrəsinə Camal kişidə gəlib çıxmışdı. Qonaqlar gedən kimi nənə Cəmal kişinin üstünə hirsli-hirsli deyindi və süfrədə qalmış bütün xörəklərin qalığını, çörəyi aparıb tökdü itin qabağına.

Camal kişi çox pərt olmuşdu. Nənə onun könlünü almaq üçün yeni süfrə açdı və yenə sözündən qalmadı. Digər tərəfdən qeyd etdi ki, Camal nə tez yadından çıxıb, əhvalatı qardaşım Əvil bəylə özün bizdə danışmısan. Nənə çox yaddaşlı adam idi və ona xoş gələn şerləri xüsusən Sarı aşığı tam əzbər bilirdi. Nənənin hirslənməyinin səbəbi üç nəfər qonaqlardan birini erməni olması imiş. Qardaşı Əvil bəylə Camal bəyin danışdıqları isə 1918-ci il yayın axırı və payızda erməni daşnakı, qulağı kəsik Andranikin Qərbi Azərbaycanda, Cənubi Azərbaycanda, Naxçıvanda və Zəngəzurda öz qoşunları ilə törətdikləri vəhşiliklərdən biridir. Hadisə indiki Laçın bölgəsində, Basarkeçərə-nisbətən yaxın olan torpaqlarda baş vermişdir. Qeyd edək ki, həmin dövrlərdə tarixən Qarabağ

xanlığına, Gəncə, Təbriz bəylərbəyliyinə daxil olan Zəngəzur parçalanmış, Arazdan cənuba olan torpaqlar Tehrana tabe idi, yuxarı hissə isə iki-üç hissəyə bölünmüşdü və Yuxarı Zəgəzura Hacısanlı, yaxud Hacıxanlı dərəsi adı verilmişdir. Qarabağın general-qubernatoru Xosrov bəyin qardaşı Sultan bəy Hacısanlı sahəsinin bəyi idi. 1918-ci ildə bu torpaqlarda ümumi vəziyyət də erməni basqınları səbəbindən acınacaqlı idi. Insanlar təsərrüfatları ilə məşğul ola bilmir, Aran Qarabağ elatının dağa çıxa bilməmələri ucbatından Qarabağın həm araninda, həm də dağında, yaxud Yuxarı Qarabağda ümumilikdə Zəngəzurda, o cümlədən Laçın bölgəsində vəziyyət ağır idi, heç yerdən də kömək yox idi. Orada silah, silahdan istifadə edəcək insanlar yetərincə deyildi. Qarabağlada əlaqə kəsilmişdi, Qarabağın qubernatoru ancaq Şuşa, Ağdam, Cəbrayıl və s. yerlərdəki faciələri yoluna qoymaqla məşğul idi və Zəngəzura kömək iqtidarında deyildi, qüvvələr yetərincə deyildi. Zəngəzurda isə tayqulaq isə Andranikin vəhşiliklərinin həddi-hüdudu yox idi. Sultan bəydə bu işlərin içində idi, bir tərəfi müdafiə edəndə 2-ci tərəfdən ermənilər tam silahlanmış güclü ordu ilə hücüm edirdilər. Insanlar da vahimə içərisində yaşayırdılar. Sultan bəy öz dəstəsi ilə Gorus-Laçın (Abdallar) – Şuşs yolunun müdafiəsində olduğundan istifadə edən ermənilər Qaragöl, Minkənd tərəfdən hücüma kecərək bir neçə kəndi viran qoymuş, insanları vəhşiliklə qətlə yetirmiş, girov götürmüş, insanların var-dövlətini, heyvanlarını aparmışdılar. Buraya köməyə gələn dəstə də, Camal bəy və Əvil bəy də var idi. Onların gördüklərini, söylədiklərini bir erməni vəhşiliyi Qaratel xanım Paşa bəy qızının yaddaşında qaldığından, erməniyə nifrətindən erməni qonağa məcburiyyət qarşısında açdığı süfrəyə görə də əsəbləşmişdi. Qeyd edim ki, Qaratel xanım qonaqların istifadə etdikləri bütün qab-qaşığı ayrıca yudu, dua oxudu, onlar əl dəydikləri hər şeyi haram saydı. Daşbulağa gedən dəstənin insanları əsasən Araflı, Alıqulu, Məmmədbağırlı, Bülöklük, Kişpəyələrikəndlərinin əli silah tutan bəyləri idilər. Ermənilər Daşbulaqda belə bir iz qoyub getmişdilər.

Daşbulaqda bir həyətdə kəndli əli silahsız kişini ağaca sarımış, cavan əliuşağlı gəlini növbə ilə ermənilər zorlamış, sonra qaynayan isti samovarı onun çılpaq kürəyinə sarımış, döşünün birini kəsərək

körpənin ağzına tıxamış, gəlinin əllərini sarıyaraq, ayağından sicimlə hörükləmişdilər. Gəlin hörükdən xilas ola bilməmiş, qaynar samovar onu öldürənə qədər hərəkətdə olaraq ah-nalə çəkmişdir. Anaya və bu kişilərə verilən cəzalardan biri də, bələkdə olan uşağı onların gözü qarşısında söyə-söyə nizəyə taxmış və nizənin ikinci tərərfini yerə basdırmaqla, nizəyə taxılmış körpə göydə qalmışdır. Sonra kişilərdən üçünün qolunu, ayaqlarını, başını ayrıca kəsərək bədənlərini ağaca sarınmış saxlamışlar. Dördüncü kişinin isə ayıb yerini kəsərək ağzına tıxamış, gözünün birini çıxarmış, sağ əlinin içinə atəş açmışlar.Köməyə gələn dəstə hadisənin bir anını özləri görmüş, bir hissəsini isə can üstə olan başa sala bilmişdi.

Hadisə bütün dəstəni çox pəcmürdə etmiş, hətta çox möhkəm kişi hesab edilən Camal bəy də hönkürtü ilə ağlamışdı.

Həmin ərəfədə Sultan bəy Azaflıda Alməmməd Sultanın (Zəngəzurun sultanı) nəvəsi Məşədi Həmid bəyin evində idi və özünü müdafiə dəstələri düzəltməklə məşğul idi. Bu kənd həm də ermənilərin hərəkətlərini həm izləmək və həm də onlardan müdafiə olunmaq üçün çox münasib bir yer idi. Hadisəni olduğu kimi bilən Sultan bəy göstəriş verir ki, gəlinə, uşağa və kişilərə heç nə etmədən, necə var eləcədə gətirsinlər Araflıya (Alaflı). Sultan bəy Məşədi Həmid bəyin tövləsinə ermənilərlə döyüşdən yayınan xeyli adamda saldırmışdı. O, meyitlərə bir-bir diqqətlə baxdıqdan sonra göstərir ki, fərariləri Məşədi Həmid bəyin xırmanının ətrafına dairəvi şəkildə düzsünlər. Sultan bəylə onun bir neçə dəstə başçısı fərarilərin qarşısına çıxırlar, Məşədi Həmid bəylə əlində ipək parçaya bükülmüş  Quranla birlikdə Sultan bəyin sağında dayanır.Sultan bəy fərarilərə müraciət edərkən deyir ki, mən sizə heç nə demiyəcəm, heç bir cəzada nə indi, nədəki gələcəkdə verməyəcəm, inanmasanız Məşədi Həmid bəyin Quranına da and içəcəm. Amma indi sizlərə bir şey göstərəcəklər baxıb dağılışarsız evlərinizə. Sultan bəy göstəriş verir ki, o kilimlə cecimi gətirin qoyun bəyin xırmanının ortasına. Elə də edirlər.Ətrafdakı insanlar döşü kəsilmiş, kürəyində samovar və nizəyə taxılmış bələk uşağı gördükdən sonra çox pis hala düşürlər və bir-bir Sultan bəyə baş əyərək Məşədi Həmid bəyin əlindəki Qurana əl basaraq and içirlər ki, bu qan yerdə qalmayacaq, hamı bir nəfər kimi ölənə qədər

döyüşəcəklər. Bu hadisə bütün təfərrüatı ilə Hacısamlıya, Yuxarı Zəngəzura yayılır. Hadisədən sonra bir çox insanlar öz xoşları ilə Hacısamlı özünümüdafiə dəstələrinə qoşuldular və Bülövlük bəylərindən Müseyib bəy və bir neçə bəylə Sultan bəyin tövsiyəsi ilə silahdan istifadə etməyi də onlara öyrədirlər. Daşnak Andranikin qoşunlarının kifayyət qədər silahları o cümlədən torpaqları da var idi. Sultan bəy bunu bilirdi və hətda qardaşından da yardım ala bilmədiyindən, əsir götürülmüş bir türkiyəli zabit ermənidən istifadə etmişdir. Top və iri çaplı silah almaq üçün kömək lazım olduğundan xəbər tutan imkanlı insanlar Sultan bəyin özünümüdafiə dəstəsinə kömək etməyə başlayırlar. Qaratel xanım danışardı ki, Sultan bəyə bir "ətək" qızıl-gümüş verdik ki, top ala bilsən. Sonradan Qaragöldə qoyulan həmin topdan Andarnikin qoşunlarının Laçın səhərinin ətəyindəki Zabux çayından məhv edənə qədər Goruş şəhərinin (Zəngəzur mahalının mərkəzi şəhəri) nəzarətdə saxlamaq mümkün olmuşdur.

Həmin vaxtlarda, yəni aşağı Zəngəzurda 1918-ci ilin yayın axırı və payızda adamların başlarına gətirilən faciələri isə Azərbaycan Fövqəladə Tədqiqat Komisiyasının Gəncə Quberniyasında olan Cavanşir, Şuşa, Cəbrayıl və Zəngəzur qəzası üzrə müsəlman kənd və insanlarının ermənilər tərəfindən başlarına gətirilən faciələri araşdıran komisiyanın üzvi Mixaylovun üsdən-üsdən tərtib etdiyi bütün faciələri tam əks etdirməyən məruzəsindən izləyək.

O, yazır: "Hazır ki, mərüzədə Sizə Qarabağın Cavanşir, Şuşa, Cəbrayıl və Zəngəzur qəzalarında baş vermiş faciəli bədbəxt hadisədən məlumat verəcəyik. Deməliyik ki, oktyabr 1918-ci ikə kimi Azərbaycan Respublikasının Bakı, Quba, Şamaxı, Lənkəran və s qəzalarında ermənilərin yerli müsəlman əhalisinə verdikləri dəhşətli qırğınlar azalsa da Gəncə quberniyasının dörd qəzasında yəni Cavanşir, Şuşa, Cəbrayıl və Zəngəzur qəzalarında bu faciələr hələ də davam etməkdədir. Bu qəzalarda insan təfəkkürünə sığışmayan vəhşilikləri yerli ermənilərlə yanaşı Irəvan quberniyasından gələn ermənilər və silahlı əsgərlər, Türkiyə vilayətlərindən gətirilmiş silahlı ermənilər, böyük silah-sursata malik general Andranikin rəhbərlik etdiyi nizami erməni qoşunları və bu torpaqları, onun insanlarını, Erməni Respublikasına tabe

etmək istəyən və erməni hökumətinin təşkil etdiyi erməni hərbi birləşmələri törətməkdə davam edirlər. (biz burada ancaq Zəngəzur faciələrindən kiçik bir hissəni veririk). Zəngəzur qəzası hazırda dediyimiz dörd qəzadan daha da ağır vəziyyətdə olandır. Belə ki, ermənilər Zəngəzuru Cəbrayıl və Şuşadan ayırırlar və hiss edirlər ki, onlar silah-sursatdan, əsgəri qüvvədən müsəlmanlarla müqayisədə çox üstündürlər və bu imkandan bəhrələnərək Zəngəzurun kəndlərini yandırmaq, qarət etmək, insanlarını məhv etməklə torpaqları ələ keçirmək niyyətindədilər. Bununla yanaşı general Andranik Erməni hökuməti ilə birləşərək, Ermənistan hökumətinin imzaladığı direktivi də əsas sənəd kimi müsəlman kəndlərini boşaldılaraq onlara tabe olmağı tələb edirlər.Savadsız kənliləri aldadaraq toparlayıb vəhşiliklə məhv edirlər, guya xristianlığı qəbul etdirmək məqsədi ilə məscidlərə yığaraq yandırırlar. Onlar müsəlman kəndlərin bir-biri ilə əlaqəsini kəsdiyindən heç yerlə əlaqələri yoxdur, onları müdafiə edən qüvvələrə malik deyillər, əhalinin özü silahsızdır. Ermənilər öz respublikalarının torpaq sahələrini genişləndirmək üçün hətda öz evlərini malını-mülkünü ataraq qaçanlara da aman vermir boş evləri belə tam yandırmadan əl çəkmirlər. Hazırda ancaq Oxçu kəndi mərdliklə özlərini bu vəhşilikdən qoruya bilmişlər. Müsəlman kəndlərində Sisyan mahalında 1-ci polis sahəsi, 2-ci sahənin əksəriyyəti, 3-cü,4-cü və 5-ci polis sahələrinin isə xeyli hissəsi tam məhv edilmişdir. Ermənilər tutduqları bu torpaqlarda hətda təcili müəyyən əkin işləri də aparırlar. Bu kəndlərdən olan əhalinin sayı 50.000 mindən çox olan və sağ qalmış müsəlmanlardır ki, onlar da Cəbrayıl qəzasının 4-cü sahəsində acınacaqlı vəziyyətdədilər.

Tərtib olunmuş sənədlərə adı düşmüş və ermənilər tərəfindən tam məhv edilmiş kəndlər Aşağı zəngəzur üzrə 115 olmaqla adları aşağıdakı kimidir:

1) Ağdü, 2) Dərəbəs, 3) Dulus, 4) Qurtlar, 5) Şəki, 6) Urut, 7) Vağıdu, 8) Irmis, 9) Bəhrəli, 10) Qızılcığ, 11) Dərəkənd, 12) Qarakilsə, 13) Məlikli,14) Dördlər, 15) Novruz, 16) Qaradığa, 17) Oxtar, 18) Çobanlı, 19) Kədəyül, 20) Çullu, 21) Şəbəddin, 22) Almalıx, 23) Çanaxçı, 24) Cibili, 25) Ağkənd, 26) Turabxanlı, 27,

Qurudlu (Qulud), 28) Bəkdaş, 29) Incivar, 30) Süznək, 31) Qaraçimən, 32)Qatar, 33) Seyidlər, 34) Xələc, 35) Daşnov, 36) Baydaq, 37) Noraşen, 38) Cicimli, 39) Qıyıqyal, 40) Həmərat, 41) Dərizli, 42) Qazançi, 43) Əyyublu, 44) Təkəmir, 45) Tey, 46) Atkis, 47) Şərikən, 48) Dolutlu, 49) Avqanlı, 50) Təhzəvər, 51) Mac, 52) Birinci Xocahan, 53) Əmizli, 54) Buxaqar, 55) Mülk, 56) Bənövşəli, 57) Birinci Vərtənəzər, 58) Ikinci Vərtənəzər, 59)Lehvəz, 60) Əlidərə, 61) Mərdigid, 62) Tuğut, 63) Pişənl (Bişənli), 64) Razidərə, 65) Məmməd Ismayıl, 66) Hümən-Dənli, 67) Tatarkənd, 68) Kəlqışlaq, 69) Zəmlər, 70) Əskərlilər, 71) Qaragöl, 72) Çuxur-yurt, 73) Nəcəflər, 74) Qarakəlli, 75) Şəfili, 76) Birinci Qayagölü, 77) Ikinci Qayagölü, 78) Burunlu, 79) Burcalılar, 80) Gün-Qışlaq, 81) Cənbər, 82) Xırdakişlilər, 83) Tuafşalı, 84) Şirəkən, 85) Qazançı, 86) Qaralar, 87) Qəməran, 88) Xotanan, 89) Oxdarlı, 90) Xudayarlı, 91) Şəkərli, 92) Qılıclı, 93) Təznəli, 94) Nüvədi, 95) Tuğlu, 96) Baharlı, 97) sənəli, 98) Səfi-yurd, 99) Kürkülü, 100) Cətirisi, 101) Pirveysli, 102) Məşədi Ismayıllar, 103) Bürcələr-Dərzili, 104) Sübüklü (Sümüklü), 105) Məzməzək, 106) Tazıqurdalı, 107) Fəracan, 108) Suarasu, 109) Bayramuşağı, 110) Köhnəkənd, 111) Göyqışlaq, 112) Zabux, 113) Bayandur, 114) Bağırbəyli, 115) Kərəvüz-Abdallar və s.

Bu qəzanın bizə məlum olan və ermənilər tərəfindən tam yandırılaraq yer üzündən silinən kəndlərinin siyahısıdır. Bundan başqa ermənilər 3-5 tüstüdən ibarət olan 10 yaşayış məskənlərini də bir yolluq məhv etmişlər ki, o yerlər dövlət reyestrinə (siyahısına) qeydə düşməyənlərdir.

Sadaladığıməz yuxarıdakı kəndlər və bizə məlum olmayan digər kəndlər ermənilər tərəfindən tam yandırılıb, insanların ev əşyaları aparılıb, mal-qara, qoyun-quzu, at-dəvə qovularaq aparılıb, torpaqlar daşnaklar tərəfindən tutulub və hazırki dövrə kimi sağ qalmış müsəlmanların oraya gəlməsi mümkün deyil.

Bu qısa məruzədə hər bir kənddəbaş vermiş cinayətləri ayrı-ayrılıqda hansıki, ermənilər dinc əhalinin başına açmışlar saymaq mümkün deyil, onların miqdarı həddindən ziyadə çoxdur. Amma, ermənilərin müsəlman kəndlərindədinc müsəlman əhaliyə verdikləri qəddarlıqlar, vəhşiliklə edilən qətilləri, qətillərin sayını

hər bir kənd üzrə əhatəli tərzdə bütün qəza üzrə akt tartib etməklə sənədlərə əlavə ediləcəkdir. Burada yalnız çox böyük qəddarlıqla ermənilərin dinc müsəlman əhaliyə verdikləri və bizə məlum olan cinayətləri öz əksini qısa halda tapacaqdır.

Adları söylənən kənddə erməni vəhşiliklərinin qurbanı olmuş insanlardan 3257 nəfəri kişi, 2276 nəfəri qadın, 2196 nəfəri uşaq olmaqla yaralananlardan 1060 kişi, 794 qadın, 485 uşaqlar olmuşlar. Ölənlərin ümumi sayı 10068 nəfərdir. Amma bu rəqəmlər insanlıqdan kənar, vəhşi ermənilərin törətdikləri ölüm hallarını tam əks etdirmir. Əsil həqiqətdə dinc müsəlman əhalisinin erməni cəlladları tərəfindən törətdiyi ölümlərin miqdarı siyahıda göstərilənlərdən orta hesabla 5-10 dəfə coxdur. Bunun da səbəbi ermənıərin dinc müsəlman əhalini öldürüb, yaxud diri-diri quyulara, xəndəklərə töküb üstünü basdırmaqları, coxlu sayda əhalinin məsciddə, tövlələrdə və digər yerlərdə yandırmaqla izin itirilməsi, erməni silahlılarının basqını zamanı qaçanların müxtəlif yerlərdə öldürülməsidir ki, bu qəbildən öldürülən insanların miqdarı, soyadları və s. məlumatlar bizim tərtib etdiyimiz sənədə düşməmişdir. Insan şüuruna, əxlaqına və mənəviyatına sığmayan ən böyük alçaqlıqlar törədən erməni cəlladları hadisə törədərkən şahid olmuş müsəlmanların dediklərindən və bizim özümüzə göstərdikləri hadisələrdən bir neçəsini qeyd etməyi gələcək tarix üçün özümüzə borc bildik. Beləliklə;

1) Bağudu kəndində erməni əsgərləri kənddən 15 gözəl qız seçərək onları zorlayaraq bakirəlikdən məhrum etmiş, döşlərini kəsməklə saçlarını qırxmaqla, əl-qollarını kəsməklə, ayıb yerlərinə nəyisə pərçim etməklə başlarını kəsməklə, qarınlarını cırmaqla, dərilərini soymaqla, kənd əhalisinin qarşısında məhv etmişlər.

2) elə həmin Bağudu kəndində 400 nəfər kişini, qadını, uşağı, qocanı ermənilər məcburən məsciddə yığaraq qapıları bağlamış, əvvəlcə məscidin pəncərəsindən içəri bomba atmış, sonra isə məscidə od vuraraq əhalini hamsını külə döndərmişlər.

3) Müsəlman Qədəm Tahir qızını xəncərlə başını, qollarını, ayaqlarını kəsmiş qarnını cırmışlar. Bundan ürəkləri soyumayan ermənilər həmin qadının kiçik döşəmən körpəsinin qarnını xəncərlə cırmış, anasının döşlərini kəsərək – kəsilmiş döşləri

uşağın cırılmış qarnına, digərini isə uşağın ağzını ciraraq oraya tıxamışlar.

4) Ermənilər Bağıdulu Yolşu Şıx Hüseyin oğlunu Işgəncələrlə öldürərək, onun ayıb yerini kəsərək ağzına soxuşdurmuşlar.

5) Bəğağududa erməni vəhşiliklərinin sayı-hesabı yoxdur. Erməni əsgərləri hələ çox kiçik körpə olan qızlardan Nissa Əmən qızını, Əcəb Nuxbala qızını, Sona Cəfər qızını və Şahmul Cəlal qızını qışqırda-qışqırda zorlayaraq öldürmüşlər.

6 ) Bağudu kəndinin yaxınlığında qaçan Gülməs qasım qızının döşlərini kəsmiş, bel nahiyyəsindən ona çiv çalınmışdır.

7) Nüvədi kəndində yataqda hərəkətsiz xəstə yatan 100 yaşlı qoca Əsəd bəy məlik Abbasovu ermənilər nizə ilə deşik-deşik etməklə qətlə yetirmişlər.

8) Nüvədi kəndində ermənilər qaçan qadın və uşaqları dar bir yerdən keçməyə məcbur etmişlər və orada pusquda duran digər ermənilər isə qaçan uşaq və qadınların bir-bir başını kəsərək dərəyə atmışlar.

9) Şəki kəndinin küçələrində döşlərini kəsmiş xeyli qadın meyidinə və şallaqlanmış – yəni yarıya bölünmüş uşaq meyidlərinə rast gəldik.

10) Irmişli kəndində ermənilər kəndin nəyi varsa aparmış, insanları məhv etmiş və evləri yandırmışlar. Küçələrdə xeyli nizəyə keçirilmiş döşənən körpalarin meyidi və xırda-xırda doğranmış kiçik yaşlı uşaq mryidlərinə rast gəldik.

11) Ağdü kəndində ermənilər müsəlmanların xristianlığı qəbul etmələrini tələb etmiş, kişiləri götürərək harasa aparmışlar və qalam qadınların döşlərini kəsərək süd əmən uşaqların ağzına pərçim etməklə öldürmüşlər.

12) Ağdü kəndində vəhşi ermənilər Qulam-Əmir Şakir oğlunun əvvəlcə ayaqlarını kəsmiş, sonra nizə ilə onu deşməklə məcbur etmişlər ki, ayaqsız yerisin. Bunu o vaxta qədər nizəni batırmaqla yeriməyə məcbur etmişlər ki, o qanaxmadan ölmüşdür.

13) Ağdu kəndində nə qədər gözəl qızlar varsa hamısını ermənilər zorlamışlar və əcaib işgəncələrlə öldürmüşlər.

14) Çullu kəndində yataqda yatan 9 nəfər xəstəni xəncərlə doğram-doğram etmişlər.

15) Bağırbəyli kəndində ermənilər əllərinə keçən 7 kişini və kəndin bütü qadın və uşaqlarını bəyin mülkünə yığaraq sağ-sağ yandırmışlar.

16) Musurmanlar kəndində meyidləri ermənilər o hala salməşlar ki, heç kimin qolunu, qıçını, başını bir yerə yığıb kiməsə oxşatmaq mümkün deyildi. Çünki, kəsilmiş başların dərisi soyulmuş, gözlər çıxarılmış, qulaqlar, burun və dodaqlar kəsilmişdi. Meyidlərin hamısının qarınları cırılmış, bağırsaqlar ətrafa səpələnmiş, qadınların döşlərini kəsilərək hara gəldi atılmışdır.

17) Qatar kəndində kəndin ağsaqqalı, Zəngəzurda hörmət sahibi olan qoca Məşədi Qələndər Məşədi Qulu oğlu öldürülmüş, sonra onun üzərinə neft tökməklə yandırmışlar.

18) Qatar kəndində ermənilər Kərbəlayi Allahverdi Hüseyin oğlunun əllərini və ayaqlarını bağlayaraq heyvan sayağı boğazını kəsmişlər.

19) Birinci Vartanazar kəndində başqa kəndlərlə müqayisədə bütün qadın və uşaqlar ancaq xəncərlə doğram-doğram edilmişlər. Rəhman-Əfəndi kəndində qoca Ibrahim Hacı Hüseyin oğlunun diri-diri gözləri çıxarılmış, sonra od vurularaq diri-diri yandırmışlar.

Zəngəzur qəzasının ermənilər hücüm edərək məhv etdikləri bütün kəndlərdə törədilən vəhşiliklər, qızların və qadınların zorlanması, başların və döşlərin kəsilməsi, əllərin-ayaqların kəsilməsi hamısında baş vermiş və o, dərəcədə çoxdur ki, sadəcə bunların hamısını bir məruzəyə sığışdırmaq heç cürə mümkün deyil.

Törədilən basqınlar, kəndlərin yandırılaraq biryolluq məhvi, insanlara tutulan qeyri-insani divanlar və s. əsasən general Andronikin əsgərləri tərəfindən törədilmiş və onun da başında erməni respublikasının rəhbərliyi durmuşdur. Çünki çox vaxt əvvəl-əvvəl əsgərlər müsəlman kəndlərinin əhalisinə kağız göstərərək hökumətin tapşırığı ilə müsəlmanların kəndləri boşaltması tapşırıqlarını Irəvan hökumətindən aldıqlarını bildirmişlər”.

Yuxarıda qeyd etdiyimiz kimi söylədiyimiz faciəli hadisələr ancaq Zəngəzurun hər bir yerində 1918-ci ilin yayın axırı və payız aylarında verən hadisələrdir.

“Məruzəmizin vacib məqamlarından biri də bir çox müsəlmanların müsəlman kəndlərinə hücüm edərək vəhşiliklər tərədən bandalara rəhbərlik etmiş erməniləri tanımalarıdır. Əlbətdə bu ermənilərin əksəriyyəti müsəlman kəndlərinə qonşu olan erməni kəndlərindəndir. Bəziləri isə bu və ya digər səbəblərdən müsəlmanlara məkum okan ermənilərdir.

Bunlardan, Gorus şəhərindən Goruslu Nikolay Osipov, Simon Nirumov, Dərəbəs kəndindən Samir Şahnəzərov, Mığrı kəndindən David Arşak, Matvesov Baçians, Kövər kəndindən Amazasp, Qyulyur kəndindən Ağabəy Məlik Oğancanov, Astasür kəndindən starşina Ağabəy Mudus Latvakanov, Nikolay Barsamov, Sibirdə sürgündə olmuş “Yapon” adlı ermıni, Ostazurlu keşiş Ter-David, Dərəbas kəndindən David və Kaspar Keşevi, Axlatian kəndindən Ovakum Ivan Martirosov, Manu,ar Poqosov və Aqalo Oqancanov, Dulus kəndindən Nepaqos Kaprielov və Sarkiscan Tevosov, Dərəbəs kəndindən Stepan Poqosov və Aleksand Kukiyev, Sirkətac kəndindən Misrop Kuniyev və Efrəm Rüstəmov, Laləzar kəndindən Qərib Qəribov, Səvəkər kəndindən Xuba Davidov, David Mnasakanov və Manuçar Tyuniyev, Ərçəzir kəndindən Kostant Asriyev, Xətənan kəndindən zabit Ovanes Ter-Petrosov, Xaçatur Davidov, Axtaxana kəndindən din xadimi Ter-Qriqor Ter-Minasov, Mühəndis Sumbat Məlik Stepanov, Gorua şəhərində yaşayan keçmiş polis işçisi Isaak Businsov və Sepatikov, Muğancıq kəndindən Dadaş və Xaçatyr Osipov, Gülgüm kəndindən Tevi Mnasakanov, Uğurçala kənd cəmiyyətinin başçı Nikolay Petrosov, Bığ kəndindən Samson Məlik Pərsatanov, Əkərək kəndindən Ivan Kazarov, Ayrapet Stepanov, Efrem Ağaxanov və Ərşak Simonov, Ərçazir kəndindən Sumbat Məlik Stepanov və Kövər kəndindən Ağalı Poqosov.

Zəngəzur qəzasının yüzdən artıq müsəlman kəndinin məhvi zamanı ermənilər buradan bir neçə onminlik iri buynuzlu mal-qara, bir neçə yüz minlik qoyun, bir neçə onminlik ot aparmaqla – meyvə bağları, məhsuldar torpaqlar, insan yaşayışı üçün ictimai nə varsa hamsını məhv etməklə qəzanın müsəlmanlar yaşayan məskənlərində iqtisadi vəziyyəti kökündən elə məhv etmişlər ki, burada yaşayışı hazırda səliqə-səhmana salmaq mümkün deyildir.

Sağ qalməş əhalinin bizə məlum olan 50.000 nəfəri Azərbaycanın müxtəlif kəndlərinə səpələnməklə dilənçi vəziyyətdə olmaqla yanaşı, mənəvi cəhətdən də tam məhv olmuşlar. Bu kəndlərə vurulan iqtisadi zərərin miqdarı bizim təxmini Hesablamalarımıza görə bir neçə milyard civarındadır”. (ÜQAOR Azerb. SSR, f.970, OP.10, d.161, ll. 1-9)

Tarixi mənbələrdən məlum olduğu kimi çar imperiyası 1917-ci ildə süqut etdikdən sonra Zaqafqaziya Federativ Respublikası yaranmışdı, amma o uzun çəkmədi. Gürcülər ayrıca respublika olmaq istədiyindən bu respublika parçalandı. Ermənilər isə çoxlu saylı ordu və silaha sahib olduqlarından və imperialist dövlətlər onları müdafiə etdiklərindən, Azərbaycanın hərbi və iqtisadi vəziyyəti ürəkaçan olmadığından və s. ermənilər demək olar ki, Zaqafqaziyanı hər yerində, Xüsusən Qərbi Azərbaycanda bütün müsəlmanları və onların yaşayış yerlərini məhv etməyə böyük rəvac verdiklərindən Azərbaycan çıxılmaz vəziyyətə (indiki kimi) düşmüşdü. Bütün bu ağır, iztirablı vəziyyətə baxmayaraq Azərbaycan öz müstəqilliyini elan etməli idi. Odur ki, dövrünün çox vətənpərvər insanları, təhsilli-ziyalı, insanları, əsilli-nəsilli insanları, özünü vətən yolundaşəhid etməyə hazır olan insanları, Azərbaycan bölgələrinin hamısını təmsil edən insanları bir araya gələrək, daha çox hazırlıqlı övladlarını, dövlət işlərində xüsusi qabiliyyətə malik olan insanları seçərək bu işlərlə məşğul olmağı tövsiyyə etdilər. 28 may 1918-ci ildə qədim Azərbaycan şəhərlərində biri və Zaqfederasiyanın paytaxtı olan Tiflis şəhərində Azərbaycan Milli Şurası Həsən bəy Ağayevin sədrliyi, Mustafa Mahmudovun katibliyi və Fətəli Xan Xoyskinin, Xəlil bəy Xasməmmədovun, Nəsib bəy Usubbəyovun, Mir-Hidayət Seyidovun, Nəriman bəy Nərimanbəyovun, Heybətqulu Məmmədbəyovun, Mehdi bəy Hacinskinin, Əli-Əskər bəy Mahmudbəyovun, Aslan bəy Qardaşovun, Sultan Məcid Qənizadənin, Əkbər Ağa Şeyxulislamovun, Mehti bəy Hacıbababəyovun, Məmməd –Yusif Cəfərovun, Xudadad bəy Məlik-Aslanovun, Rəhim bəy Vəkilovun, Həmid bəy Şaxtaxtinskinin, Fridun bəy Köçərlinin, Camo bəy Hacinskinin, Şəfi bəy Rüstəmbəyovun, Xosrov bəy Sultanovun, Cəfər

Axundovun, Maromәd Mәhәrrәmovun, Cavid Mәlik Eqanovun vә Hacı Molla Axundzadәnin iştirakı ilә Azәrbaycanın müstәqilliyini elan etdilәr. Qarabağın dağlıq vә dağәtәyi torpaqlarında, Zәngәzurda, Naxçıvanda vә ümumilikdә isә Qәrbi Azәrbaycanın hәr qarış torpaqlarında arxadan bıçaq sancmaqda mahir olan haylar çox böyük vәhşiliklәrlә qırğınlar aparır, insan yaşayışına lazım olan hәr şeyi mәhv edirdilәr ki, bu torpaqlara müsәlmanlar (Azәrbaycan türklәri) dönә bilmәsinlәr. Indiki Laçın bölgәsinin qәrbindә baş vermiş ermәni vәhşiliyidә hәmin dövrә tәsadüf etmişdir. Əslindә Laçın bölgәsi yuxarı Zәngәzura, Yuxarı Qarabağa aid olub, hәmin dövrdә dә üç tәrәfdәn ermәni basqılarına, qırğınlarına mәruz qalmışdır. 1992-ci ildә olduğu kimi hәm Laçına vә hәm dә bütövlükdә Zәngәzura dövlәt sәviyyәsindә kömәklik olmadığından burada Mixayılovun söylәdiklәrindәn dә dәhşәtli faciәlәri ermәnilәr törәdә bilmişlәr. Mәn nәnәnin qardaşının vә әmisi oğlunun söylәdiklәri vә gözlәri ilә gördüklәri faciәlәri-arxiv materiallarından tapdığım vә tutuşdurduğum әhvalatları oxudum, özümü saxlaya bimәdim, yaş mәni boğdu. Qeyri-iradi ağlıma bir "qeyrәt" sözü düşdü. Bir rusla Moskvada ona sübut etmişdim ki, sizin dilinizdә "qeyrәt" sözü yoxdur, bu doğurdan da belәdir. Bәs onda bizim qeyrәtimiz haraya qeyb oldu, başına söylәnilәn bişәrәflik gәtirilәn bir millәt necә yuxu tapıb yata bilir. O, mәnә çatmadı.

Laçın elindә ermәniyә nifrәt yәqin ki, bu hadisәlәrlә bağlı olmuşdu. Hәqiqәtәn, Laçın bölgәsindә Sovetlәr birliyindә dә olsa ermәnilәr yaşamırdılar, baxmayaraq ki, әtraf torpaqların hamısında ermәnilәr var idi. Hәm dә, ermәnilәr Laçına gәlib ustalıq etmәk dә belә istәmirdilәr, oraya gәlmәkdә çox çәkinirdilәr.

Bunun da әsas sәbәbi elә hәmin 1918-ci ildә bölgәnin "qeyrәt" sözünü unutmamış, yaddan çıxarmamış yerli bәylәrinin xüsusәndә Sultan bәy Paşa bәy oğlunun rәhbәrliyi ilә son bir neçә әsrdә lazımlı cavabı ermәnilәrә vermәklә Andranikin çox tәcrübәli vә yaxşı sılahlanmış qoşununa layiq olduqları cavabı vermәsidir.

Laçının, Yuxarı Zәngәzurun, Qәrbi Qarabağın ermәnilәr vә ruslar tәrәfindәn tutulmasından tәxminәn 20 il keçir. Artıq ermәnilәr Laçında dünyanın müxtәlif dövlәtlәrindәn olan yetim-

yesirlərini buraya toplayırlar, dağıtdıqları evlərin yerində yenisini tikməklə özününkləşdirirlər. Təkcə XX əsrdə ermənilərin Azərbaycan vətəndaşlarının, xüsusən də Qərbi Azərbaycanlıların başlarına gətirdiklərini-görəsən ata-babaları o torpaqdan olan insanlar bilirlərmi, bəlkə də yox. Bəs “qeyrət” sözünü necə-görəsən bilənlər var?!

## Müəllifin keçdiyi yoldan

Böyük Zəngəzurun axırıncı sultanı, Qarabağ xanlığının Baş sərkədəsi, Türk dünyasının böyük mücahidi Şeyx Şamilin yaxın dostu, silahdaşı, Azərbaycanda ona silah-sursatla yardım etmiş yeganə şəxs, Bağdadda və Odessada ali təhsil almış Cəbrayıl bəy Nəbibəylinin nəticəsidir.

Müxtəlif sahələrdə, o cümlədən Komitə və Nazirliklərdə, MEA-da Nazirlər Kabinetində və s. işləmişdir. «Hüquq» qəzetinin baş redaktorudur, curnalistlər birliyinin Qarabağ muharibəsinin veteranıdır, publisistikaya, elmin müxtəlif sahələrinə tarixi-sənədli və böyük həcmli kitabların müəllifidir, ixtiraları var, müxtəlif sahələrə həsr olunmuş 900-dən artıq elmi məqalələrin, kitabların müəllifidir, bir neçə xarici Akademiyaların üzvüdür, t.e.d. professordur, xeyli dövlət və cəmiyyətlərin, o cümlədən, «Qızıl Qələm» mükafatçısıdır.